

## Ermənistan beynəlxalq hüquq prinsiplərini pozur

*Ermənistan tərəfi Azərbaycanın işğal olunmuş ərazilərində bütün qanunları pozaraq, tikinti işlərinin aparılmasını davam etdirir. Təbii ki, bu da ciddi narazılıqla qarşılanmaqdadır. Hətta bir sıra beynəlxalq təşkilatlar da buna etirazını bildiriblər. Dünən isə Ermənistan prezidentinin köməkçisi, eks-deputat və "Beynəlxalq İnsan İnkişafı Mərkəzi"nin prezidenti Tevan Poqosyan Avropa parlamentinin...*

Səh.13


# Unikal

№18 (2013) 13 iyun 2020-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru




## Nazim İbrahimovun yeni həmləsi...

Səh.2



## Sərt karantin qaydalarını pozanları ağır cəza gözləyir

## Sabiq "diaspora şefi"nin qardaşı barədə gözlənilməz məhkəmə qərarı nədən xəbər verir?

*Yola saldığımız həftənin maraqlı hadisələrindən biri də Diasporla İş üzrə Dövlət Komitəsinin keçmiş sədri Nazim İbrahimovun qardaşı, iş adamı Sahib İbrahimovun hakim qarşısına çıxarılması və sonda elan edilən məhkəmə qərarı oldu. Lakin mətbuatda bu hadisə kifayət qədər diqqət çəkmədi; yerli media sadəcə ümumi məlumatla kifayətləndi. Xatırladaq ki, Sahib İbrahimovun cinayət işi üzrə məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsinin hakim Ramella Allahverdiyevanın sədrliyi ilə keçirilib, hökm oxunub.Hökmə əsasən, Sahib İbrahimov 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. İstintaq zamanı həbsdə qaldığı müddət cəzadan çıxılaraq qəti olaraq 3 il 11 ay cəza saxlanıb.*

Səh.13

## "Bu gün müxalifət patiyalarının durumu ürəkaçan deyil"



*Müxalifət düşərgəsində qarşılıqlı ittihamlar davam etməkdədir. Milli Şura və AXCP fəallarının digər müxalifət nümayəndələrinə qarşı təhqiramiz ifadələrə yol verməsi münasibətləri daha da gərginləşdirib. "Unikal" qəzetinə müsahibə verən AMİP Siyasi Şurasının üzvü Əli Orucov öncə müxalifətdaxili gərginliklə bağlı fikirlərini bölüşüb.*

Səh.4

## Ziya Məmmədovun təzə biznesi...



*Azərbaycanda örüş sahələrinin müxtəlif məmurlar, onların himayə etdiyi iş adamları tərəfindən mənimsənilməsi adi hal alıb. Belə hallara ən çox rast gəlinən rayonlar sırasında isə Ucarın adı ön sırada çəkilir. Bu isə vaxtaşırı həmin rayonda sakinlərin etirazlarına gətirib çıxarır. Lakin həmin etirazlar hələ də sözügedən problemin köklü...*

Səh.7

## Rafael Cəbrayılovun başı üstündə yenə "qara buludlar" dolaşır



*Yola salmaq üzrə olduğumuz həftə son zamanların ən qalmaqallı, səs-küylü hadisələrindən birini yenidən cəmiyyətə xatırlatdı. Söhbət deputat Rafael Cəbrayılovla bağlı bir müddətdir unudulan olaydan gedir. O, mandatını borc müqabilində girov qoymuş, bu üzə çıxınca isə cəmiyyətdə böyük rezonansa səbəb olmuş, nəticədə...*

Səh.8

# Prezident Şahin Mustafayevlə bağlı sərəncam verdi



***Azərbaycan Prezidenti İlham Əliyev Şahin Mustafayevi təltif edib.***

"Unikal" xəbər verir ki, dövlət başçısının sərəncamı ilə Azərbaycanın iqtisadi inkişafında xüsusi xidmətlərinə görə Şahin Abdulla oğlu Mustafayev "Şöhrət" ordeni ilə təltif edilib.

Qeyd edək ki, Ş. Mustafayev Baş Nazirinin müavinidir. Sabah onun 55 illik yubileyidir.

# Daha 336 nəfərdə koronavirus aşkarlandı, 5 nəfər öldü

***Azərbaycanda iyunun 12-də daha 336 nəfərdə koronavirus aşkarlanıb.***

"Unikal"ın verdiyi xəbərə görə, bunu TƏBİB-in yoluxucu xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev deyib.

O bildirib ki, ölkədə 183 nəfər bu xəstəlikdən sağalıb, 5 nəfər isə vəfat edib.

# Nazir yüksək vəzifəli şəxsləri işdən çıxardı

***Ekologiya və Təbii Sərvətlər Nazirliyinin (ETSN) Milli Geoloji Kəşfiyyat Xidmətinə rəhbər təyinatı olub.***

Nazirliyin mətbuat katibi İradə İbrahimovanın verdiyi məlumata görə, Əli Əliyev xidmətin rəis müavini təyin edilib və rəis vəzifəsi ona həvalə olunub.

Bu təyinata qədər Ə. Əliyev uzun illər Milli Geoloji Kəşfiyyat Xidmətində müxtəlif vəzifələrdə çalışıb.

Prezident İlham Əliyevin 23 may 2020-ci il tarixli Sərəncamı ilə "Əməkdar mühəndis" fəxri adına layiq görülüb.

Qeyd edək ki, ETSN Milli Geoloji Kəşfiyyat Xidmətinin rəisi Mürsəl Əliyev və rəis müavini Şahmirzə Səfərov dünən vəzifələrindən azad olunub.

# Teymur əminin ölümü ilə bağlı növbəti açıqlama

***"Xalq artisti Teymur Mustafayev koronavirus səbəbindən vəfat edib".***

"Unikal"ın verdiyi xəbərə görə, bunu TƏBİB-in yoluxucu xəstəliklər üzrə işçi qrupunun rəhbəri Vasif Əliyev deyib.

O bildirib ki, onunla təmas edən insanların yaxınları mütləq qaydada nəzarətə götürülür: "Onlarda hər hansı simptomlar olduğu halda bu barədə təcili tibbi yardım xidmətinə məlumat verməlidirlər".

Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500

# "Sərt karantin rejimi həftə içi də tətbiq olunmalıdır" - TƏBİB

***"Sərt karantin rejimi tək həftəsonu deyil, həftə içi də tətbiq olunmalıdır. Buna ara verilməməlidir".***

Unikal.org xəbər verir ki, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Yoluxucu xəstəliklər işçi qrupunun rəhbəri

Vasif Əliyev Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqdə çıxışı zamanı deyib.

O bildirib ki, rəqəmlər arasında təzad vəziyyətin ciddi olduğunu göstərir: "Evdə koronavirus xəstəsi olub da bunu gizlədən vətəndaşlarımız kifayət qədərdir. Bu da başqa insanları yoluxdurmaq deməkdir. Vəziyyət nəzarətimiz altında olsa da, vaxtında həkimə müraciət edilməsini istəyirik".

# Sərt karantin qaydalarını pozanları sərt məsuliyyət gözləyir

***Sərt karantin qaydalarını pozan şəxslər inzibati məsuliyyətə cəlb olunurlar. "Unikal"ın məlumatına görə, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev deyib.***

Onun sözlərinə görə, polisin qanuni tələblərinə məhəl qoymayan şəxslər polis bölməsinə aparıla bilər:

"Əgər şəxs başqa adama virus yoluxdurarsa və bu təstiqlənərsə, həmin şəxs cinayət məsuliyyətinə cəlb edilir. Karantin qaydalarını pozan şəxs əgər polisə müqavimət göstərirsə, qanunu tələblərinə uyğun olaraq həmin şəxs yaxınlıqdakı polis bölməsinə aparılır. Həmin bölmədə qanunvericiliyin tələblərinə uyğun məsuliyyətə cəlb olunur".

K.Əliyev xatırladıb ki, sərt karantin elan olunan ərazilərdə hərəkətə nəzarət Daxili İşlər Nazirliyinə həvalə olunub.

Onun sözlərinə görə, iyunun 14-dən 16-dək sərt karantin elan olunan ərazilərdə mobil postlar da olacaq: "Yalnız fəaliyyətinə icazə verilən şəxslərin hərəkətinə icazə veriləcək. Digərlərindən xahiş edirik ki, karantin günlərində evlərini tərk etməsinlər. Vətəndaşlar yalnız təcili yardım xidmətinə ehtiyacı olanda və yaxın qohumlarının dəfn mərasiminə getmək üçün Daxili İşlər Nazirliyinin 102 xidmətinə məlumat verəndən sonra icazə əsasında evlərini tərk edə biləcəklər".



Vətəndaş yalnız yaşadığı blokun yaxınlığındakı qablara zibil atmaq üçün çıxa bilər. Modern.az-ın məlumatına görə, bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində Baş Dövlət Yol Polisi İdarəsinin İctimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis polkovniki Kamran Əliyev deyib. Onun sözlərinə görə, əgər məişət tullantıları qabı uzaqdadırsa, ora getməyə icazə verilmir:

"Həmin şəxs 200-300 metr zibil atmaq üçün yaşayış yerini tərk edə bilməz. Bu üsuldan suiistifadə edənlər məsuliyyətə cəlb ediləcəklər. Yəni zibil atmaq adı ilə yaşayış yerindən uzaqdakı əraziyə getmək qadağandır. 2 gün müddət çox deyil. Həmin zibilləri evyanda qapalı qabda saxlamaq olar".

Operativ Qərargahın bugünkü brifinqində bildirlib ki, sərt karantin günlərində Bakıdakı binaların qarşısında zibil atmaq üçün xüsusi konteynerlər yerləşdiriləcək.

Bakı şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri Elgin Həbibullayevin sözlərinə görə, artıq bu konteynerlərin quraşdırılması prosesinə başlayıb.

"Bu konteynerlər yalnız yaxınlığında zibil qabı olmayan binaların ətrafında qoyulacaq. Bununla əlaqədar artıq 1000 konteyner ayrılıb və bunlar yalnız iki gün üçün nəzərdə tutulub".

E.Həbibullayev əlavə edib ki, bundan öncəki sərt karantin reimi dövründə insalar çörəyi aşırı dərəcədə alıblar və sonraki günlərdə onları zibil qabına atıblar: "Atılmış çörəkləri görəndə belə təəssürat yaranmışdı ki, insanlar sanki çörəyi iki günlük deyil, bir həftəlik alıblar".

# Məhkəmə Neftçalanın sabiq icra başçısı ilə bağlı qərar verdi

***Səbail Rayon Məhkəməsində Neftçala rayon İcra Hakimiyyətinin sabiq başçısı İsmayıl Vəliyev və digər vəzifəli şəxslərin barəsində seçilmiş qətimkan tədbirlərinin müddətinin uzadılması ilə bağlı istintaq orqanının təqdimatına baxılıb.***

"Unikal" verir ki, təqdimata hakim Şəhla Süleymanovanın sədrliyi ilə baxılıb. Qərara əsasən, təqdimat təmin edilib və İ.-Vəliyev barəsində seçilmiş həbs qətimkan tədbiri daha 3 ay uzadılıb.

Həmçinin digər vəzifəli şəxslər barəsində seçilmiş qətimkan tədbirlərinin müddətinin artırılması barədə təqdimatlar təminb edilib.

Qeyd edək ki, İ.Vəliyev və digərləri Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçrdiyi əməliyyatla saxlanılıb.

Onlara qarşı rüşvət, mənimsəmə, vəzifə səlahiyyətlərindən sui-istifadə və s. əməllərilə bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə ittiham verilib.

Həmçinin rayonun digər vəzifəli şəxsləri - icra hakimiyyəti başçısının birinci müavini Vurğun Əkbərov, Memarlıq və tikinti şöbəsinin müdiri Vüqar Nağıyev, Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Anar Cəfərov,




rayon Mərkəzi Xəstəxanasının baş həkimi Telman Zahidov, rayon Təhsil şöbəsinin müdiri Əjdər Kərimov da bu cinayət işi üzrə təqsirləndirilirlər.

# İcazə alan bəzi şəxslər cərimələnə bilər – RƏSMİ

***"Xüsusi karantin günlərində fəaliyyət göstərməsi üçün 210 minə yaxın işçiyə icazə alınıb".***

"Unikal" xəbər verir ki, bunu Nazirlər Kabineti yanında operativ qərargahın kec?irdiyi mətbuat konfransında Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev deyib.

O bildirib ki, 14-16 iyun tarixlərində xüsusi karantin rejimində yalnız operativ qərargahın icazə verdiyi dövlət və özəl qurumların əməkdaşları icaze.gov.az saytı vasitəsilə icazə ala biləcəklər:

"210 minə yaxın işçi üçün icazə alınıb. İcazə verilən qurumlar da maksimum az işçilərə icazə verilməsini nəzərə almalıdırlar".

Onun sözlərinə görə, icazə alınan şəxslər həmin işə uyğun olmadığı halda, onların adı icazə sistemindən çıxarılacaq:

"Eyni zamanda, həmin şəxslərə cərimələr tətbiq ediləcək. Ona görə də icazə alanlar diqqətli olmalıdırlar".

**BAŞSAĞLIĞI**

Zaur Əhməd, Hüseyn İsgəndərov, Famil Fərhadoğlu Mübariz Hacıyevə anası Dilarə xanımın vəfatı ilə əlaqədar başsağlığı verir, dərin hüznlə kədərləndiklərini bildirirlər.

**Allah rəhmət eləsin!**

# Milli Məclisin növbəti iclası keçirildi

***İyunun 12-də Milli Məclisin növbədənkənar sessiyasının növbəti plenar iclası keçirildi.***

"Unikal" xəbər verir ki, iclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, bir neçə gündən sonra xalqımız tariximizə qızıl hərflərlə yazılmış 15 iyun - Milli Qurtuluş Gününü qeyd edəcək. Bu, bizim üçün sadəcə təqvim bayramı deyil. Onun ictimai, siyasi və tarixi əhəmiyyəti olduqca böyükdür. Milli Qurtuluş Günü Azərbaycanın müasir tarixinin dönüş nöqtəsidir, xalqımızın, Azərbaycan dövlətçiliyinin sözün həqiqi mənasında xilası tarixidir. Bu tarixi yaradan, yazan isə milli, müstəqil dövlətçiliyimizin banisi Ulu Öndər Heydər Əliyevdir.

Spiker qeyd etdi ki, müstəqilliyin ilk illərində dövlətimizin üzləşdiyi təhdidlərin, xalqımızın yaşadığı faciələrin bu gün bu zalda əyləşən bir çoxları canlı şahidi olublar. Həmin dövrdə müşahidə olunan siyasi xaos və anarxiya, dərin iqtisadi tənəzzül, separatizm meylləri yenicə əldə olunmuş müstəqilliyimizi itirmək təhlükəsi yaratmışdı.

Belə bir zamanda, xalqımızın dəstəyi, etimadı və tələbi ilə ölkəmizdə hakimiyyətə gələn Heydər Əliyevin yüksək səriştəsi, liderlik bacarığı, zəngin dövlətçilik təcrübəsi Azərbaycanı siyasi təlatümlərdən, beynəlxalq təcriddən xilas etdi. Ölkəmizdə hökm sürən özbaşınalıq aradan qaldırıldı və ictimai-siyasi sabitlik təmin olundu. Qısa müddət ərzində Ümummilli Liderin rəhbərliyi ilə köklü islahatlar başlandı, dövlətçiliyin əsasları yaradıldı. Buna paralel olaraq, cəmiyyətimizin ideoloji əsasları formalaşdırıldı, azərbaycançılıq məfkurəsi dövlət ideologiyası kimi qəbul edildi. Demokratik inkişaf, insan hüquqları ilə bağlı çox ciddi islahatlara start verildi. Azərbaycan müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf etməyə başladı. Heydər Əliyev Azərbaycanın müstəqilliyinin əbədi, sarsılmaz və dönməz xarakter almasına nail oldu.

Parlamentin Sədri daha sonra belə bir fikri vurğuladı ki, 15 iyunun bizim üçün müstəsna əhəmiyyəti həm də onunla əlaqədardır ki, möhtəşəm qurtuluş tarixi məhz bu binada - Milli Məclisdə yazılmağa başlanmışdır. Ulu Öndərin parlamentimizə rəhbərlik etməsi Azərbaycan parlamentarizm tarixinin parlaq bir səhifəsini təşkil edir. O vaxta qədər siyasi çaxnaşmaların, marginal qruplaların mübarizəsinin mərkəzi olan Azərbaycan parlamenti Heydər Əliyevin rəhbərliyi ilə demokratiya məbədinə, Azərbaycanın gələcək inkişaf yolunun müəyyən olunduğu strateji bir mərkəzə çevrildi. Ulu Öndər məhz parlamentin 1993-cü il iyunun 15-də keçirilən iclasındakı çıxışında Azərbaycan dövlətçiliyinin gələcək inkişaf strategiyasını elan etdi və sonrakı illərdə onu həyata keçirdi.



Spiker öz çıxışında dedi ki, xalqımız haqlı olaraq ölkəmizin bugünkü uğurlarını, sabitlik və firavanlığı məhz Heydər Əliyevin tarixi qayıdışı ilə bilavasitə əlaqələndirir. Ölkəmizin inkişafı ilə bağlı fundamental istiqamətlər Ulu Öndər tərəfindən müəyyən edilmişdir. Çox sevindirici haldır ki, Qurtuluşdan başlanan tarixi yol bu gün də uğurla davam etdirilir. Ölkəmizin bugünkü yüksək inkişafı və tərəqqisi Heydər Əliyev ideyalarından güc alır, qurtuluş məfkurəsinə istinad edir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çoxşaxəli siyasət sayəsində Azərbaycan Respublikası inkişaf edir, dövlət quruculuğu istiqamətində əhəmiyyətli nailiyyətlər əldə edilir. Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində də etibarlı tərəfdaş kimi tanınır. Bu gün tam əminliklə deyə bilərik ki, Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycan ən yüksək zirvələri fəth edir.

Sonra parlamentin iclas zalında Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsinin 15 iyun Milli Qurtuluş Günü ilə əlaqədar hazırladığı video-material nümayiş olundu.

Tədbirdə çıxış edən komitə sədrləri Sadiq Qurbanov, Musa Quliyev, Zahid Oruc, Səməd Seyidov, deputatlardan Elşən Musayev, Ramil Həsən, Tural Gəncəliyev, Azay Quliyev, Ceyhun Məmmədov, İlham Məmmədov, Cavid Osmanov, Fəzail Ağamalı qarşıdan gələn 15 iyun Milli Qurtuluş Günü ilə əlaqədar fikirlərini bölüşdülər, bu günün Milli tariximizdəki rolunu və əhəmiyyətini xüsusi vurğuladılar, seçiciləri maraqlandıran məsələlərdən söhbət açdılar. Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Dağlıq Qarabağın Azərbaycanlı icmasının rəhbəri, deputat Tural Gəncəliyev Avropa Parlamentinin Ermənistanın Dağlıq Qarabağa üçüncü yol çəkməsi əleyhinə verdiyi bəyanatı Azərbaycan diplomatiyasının uğuru və Avropa Parlamentinin obyektiv qərarı kimi dəyərləndirdilər. Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlandı.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, gündəliyə 7 məsələ daxil edilmişdir.

"Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarliq komitəsinin sədri Tahir Mirkişili bildirdi ki, layihənin birinci oxunuşda Milli Məclisdə müzakirəsi zamanı layihə barədə ətraflı məlumat verilmişdir. Müzakirələr zamanı 17 deputat çıxış etmiş, qeyd və təkliflərini vermiş, bir sıra məsələlərə maliyyə naziri Samir Şərifov tərəfindən aydınlıq gətirilmişdir.

Komitə sədri bildirdi ki, 2019-cu il Azərbaycanda ən sürətli, əhatəli islahatlar ili kimi yadda qalmışdır. Aparılan iqtisadi islahatlar sürətli və inklüziv iqtisadi inkişafla nəticələnib.

Müzakirələr zamanı çıxış edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli, komitə sədrləri Bəxtiyar Əliyev, Zahid Oruc, Siyavuş Novruzov, deputatlar Jalə Əliyeva, Erkin Qədirli, Məlahət İbrahimqızı, Fazil Mustafa, Emin Hacıyev, Malik Həsənov, Razi Nurullayev, İltizam Yusifov, Əziz Ələkbərov, Səttar Möhbalıyev, Sevinc Fətəliyeva, Elman Məmmədov, Rauf Əliyev 2019-cu ilin dövlət büdcəsinin icrasını yüksək qiymətləndirdilər, qeyd və təkliflərini verdilər.

Müzakirələrdən sonra "Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi ikinci oxunuşda səsə qoyularaq qəbul edildi.

***Hüseyn İsgəndərov***

# Əli Əsədov tibb işçilərinin əmakhaqları ilə bağlı qərara dəyişiklik etdi



***Nazirlər Kabienti "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" qərarında dəyişiklik edib.***

"Unikal" xəbər verir ki, bununla bağlı qərarı Baş Nazir Əli Əsədov imzalayıb.

Qərara əsasən, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına müddətli əlavə iş vaxtına mütənasib olaraq daha bir ay uzadılaraq 2020-ci il iyulun 1-dək olan müddət üçün ödəniləcək.

Xatırladaq ki, yeni növ koronavirus (COVID-19) infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına müddətli əlavənin məbləği aşağıdakı kimi müəyyən edilib:

- tibbi profilaktik tədbirləri həyata keçirən işçilərə - aylıq vəzifə (tarif) maaşının 3 misli məbləğində;
- təcili tibbi yardım xidməti göstərən tibb işçilərinə, həmçinin bioloji materialın müayinəsi ilə məşğul olan laboratoriya işçilərinə, o cümlədən Məhkəmə Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyinin və Azərbaycan Qida Təhlükəsizliyi İnstitutunun işçilərinə - aylıq vəzifə (tarif) maaşının 4 misli məbləğində;
- pasiyentlərə stasionar tibbi xidmət göstərən işçilərə - aylıq vəzifə (tarif) maaşının 5 misli məbləğində.

# AQTA-nın nəzarətçiləri koronavirusla mübarizə tədbirlərinə qoşuldu



***Koronavirus (COVID-19) infeksiyasının ölkədə yayılması, onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə respublikada tətbiq olunan xüsusi karantin rejimi dövründə Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi (AQTA) tərəfindən əhalinin sağlamlığının qorunması, təhlükəsiz qida məhsulları ilə təmin edilməsi istiqamətində mütəmadi olaraq ictimai iaşə müəssisələri, həmçinin ərzaq satışı məntəqələrində maariflləndirmə xarakterli reydlər həyata keçirilir, sahibkarlar xəstəliyin profilaktikası, virusdan qorunmaq yolları barədə ətraflı məlumatlandırılır.***

"Unikal" xəbər verir ki, agentlik tərəfindən sahibkarların və istehlakçıların maarifləndirilməsinə yönəlmiş genişmiqyaslı tədbirlərə bu dəfə AQTA-nın "Könüllü Qida Nəzarətçisi" proqramının könüllüləri də cəlb edilib. Belə ki, könüllü qida nəzarətçiləri ərzaq mağazaları və ictima iaşə müəssisələrində vətəndaşlarla koronavirusdan qorunmağın yolları, onun törədə biləcəyi fəsadlar haqqında maarifləndirici tədbirlərdə iştirak edib, eyni zamanda ərzaq məhsulları və meyvə-tərəvəz alarkən diqqət ediləcək məqamlar, ərzaq və ictimai iaşə müəssisələrində kassaların qarşısında növbə zamanı 2 metrlik məsafənin saxlanılması, tibbi maskadan istifadənin önəmi ilə bağlı tövsiyələri istehlakçıların nəzərinə çatdırıblar.

Könüllü qida nəzarətçiləri karantin rejimi dövründə AQTA tərəfindən hazırlanaraq ərzaq mağazaları və ictimai iaşə obyektlərinə təqdim olunan koronavirusun (COVID-19) profilaktikasına dair metodiki göstərişlər və sözügedən obyektlərdə yerləşdirilən posterlərlə istehlakçıları tanış ediblər. Həmçinin könüllü qida nəzarətçiləri tibbi maskasız ərzaq mağazalarına daxil olan şəxslərə maska və əlcəklər paylayıb, fərdi mühafizə vasitələrinin virusdan qorunmaqda əhəmiyyətini onların diqqətinə çatdırıblar.

Qeyd edək ki, Agentlik tərəfindən əhalinin sağlamlığının qorunması, təhlükəsiz qida məhsulları ilə təmin edilməsi istiqamətində ardıcıl olaraq zəruri tədbirlərin həyata keçirilməsi, vətəndaşların, istehlakçı və sahibkarların maarifləndirilməsi tədbirləri bundan sonra da davam etdiriləcək.

# “Bu gün müxalifət patiyalarının durumu ürəkaçan deyil”

## Əli Orucov: “Başqalarını qısnamaq, lağa qoymaq müxalifət düşərgəsində inamı azaldaraq, əlaqələrin genişləndirilməsinə mane olur”

***Müxalifət düşərgəsində qarşılıqlı ittihamlar davam etməkdədir. Milli Şura və AXCP fəallarının digər müxalifət nümayəndələrinə qarşı təhqiramiz ifadələrə yol verməsi münasibətləri daha da gərginləşdirib. “Unikal” qəzetinə müsahibə verən AMİP Siyasi Şurasının üzvü Əli Orucov öncə müxalifətdaxili gərginliklə bağlı fikirlərini bölüşüb.***

***-Əli bəy, son dövrlər Milli Şura və AXCP rəhbərliyinin videokonfransları ciddi siyasi mübahisələrə səbəb olub. Özlərindən başqa digər müxalifət qüvvələrini lağa qoyub təhqir edirlər. Bu barədə nə deyə bilərsiniz?***

-Siyasi mübarizədə və siyasətdə əxlaq və etik normalar həmişə gözlənilməlidir. Rəqiblərə, opponentlərə kimliyindən asılı olmayaraq hörmətlə yanaşılmalıdır. Belə olduqda siyasətçi öz nüfuzunu da, imicini də qorumuş olur. Təəssüflər olsun ki, bəzi siyasilər və siyasi qüvvələr, o cümlədən adını çəkdikləriniz etik cizgiləri tez-tez aşır, başaqlarına üstən aşağı baxır, təhqir edir və s. Təbii ki, bütün bunlar da kənardan xoş görsənmir və həmin qurumun özünü gözdən salır. Burada bir məqamı da deyim ki, videokonfransın hansısa əllə yayılmasını da düzgün hesab etmirəm. Bu gün Azərbaycanda bütün müxalifət patiyalarının durumu ürək açan deyil. Heç bir siyasi qüvvə də iddia edə bilməz ki, o Azərbaycanda baş verən hadisələrə yön və istiqamət verə bilir. Belə bir siyasi müxalifət yoxdur. Yaxşı olardı ki, mövcud ağır durumdan çıxış yollarını birgə arayıb axtarıb tapa. Yoxsa başqalarını qısnamaq, lağa qoymaq, özünü təkəbbürlü aparmaq, əksinə müxalifət düşərgəsində etimadsızlığı, inamı azaldaraq, əlaqələrin qurulmasına və genişləndirilməsinə mane yaradır. Biz maneələr yaratmaqla deyil, maneləri aşmaqla, bu əngəlləri aradan götürməklə nəyəsə nail ola bilərik. Sadəcə bunu anlamaq lazımdır. Son günlər Milli Şura daxilində baş verən istefalar bir daha onu göstərdi ki, bu qurum heç də sağlam olmayan kurs götürüb. Özləri bilən məsləhətdir.

***-Digər siyasiləri anlamaq olur, amma professor Cəmil Həsənlinin də analoji təhqiredici və aşağılayıcı fikirlər səsləndirməsi barədə nə deyə bilərsiniz?***

-Heç bir siyasətçi etik və əxlaqi normaları aşa bilməz. Hansı siyasətçi ki, təhqiri, aşağılamaları, söyüşü leksikonunda tez-tez işlədirsə, deməli o siyasətçinin daha cəmiyyətə deyəcəyi söz yoxdur və o dövrünü bitirib. Əsəbləri və psixologiyası da yerində deyil. Siyasətçi üstün keyfiyyətləri və davranışları ilə etalon olmalıdır. Ən kritik hallarda soyuqqanlılığını və təmkinini itirməməlidir. Təxribatlara uymamalıdır. Bəzən bizdə elə yanlış təsəvvür yaranır ki, kim daha çox və ucadan söyə və təhqir edə bilirsə o əsil müxalifətçi və ya qorxmayan birisidir. Halbuki siyasət əslində elə etika və mədəniyyət deməkdir. Biz siyasətçilər arqumentlərə, dəlillərə və faktlara söykənməklə insanları inandırmağı bacarmalıyıq. Bunlar olmayanda dediklərin mənasız və gərəksiz fikirlər olmaqla heç kəsin ilgisini çəkməyəcək. C.Həsənlinin ritorikasında təhqirin və aşağılayıcı fikirlərin yer almasından təəssüflənirəm. Görünür onun da əsəbləri daha tab gətirmir.

***-Bir məsələ var ki, ölkədə hansısa köklü dəyişiklik, siyasi islahatlara nail olmaq üçün müxalifətin bir araya gəlməsi zərurəti var. Belə bir məqamda müxalif qüvvələrin birliyi mümkündürmü?***

-Ölkədə fundamental və ciddi dəyişikliklərə çoxdan zərurət var. İndiyədək hökumətin etdikləri bəzi kosmetik dəyişiklikləri islahatlar kimi qələmə verməyə çalışsalar da, cəmiyyətin ayıq hissəsi daha dərinliklərə gedilməsini tələb etdi. İslahat ilk növbədə siyasi sistemin dəyişdirilərək daha modern və demokratik prinsiplərə uyğunlaşdırılmasından başlamalıdır. Hansısa kadrı işdən çıxarıb yerinə başqasının təyinat alması islahat sayıla bilməz. Belə şeylərlə cəmiyyətin uzun müddət başını qatmaq, diqqəti əsas problemlərdən yayındırmaq mümkün deyil. Azərbaycanda konstitusiyamıza görə formal olaraq hakimiyyət bölgüsü nəzərdə tutulsa da, faktiki olaraq bütün hakimiyyət ali icra qurumu olan prezidentin əlində cəmləşib. Dövlət başçısı real olarq qeyri-məhdud səlahiyyət sahibidir. Konstitusiyada da ona geniş səlahiyyətlər verilib. Belə olduqda qanunverici və məhkəmə hakimiyyəti gölgədə qalır və qarşılıqlı nəzarət və əlaqəli fəaliyyət qabiliyyətini itirir. Parlamentin tərkibinin də necə formalaşmasını hamı bilir. Siyasi sistemin ayrılmaz və vacib tərkib hissələrindən olan siyasi partiyalar deməк olar ki, sıradan çıxarılıb. Çoxpartiyalı siyasi sistemin adı qalıb. Bax islahatlar buradan başlamalıdır. Seçkili orqanların fəaliyyətinə və formalaşdırılmasın sərbəstlik verilməli və geniş imkanlar yaradılmalıdır. Bir müddət əvvəl bir neçə rayonun icra başçılarını korrupsiyaya görə həbs etdilər. Əslində bütün ölkə korrupsiya girdabında boğulur. Bu məntiqlə gərək məmurların 80-90 faizi həbs oluna. Lakin inzibati və digər cəzalar çıxış yolu deyil.

***-Vəziyyətdən çıxış yolu nədir?***

-Çıxış yolu ondadır ki, rayondakı inzibati-təsərrüfat işlərini bələdiyyələrə vermək və bələdiyyələri də doğrudan- doğruya xalqın səsi ilə formalaşdırmaq lazımdır. Misal üçün qonşu və qardaş Türkiyə nümunəsi. Bu istiqamətdə reformalar aparılarsa məncə müxalifət də prezidentə dəstək verər. Azərbaycan müxalifəti ölkənin kritik durumdan çıxarılmasında üzərinə hansısa vəzifə və rol götürə bilər. Bunun üçün ilk növbədə hakimiyyətin özü maraqlı olmalı və təşəbbüs göstərməlidir ki, sağlam qüvvələrin potensialından yararlana bilsin. Müxalifətdə kifayət qədər müxtəlif sahələr üzrə hazırlıqlı və təcrübəli kadrlar var. Onları prosesə cəlb etməkdə fayda var. Müxalifət partiyalarının birliyinə və əməkdaşlığına gəlincə isə bunu istəyən qüvvələr zaman-zaman toplanıb müəyyən fikir mübadiləsi aparır və hökumətə də təkliflərini verir. Məsələn AMİP də daxilı olmaqla 10 partiya mütamadi görüşlər keçirir və aktual problemlərlə bağlı müzakirələr aparırlar. Növbəti görüşün ünvanı AMİP qərargahı olmalı idi. Təəssüf ki pandemiya səsbəbindən tətbiq edilən sərt karantin rejimi bu görüşü ertələdi. Müxalifət partiyaları da spesifikdir. Var əlini daşın altına qoyub məhdud imkanlar daxilində hansısa işləri görən və buna müəyyən qədər nail oaln müxalifət partiyaları, bir də var ancaq təkəbbür içərsində boğulan, özündən başqa heç kəsi bəyənməyən, nəlbəkidə fırtına qoparan, ancaq bəzəkli- düzəkli danışan, söyüş söyən müxalifət. Hərə öz yolunda öz fəaliyyətini davam etdirməkdədir. Hesab edirəm ki,

AMİP kimi sağlam, konstruktiv müxalifət partiyaları ölkədəki və regiondakı gedən prosesləri düzgün analiz edib, üzərinə düşən görəvi və məsuliyyəti anlayaraq fəaliyyətini də bu istiqamətdə davam etdirir.

***- 1993-cü il iyun hadisələri ilə bağlı da AMİP və onun o zamankı sədri Etibar Məmmədovu əsasən Xalq Cəbhəsi hakimiyyətinin təmsilçiləri hədəfə alırlar. Hər il bu tarixdə müxtəlif ittihamlar səslənir. Bu söz-söhbətin əsası varmı?***

-1993-cü ilin iyun hadisələrinin iştirakçıları da səbəbkarları da məlumdur. Getdikcə də bir sıra qaranlıq məqamlara da aydınlıq gətirilməkdədir. Bu baxımdan MTN-nin birinci müavini olmuş Sülhəddin Əkbərin müsahibəsi çox şeyləri açıb tökdü. Əslində bilənlər bilirdi, onun dediklərini. Bu müsahibədə bir daha sübut olundu ki, Əbülfəz Elçibəy hökmətinin üzvlərinin bir qismi Rusiya xüsusi xidmət orqanlarının agenti, bir qismi təsadüfi adamlar, bir qismi xəyanətkar, fərsiz və qorxaqlardan ibarət imiş. Maraqlı və möcüzə odur ki, belə bir hakimiyyət bir il davam gətirib. Gör bir qədər də ömrü uzun olsaydı bu dövlət, bu millət hansı faciələri yaşayardı. Bilirsiz, insanda məsuliyyət, abır-həya hissi çox yaxşı şeydi. AXC-Müsavat hakimiyyətini biabırcasına süquta uğradanlar çıxıb indiyədək bunun müzakirəsini öz aralarında aparıb, xalqdan üzr istəməyiblər.Niyə bunu etmirlər? Çünki hamısı bir-birini satacaq, bir-birini ittiham edəcək. Amma AMİP 1993-cü ildə Mərkəzi Şuranın iclasında 4 iyun hadisələrinin geniş müzakirəsini aparıb və siyasi qiymətini verib. Aradan 27 il keçib. Yeni nəsil yetişib. Uydurduqları yalanlarla, əsassız ittihamlarla AMİP-i və onun lideri Etibar Məmmədovu onların hakimiyyətini niyə qorumadı kimi absurd fikirlər hələ də səsləndirməkdədirlər. Halbuki özləri pərən-pərən olub qorxularından qaçıb gizlənənləri AMİP necə və niyə qorumalı idi. Buna cavab tapa bilmirlər. E.Məmmədov Ə.Elçibəyə dəfələrlə deyib ki, gəlib vəzifəsini icra eləsin, heç nədən çəkinməsin, amma o bundan imtina edib.AMİP-in və Etibar bəyin indiyədək bir sözünü, bir kəlməsini tapıb ortaya qoya bilmirlər ki, kimisə müdafiə edib. Yoxdur, ola da bilməz. AMİP müharibə şəraitində olan bir ölkədə gedən proseslərdən və hakimiyyətsizlikdən narahat olub və atdığı addımları da dövlətçilik və milli maraqlar baxımından doğru-düzgün atıb. Özlərini milli hökümət adlandıranlar müdafiələri üçün heç küçəyə 100 nəfər tapıb çıxara bilmədilər. Niyə? çünki qısa müddət ərzində xalq və millət onlardan üz çevirdi. Xalqa, millətə və öz prezidentlərinə xəyanət etdilər.. Dövlət onlara əmanət edilmişdi. Əmanətə xəyanət edildi. Bu barədə çox danışmaq olar.

***-Ümumiyyətlə, sizcə, tarixdəki səhvlərin ardınca düşüb ucuzluğa getmək, yoxsa umu-küsüləri kənara qoyub yeni səhifə açmaq yaxşıdır?***

-Bizim heç kəslə nə problemimiz var, nə də umu-küsümüz. Mən hesab etmirəm də AMİP hansısa tarixi səhvə yol vermiş olsun. AMİP yarandığı gündən üzərinə götürdüyü prinsiplərinə və daşıdığı ideologiyasına həmişə sadiq qalıb. Dövlət və milli maraqları hər şeydən üstün tutub. Ona görə də bizim alnımız açıqdır. Kimlərsə mənasız umu-küsü edirlərsə, haqsız yerə inciyirlərsə əbəs yerə. Əksinə biz umu-küsü edib, inciməliyik ki, hərəkatda imperiya və onun bolşevik tör-töküntülərinə qarşı amansız mübarizədə öndə olduq. Lakin onlar gedib kommunistlərlə hakimiyyət bölüb ittifaq qurdular. Göründüyü kimi heç nəyə nail ola bilmədilər. AMİP bu gün də ölkənin aparıcı siyasi gücüdür. Bunu heç kəs inkar edə bilməz. Biz partiya olaraq həmişə sağlam siyasi qüvvələrin birliyinin və əməkdaşlığının tərəfdarı olmuşuq və bu yöndə də fəaliyyətimiz və təşəbbüslərimizi davam etdiririk. Kim özünü sağlam və Azərbaycanın mili və dövlət maraqlarını hər şeydən üstün tutduğunu hesab edirsə buyursun, qapılarımız açıqdır.



***Z.Məmmədli***

# Bəzi nazirlərin təmir-tikinti korrupsiyası...

## Milyonlarla manat dövlət vəsaiti necə havaya sovrulur?

***Azərbaycanda ayrı-ayrı dövlət qurumlarının inzibati binalarının və s. tikintisi və təmiri layihələri çoxsaylı problemlərlə icra olunur. Bu çoxdankı problemdir; istər mətbuat, istərsə də müstəqil iqtisadçı ekspertlər məlum mövzuda illərdir yazsalar da, sözügedən problemin köklü həllindən danışmaq hələ də mümkün deyil. Araşdırmalar göstərir ki, bu cür layihələrin smeta sənədləri mövcud olsa da, onlar tez-tez dəyişdirilir, bəzən işlər yüksək səviyyəli məmurları qane etmədiyi üçün yenidən görülür, bir sıra hallarda layihələrdən kənarlaşmalar baş verir və əlavə pullar xərclənir.***

Bu cür layihələrin bəzilərinin aydın məqsədi, hətta texniki iqtisadi əsaslandırması da ortaya qoyulmur. Onların icrası üçün təşkil edilən tenderlər əksərən formal xarakter daşıyır, podratçı şirkətlər subyektiv seçim əsasında icra prosesini həyata keçirirlər.Elə bu cür layihələr üzrə ictimai hesabatlılıq da, demək olar, yox səviyyəsindədir.



Bu da ayrı-ayrı dövlət qurumlarında təmir-tikinti adı altında külli miqdarda vəsaitin müxtəlif yollarla mənimsənilməsinə yol açır.

Uzun zamandır, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin, qısacası, "Qaçqınkom"un inşa etdiyi mənzillərin, yaxud Təhsil Nazirliyinin xətti ilə tikilən məktəblərin real smetasının şişirdildiyi barədə oxuyuruq. Ayrı-ayrı nazirliklərdə, komitələrdə, rayon icra hakimiyyətlərində və s. müxtəlif istiqamətli təmir-tikinti işləri zamanı külli miqdarda yeyintiyə yol verildiyi kimsəyə sirr deyil. Düzdür, əvvəlki illərdə bu tendensiya misli görünməmiş miqyas almışdı, müşahidələr belə yeyintilərin müəyyən qədər azaldığını söyləməyə əsas verir. Lakin yazımızın əvvəlində də vurğuladığımız kimi, sözügedən problem hələ də öz aktuallığını qorumaqdadır.

Bunu ötən ay Dövlət Təhlükəsizlik Ximəti ilə Baş Prokurorluğun birgə həyata keçirdiyi əməliyyat zamanı həbs olunan Mədəniyyət nazirinin müvini Rafiq Bayramovla həmin nazirliyin yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin rəisi Zakir Sultanovun ortaya çıxarılan cinayət əməlləri də təsdiqlədi. Aydın oldu ki, Rafiq Bayramov "cari təmir işləri üçün nəzərdə tutulan vəsaitin 10 faizinin nazirliyin ehtiyacları üçün geri verildiyini" deyir. O, rayonlarda müəyyən cari təmir işləri üçün ayrılan 1 milyon 500 min manat puldan təxminən 150 minini mənimsədiklərini gizlətmir. Zakir Sultanov isə vəzifə səlahiyyətlərindən istifadə edərək "mədəni irs hesab edilən xüsusi arxitektura-memarlıq üslubuna malik binalarda rekonstruksiya işlərinin aparılmasına maddi maraq müqabilində razılıq verib".

Həmin həbslərin ardınca mediada Mədəniyyət Nazirliyində təmir və tikinti adı altında layihələr vasitəsilə geniş miqyaslı korrupsiya əməliyyatları həyata keçirildiyinə dair çoxsaylı faktlar yayıldı. Məsələn, bunlardan birində deyilirdi ki, 2018-ci ilin iyunun 8-də Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Binəqədi rayonu ərazisində yerləşən İrəvan Azərbaycan Dövlət Dram Teatrı binasının əsaslı təmiri və yenidənqurulması layihəsində dəyişikliklərin olunması üçün layihə-smeta sənədlərinin hazırlanması üzrə kotirovkalar sorğusu üsulu ilə satın alınması barədə elan verib. Müvafiq elanın nəticəsi olaraq iyunun 22-də qalib açıqlanıb. Bu da "Projekt LTD" adlı bir şirkət olub. Müqavilənin məbləği 49 501 AZN təşkil edib (açıq tenderin keçirilməsinə cəmi 500 AZN kifayət etmirdi!). Bu şirkət barədə məlumat tapmaq çətindir. Şirkətin nizamnamə kapitalı 20 AZN-dir və direktoru qismində Bayramova Samirə Tahir qızı çıxış edir. İndiki ünvanı da Nəriman Nərimanov prospekti ev 127, m.5 qeyd olunub. Bu da adi yaşayış binasıdır...

Bir az əvvələ gedib deyə bilərik ki, bir neçə il öncəki "Rabitə işi" zamanı da təmir-tikinti işlərinin yüksək vəzifəli şəxslər üçün rüşvət və korrupsiya baxımından münbit zəminə çevrildiyi bütün çılpaqlığı ilə ortaya çıxmışdı. Məsələn "Transservis" adlı MMC-nin rəhbəri olan Cəfər Namazov məhkəmədə bildirmişdi ki, 2010-cu ildən tapşırıq əsasında Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi ilə əməkdaşlığa başlayıb: "Bir nəfərin xahişi ilə bizim şirkət ilk olaraq poçt şöbələrinin təmiri işlərinə başladı. Sonradan "Aztelekom"la əməkdaşlıq etdik. Orda təmir-tikinti işləri üçün ayrılan pulların 35 faizini baş mühasib Oqtay Rüstəmova verirdik. Bizə təxminən "Aztelekom" işi ilə bağlı 50 min manat ayrılmışdı və bunun 35 faizini Oqtay Rüstəmova verirdim. Sonradan bildim ki, verdiyim pullar qanunsuzdur".

"Rabitə işi"nin üstündən bir neçə il keçib, indi isə bənzər "prinsiplərin" Mədəniyyət Nazirliyində də üzə çıxması belə deməyə əsas verir ki, müəyyən məmurlar baş verənlərdən dərs çıxarmır, kirli əməllərə davam edirlər.

Ekspertin fikrincə, real araşdırmalar aparılacağı təqdirdə bu cür şübhəli, "mənimsəmə qoxulu" təmir, tikinti işlərinə digər dövlət qurumlarının bir çoxunda da rast gəlinə biləcəyi istisna edilməməlidir. Niyə? Çünki həmin işlər iri məbləğlərdə vəsaiti yeyinti predmetinə çevirmək üçün vəzifəli şəxslər, məmurlar tərəfindən ən rahat yol kimi qəbul olunur...

***Orxan Həsənli***

# Xətai rayonuna yeni prokuror təyin olundu

***Baş Prokuror daha bir rayona prokuror təyin edib.***

Unikal.org xəbər verir ki, Kamran Əliyevin əmri ilə Sərdar İmanov Xətai rayon prokuroru vəzifəsinə təyin edilib.

Qeyd edək ki, S. İmanovdan əvvəl Xətainin prokuroru Yusif İldırımzadə idi.

Xatırladaq ki, Kamran Əliyevin keçənaykı əmri ilə Xətai rayon prokuroru Yusif I?ldırımzadə digər 5 prokurorla birgə işdən çıxarılmışdı. 2007-ci ildən bu vəzifəni daşıyan Yusif İldırımzadə sabiq Daxili İşlər naziri, Təhlükəsizik Şurasının katibi Ramil Usubovun qudasıdır. O, eyni zamanda bir müddət əvvəl bağlanan "AmrahBank"ın rəhbəri Yunis İldırımzadənin qardaşıdır.

# DİM məzunlara xəbərdarlıq etdi

***Dövlət İmtahan Mərkəzi (DİM) bildirib ki, 18 və ya 19 iyun tarixlərində keçiriləcək buraxılış (qəbul) imtahanlarında iştirak edəcək şagirdlər (abituriyentlər) "İmtahana buraxılış vərəqəsi" və "İmtahan iştirakçısının sağlamlığı haqqında bəyannamə"ni çap edə bilərlər.***



Mərkəzdən "Unikal"a verilən məlumata görə, iştirakçılar imtahana gələrkən şəxsiyyəti təsdiq edən sənəd və "İmtahana buraxılış vərəqəsi" ilə yanaşı, "İmtahan iştirakçısının sağlamlığı haqqında bəyannamə"ni də çap edib özləri ilə gətirməlidirlər.

"İmtahan iştirakçısının sağlamlığı haqqında bəyannamə" DİM-in saytında "İmtahana buraxılış vərəqəsi" ilə bir yerdə çap olunur və abituriyentin özü tərəfindən imzalanır.

Bundan əlavə, imtahana buraxılış vərəqəsi şagirdin özündə saxlanıldığı, sağlamlıq haqqında bəyannamə isə imtahan nəzarətçisinə təhvil verildiyi üçün hər iki sənəd ayrıca vərəqdə çap olunmalıdır.

Xatırladaq ki, kütləviliyin və təmas hallarının qarşısının alınması məqsədilə imtahan iştirakçıları üçün imtahan binasına müxtəlif daxilolma vaxtları müəyyən edilib və imtahan iştirakçısının buraxılış vərəqəsində həmin vaxt göstərilib. Ona görə də imtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır.

18 və ya 19 iyun tarixlərində (QRAFİK) imtahan verən şəxslər DİM-in saytında yerləşdirilmiş müvafiq keçidlər vasitəsilə "İmtahana buraxılış vərəqəsi" və "İmtahan iştirakçısının sağlamlığı haqqında bəyannaməni" çap edə bilərlər.

# XİN Rusiyanı təbrik etdi

***Azərbaycan Xarici İşlər Nazirliyi Rusiyanı Rusiya Günü münasibətilə təbrik edib.***

"Unikal"ın xəbərinə görə, təbrik mətni XİN-in rəsmi "Twitter" səhifəsində yayılıb.

"Azərbaycan və Rusiya arasında ənənəvi dostluq, mehriban qonşuluq və əməkdaşlıq bağları var. Səmimi-qəlbdən Rusiya Günü münasibətilə təbrik edirik! Bütün dünya rusiyalılarına cansağlığı, xoşbəxtlik, sülh və firavanlıq diləyirik", - təbrikdə bildirilib.

# Əli Əsədov rusiyalı həmkarına məktub göndərdi

***İyunun 12-də Baş nazir Əli Əsədov rusiyalı həmkarı Mixail Mişustinə ölkəsinin Dövlət bayramı - Rusiya Günü münasibətilə təbrik məktubu göndərib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Nazirlər Kabineti məlumat yayıb.

Baş nazir Əli Əsədov dövlət başçılarının səyləri sayəsində çoxəsrlik təməli olan Azərbaycan-Rusiya münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə çatdığını vurğulayıb.

Məktubda, həmçinin Azərbaycan ilə Rusiya arasındakı qarşılıqlı faydalı əməkdaşlığın hər iki ölkənin xalqlarının mənafeyi naminə birgə səylərlə bundan sonra daha da möhkəmlənəcəyinə və genişlənəcəyinə ümidvarlıq ifadə olunub.



## Sumqayıt şirkətləri elektron dezinfeksiya tuneli istehsal etməyə başladı

***Azərbaycanın qeyri-neft sektorunun qabaqcıl şirkəti olan Sumqayıt Texnologiyalar Parkı(STP) və ölkəmizin ilk və tək Ağıllı ev və Bina idarəetmə sistemləri istehsalçısı olan SmartHome şirkəti Elektron Dezinfeksiya Tuneli istehsal ediblər. "Elsmart" brendi altında istehsal olunan bu məhsulun elektron sistemi və beyni SmartHome, konstruksiyası və gövdəsi STP-nin Elektrik Avadanlıqları Zavodunda hazırlanır.***

Unikal.org xəbər verir ki, dezinfeksiya Tuneli tam avtomat rejimdə çalışır. İnsanlar tuneldən keçdikdə hərəkət sensorları sistemi işə salır və qısa müddət ərzində dezinfeksiya məhlulu püsgürdülərək insanın üzəri heç bir toxunma olmadan tam dezinfeksiya edilir.

Dezinfeksiya məhlulu buxar şəklində püskürdüldüyü üçün insanın geyimini yaş etmir. Bu, məhlulun xüsusi mühərrik vasitəsilə 0.3 mm-lik ucluqlardan yüksək təzyiqlə çıxması hesabına əldə olunur. Nəticədə maye narın yayılaraq toz halında dağılır. Buxar formasına olmasına baxmayaraq geyimlərdəki bakteriya və virusları təmizləməyə kifayət edir. Tunelin insan sağlamlığına heç bir zərərli təsiri yoxdur.

Sistemə istəkdən asılı olaraq 50-200 litr arası çənlər quraşdırılır. 200 litrlik məhlul ilə ortalama 6500-7000 insanın dezinfeksiya etmək mümkündür. İstifadə olunan məhlul xüsusi tərkibə malikdir və Türkiyədə keçirilən testlər vasitəsilə Koronavirusu öldürməsi təsdiq olunub.

Dezinfeksiya Tunellərindən yalnız pandemiya dövrü üçün deyil, həmçinin mövsümi bakteriya və virusların profilaktikası, habelə gələcəkdə yaranacaq yoluxucu xəstəliklərin qarşısını almaq üçün istifadə oluna bilər. Yeni məhsul məktəblərin, xəstəxanaların, ofis və istehsal sahələrinin, ticarət mərkəzlərinin, avtobus və dəmiryol vağzallarının, metroların girişlərində və insanların kütləvi hərəkət etdiyi digər məkanlarda quraşdırıla bilər.

Hazırda STP-nin Elektrik Avadanlıqları Zavodu gündə 25-30 ədəd məhsul istehsal etməyi nəzərdə tutur. Müəssisədə quraşdırılmış ən son avadanlıqlar sifarişlər artdıqca istehsal həcminin də artırılmasına imkan verir.

Məhsulun sadə konstruksiyası müştərinin istəyinə uyğun dəyişiklik və əlavələr etməyə imkan verir. Asanlıqla xüsusi təkərlər quraşdırılaraq daşınılan versiyasını hazırlamaq mümkündür.

Dezinfeksiya Tunellərinin həm yerli, həm də beynəlxalq bazarda satışı nəzərdə tutulur.

# Yeni məmur həbslərinin anonsu...

## Hansı vəzifə sahibləri qandallana bilər?

***Dövlət Təhlükəsizlik Xidmətinin (DTX) bir müddətdir müxtəlif yüksək vəzifə sahiblərinə qarşı keçirdiyi əməliyyatlarda fasilə yaranıb. Sonuncu olaraq, Mədəniyyət Nazirliyində və Dövlət Sərhəd Xidmətində rüşvət və korrupsiyaya bulaşmış iri məmurlara qarşı əməliyyat keçirilmiş, hər iki qurum rəhbərinin müavinləri də daxil olmaqla, vəzifəli şəxslər elə kabinetlərində qandallanmışdılar. Bundan sonra hələ ki, DTX-nin oxşar əməliyyatı keçirilməyib.***

Lakin bir neçə gün öncə YAP-çı deputat Millət vəkili Siyavuş Novruzov icra başçılarının işlərinin araşdırıldığını bildirib. Unikal.org-a açıqlama verən Novruzov digər başçıların da arxayınlaşmamalı olduğunu diqqətə çatdırıb: "Təbii ki, araşdırma gedir, harada ki, dəqiq məlumatlar var onlarla bağlı ölçü götürüləcək. Heç kəs arxayınlaşmasın. Bu uzun proses olacaq. Məmurlar rüşvətə, korrupsiyaya yuvarlanmamalı, xalqa ləyaqətlə xidmət etməlidirlər".

Qeyd edək ki, YAP-çı deputatın bu anonsunu xüsusilə maraqlı edən nüans onun mayın əvvəllərində də vəzifəli şəxslərlə bağlı bənzər xəbərdarlıqla çıxış etməsi, çox keçmədən isə həmin xəbərdarlığın özünü doğrultmasıdır. Belə ki, S.Novruzov ötən ayın əvvəllərində demişdi ki, cinayət məsuliyyətinə cəlb edilməsi gözlənilənlər sırasında nazir və komitə sədrləri də ola bilər.

Deputat həmin vaxt mediada və cəmiyyətdə maraqla qarşılanan həmin açıqlamasında bildirmişdi ki, nazirlər, komitə sədrləri ilə bağlı məsələlər də araşdırılır: "Araşdırmadan sonra kimliyindən asılı olmayaraq, müvafiq addımlar atılacaq. İndiyə qədər də görürsünüz ki, kimliyindən asılı olmayaraq həmin insanlar cəzalandırılır".

Novruzovun bu sözləri çox qısa zamanda özünü doğrultdu. Cəmi 3-4 gün sonra Mədəniyyət nazirinin müavini Rafiq Bayramov və Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin



rəisi Zakir Sultanov həbs edildi. R.Bayramov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə, mənimsəmə, vəzifə saxtakarlığı, Zakir Sultanov vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və mənimsəmə faktlarında ittiham olunurlar.Ə.Qarayevin nazirliyindəki qandallanmaların əks-sədası səngiməmiş isə bu dəfə DSX-də həyata keçirilən xüsusi əməliyyatda Dövlət Sərhəd Xidmətinin rəis müavini, 2013-cü ildən 2020-ci ilin fevral ayınadək qurumun tərkibindəki Sahil Mühafizəsinin rəisi vəzifəsində xidmət etmiş general-leytenant Nağıyev Əfqan Vəli oğlu və onun tabeliyində olan DSX Sahil Mühafizəsinin vəzifəli şəxsləri - polkovnik Pənahov Nemət Hacı oğlu, polkovnik-leytenant Vəliyev Elçin Vaqif oğlu, polkovnik Əzizov Samiq Yusif oğlu, polkovnik-leytenant Muradov Sakit Yusif oğlu, mayor Namazov Müzəffər Qafil oğlu və digərləri saxlanıldılar, cinayət məsuliyyətinə cəlb olundular. Rəsmi məlumata görə, onlar qabaqcadan əlbir olan bir qrup şəxs halında vəzifə səlahiyyətlərindən istifadə edərək Xəzər dənizində balıq ovunun aparılmasına və dənizə balıq ovu ilə bağlı sərbəst çıxışlarına şərait yaradılması üçün bu fəaliyyətlə məşğul olan çoxsaylı Azərbaycan Respublikası vətəndaşlarından müxtəlif məbləğlərdə pulu rüşvət qismində istəməklə almışlar. İstintaq zamanı müəyyən edilmişdir ki, qeyd olunan vəzifəli şəxslər tərəfindən vətəndaşlardan rüşvət qismində tələb edərək alınmış külli miqdarda pul vəsaitləri hər ayın sonunda Əfqan Nağıyevə onun xidməti otağında təqdim edilmiş, Əfqan Nağıyev isə qrupun digər üzvləri arasında bölüşdürülməsi məqsədilə həmin yığılan pul vəsaitinin müəyyən faizini onlara geri qaytarmışdır.

Bir sözlə, YAP-çı deputatın icra başçılarının həbsi ilə başlayan antikorrupsiya əməliyyatlarının nazirliklərə, dövlət komitələrinə sıçrayacağı yönündə proqnozu tamamilə doğruldu. Əlbəttə, S.Novruzov bu proqnozu hansısa təxminlər, yoxsa konkret informasiyalar əsasında səsləndirdiyini bilmirik; lakin reallıq budur ki, onun sözlərinin gerçəkləşməsini uzun müddət gözləmək lazım gəlmədi. İndi isə budur, Siyavuş müəllim növbəti anonsla çıxış edir, məmurların arxayınlaşmamalı olduğunu deyir və məmur həbslərinin davam edəcəyini açıq şəkildə vurğulayır. Düşünmək olar ki, bu xəbərdarlığın da həyata keçəcəyini uzun müddət gözləməli olmayacağıq. Yəni qarşıdakı dövrdə rüşvət və korrupsiyadan əl çəkməyən, necə deyərlər, "gözü çıxmış qardaşlardan" dərs almayan vəzifə sahiblərinin elə kabinetlərində, cinayət başında qandallanmasının yeni örnəklərini izləyə bilərik. Bu sırada ayrı-ayrı rayonların icra başçılarından tutmuş müəyyən nazirliklərin yüksək vəzifəli şəxslərinin ola biləcəyi də istisna deyil.

Elə bir çox ekspertlərin, deputatların fikrincə də bəzi rayon rəhbərlərinin, nazir müavinlərinin həbsi ilə ölkədə rüşvət və korrupsiyanın kökünün kəsildiyini düşünmək yanlışdır, bir sıra post sahiblərinin hələ də köhnə, naqis əməllərdən əl çəkmədiyinə şübhə yoxdur. Bu səbəbdən Dövlət Təhlükəsizlik Xidmətinin Baş Prokurorluqla birgə məlum əməliyyatlarının davam etdirilməsi tamamilə gözləniləndir.

***Sənan Mirzə***

# Baş Prokurorluqda yeni idarələr yaradıldı

***Prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması və fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkar formalaşdırılması məqsədilə Prezident İlham Əliyevin 10 iyun 2020-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Baş Prokurorluğunun yeni strukturu təsdiq edilib.***

Unikal.org xəbər verir ki, bu barədə Baş Prokurorluğun Mətbuat xidməti məlumat yayıb.

Sərəncamla Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən formalaşdırılaraq daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr yaradılıb, idarə və şöbələrin sayı 15-dən 18-ə çatdırılıb, idarəetmədə nəzarət mexanizminin optimallaşdırıması məqsədilə Baş prokurorun əlavə müavini vəzifəsi təsis edilib, Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsi ilə Bakı şəhər prokurorluğunun İstintaq idarəsi birləşdirilərək Baş Prokurorluğun İstintaq idarəsi yaradılıb.

Bundan başqa, Baş Prokurorluğun bəzi idarələri ləğv edilərək onların bazasında Təşkilat və icraya nəzarət, Xidməti araşdırmalar, Beynəlxalq hüquqi əməkdaşlıq, Hüquqi təminat və insan hüquqları, Kriminalistika və in-





formasiya texnologiyaları, Sənədlərlə və müraciətlərlə işin təşkili idarələri təsis edilib, bundan başqa mərkəzi aparatın yeni Cinayət təqibindən kənar icraatlar və Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarələri yaradılıb.

# Milli Şura biabırçı videoların qurbanına çevrilir

## Qurum daxilindəki istefaların pərdə arxasındakı məqam...

***Sosial şəbəkələrdə "Milli Şura" adlı qurumun daha bir iclasından növbəti görüntülər yayılıb. Bu dəfə də iclasda qeyri-etik ifadələr səsləndirilib. Xüsusən də müsavatçılara qarşı "ləyaqətsiz", "şərəfsiz", "dabandaşı", "alkaş" kimi sözlər işlədilib.***

İctimai-siyasi arenada müzakirəyə səbəb olan əsas məqamlardan biri isə Milli Şuranın sədri Cəmil Həsənlinin son günlər qurumun idarə heyətindəki istefalarla bağlı məsələlərə reaksiyası olub. Belə ki, C.Həsənli E.Quliyevin MŞ-dan uzaqlaşmasına da aydınlıq gətirib. O yazıb ki, E.Quliyev LGBT-yə qarşı status yazıb və bu status yerli müxalifətçilər tərəfindən xarici dillərə tərcümə edilərək, bəlli ünvanlara çatdırılıb. Beləliklə, Eldəniz Quliyevin LGBT-yə mənfi münasibətinin bəlli xarici dairələrdə normal qarşılanmaması Milli Şuranı ciddi narahat edib və müzakirə olunub.



C.Həsənli bu müzakirələr haqda yazarkən, E.Quliyevi təhqir etməkdən də çəkinməyib: "Biz radikal addımlar atmalı oluruq, Eldəniz Quliyev yarızarafat "küncdə" dayanmağa belə razı olsa da, bütün vasitələrlə təşkilatda qalmaq istəsə də, Milli Şuradan çıxarılır, Rafiq bəy istefa verir. Mavr artıq öz işini görmüşdü, amma yenə də getmək istəmirdi. Daha əvvəlki postlarda yazdığım kimi, biz Eldəniz bəyi Milli Şuranın rəhbərliyindən uzaqlaşdırırıq, o, yollarımızın ayrıldığı barədə məlumat paylaşır və sonra da milli-mənəvi, islami dəyərlərə "xəyanət" etdiyinə görə Milli Şurada qala bilmədiyini bəyan edib istefa isterikası yaradır".

Ən pisi isə odur ki? Milli Şura üzvləri AXCP sədri Əli Kərimlinin "bəyənməyən adam" saydıqları şəxsləri təhqir edir, "satılmış, xəyanətkar, yaramaz" adlandırırlar. "Bu Aydın Can elə-belə şey deyil. Birinci dəfədir görürdüm ki, bu müsavatçılar haradasa komanda şəklində iştirak edirdilər. Ləyaqətsizcəsinə, əxlaqsızcasına. Onların dədələrinə, sədrlərinə də söysən belə komanda şəklində iştirak etməyiblər", - Musavat Partiyasının mənsubları barədə belə fikirlər səsləndirilib.Onu da qeyd edək ki, bir müddət öncə cinsi azlıqlarla bağlı məsələ gündəmə gələndən sonra Milli Şuradan qopmalar olmuşdu. Bir qədər səngisə də, Milli Şuranın parçalanması davam etməkdədir. Belə ki, iki gün öncə Müsəlman Birliyi Hərəkatının həbsdə olan sədri Taleh Bağırzadə Milli Şuranın Koordinasiya Mərkəzinin üzvlüyündən istefa verib. O bu barədə bəyanat yayıb. "Bildirmək istəyirəm ki, "cinsi azlıqlar" dinimizdə birmənalı olaraq qəbul edilmir və İslam dəyərlərinə tamamilə ziddir. Lakin iclasdan yayılmış görüntülərdən sonra Milli Şuranın üzvləri, başda Cəmil Həsənli və Əli Kərimli olmaqla "cinsi azlıqların" müdafiəsinə qalxmış, onlarla həmrəylik nümayiş etdirərək müsəlman xalqımızın dini inancını təhqir etmişdir. Yaranmış durumdan qaynaqlanaraq din məhbuslarının müdafiəçiləri, İslam dini və mənəvi dəyərlərimizin təbliğatçıları, hörmətli ziyalımız Eldəniz Quliyev, din xadimlərimiz Rövşən Əhmədli, Hacı İlqar İbrahimoğlu və Məşədi Natiq Kərimov haqlı olaraq etiraz səsini ucaltmış və qurumda olanlar oradan istefa vermişlər. Mən Milli Şura üzvü olaraq bir daha bildirirəm ki, dırnaqarası cinsi azlıqlar dinimizdə birmənalı olaraq qəbul edilmir və onların müdafiəsi birbaşa dinimizə və mənəvi dəyərlərimizə həqarətdir! Milli Şura üzvlərinin belə şəxslərin müdafiəsi şəxsim və Müsəlman Birliyi Hərəkatı tərəfindən qəbul edilməzdir. Mən də yaranmış rüsvayçı vəziyyəti bağışlanmaz hesab edərək Milli Şuranı tərk etdiyimi bəyan edirəm", - o, əlavə edib.

Onunla yanaşı, dini cameənin digər nümayəndəsi də istefa qərarı verdi. "Qarabağın Azadlığı Uğrunda İslami Müqavimət Hərəkatı"nın sədri Rövşən Əhmədli bəyanat verərək Milli Şuradan çıxıb. Bu barədə R.Əhmədli özünün "facebook" səhifəsində məlumat yayıb. O bildirib ki, son zamanlarda Milli Şuranın Koordinasiya Mərkəzində baş verən arzuolunmaz hadisələr, sosial şəbəkələrdə geniş müzakirə olunan mübahisəli məqamlar, ictimaiyyətin, vətəndaş cəmiyyətinin müxtəlif təbəqələrinin bu hadisələrə münasibəti onu dərindən narahat edib. "Milli Şurada baş verənlərə görə hədsiz dərəcədə üzgünəm. Milli Şurada qalmağı mümkünsüz , faydasız hesab edir və acı təəssüf hissi ilə bu gündən Milli Şuranı tərk edirəm. Milli Şuranı tək etsəm də, demokratik, hüquqi dövlət quruculuğu uğrunda mübarizəmiz davam edir və bu mübarizədə hamıya uğurlar diləyirəm", - deyə R. Əhmədli qeyd edib.

Qeyd edək ki, bir müddət əvvəl Eldəniz Quliyev, Rafiq Manaflı və Namizəd Səfərov da Milli Şuradan istefa verib. Maraqlıdır ki, Milli Şurada baş verənlər, eləcə də qurum üzvlərinin müxalifət nümayəndələrinin ünvanına təhqiramiz ifadələr səsləndirməsi ciddi narazılığa səbəb olmuşdu. Hətta müxalifət nümayəndələri də Milli Şura üzvlərinin son hərəkətlərini tərbiyəsizlik kimi dəyərləndirirdilər.

Ağ Partiyanın sədri Tural Abbaslı deyib ki, ölkəni idarə etməyə iddialı olan insanlar, milli barışıqdan danışanlar, müxalifət arasında konsensus tərəfdarı kimi görünənlər öz qapalı toplantılarında ancaq qeybətlə məşğul imişlər. O bildirib ki, Milli Şura və AXCP rəhbərliyindəki şəxslərin məlum video toplantılarında səsləndirdikləri fikirlər biabırçılıqdır: "Bu videoların necə əldə olunması, yayılması məsələsi başqadır. Hesab edirik ki, bu, qanun pozuntusudur və yolverilməzdir. Amma bu videolar həm də göstərdi ki, onların iclaslarında siyasətçiyə yaraşmayan zarafatlar, lağlağılar, dedi-qodular səviyyəsində söhbətlər gedib. Bu da çox üzücüdür. Hesab edirəm ki, bu videoların yayılması həm Milli Şuraya, həm də AXCP-yə ciddi zərbə vurdu. Məsələ ondadır ki, bu videolarda təhqirə yol verən adamlar nə Azərbaycan xalqından, nə də adı çəkilən şəxslərdən, partiya rəsmilərindən üzr istəmədilər. Hansı ki, o adamların adını haqsız yerə çəkib ironiya ilə danışırdılar. Videodan da açıq görünür ki, bu adamlar yersiz, tərbiyəsiz ironiya ilə davranırlar".

T.Abbaslı Milli Şura sədri Cəmil Həsənli ilə bağlı da sərt fikirlər səsləndirib. O bildirib ki, Cəmil Həsənli yaşına, başına uyğun olmayan tərzdə danışır: "Cəmil Həsənli küçə uşaqlarının jarqonu ilə danışır. Bəlkə də küçə uşaqları o cür danışmır, amma bizim alim, ziyalı dediyimiz adam elə fikirlər səsləndirir. Bütün bunlar cəmiyyətin onlara olan inamının tamamilə itməsinə gətirib çıxarır. Düzü, mən hələ də onlardan üzrxahlıq gözləyirəm. Bu qədər tərbiyəsizlik, əxlaqsızlıq olmaz. Bu videoların necə yayılmasından asılı olmayaraq, ən azından səslənən fikirlərə, davranışlara görə üzr istənilməlidir".

***Z. Məmmədli***



# Ziya Məmmədovun təzə biznesi...

## Sabiq nəqliyyat nazirinin ümidi balığa qalıb

***Azərbaycanda örüş sahələrinin müxtəlif məmurlar, onların himayə etdiyi iş adamları tərəfindən mənimsənilməsi adi hal alıb. Belə hallara ən çox rast gələnən rayonlar sırasında isə Ucarın adı ön sırada çəkilir. Bu isə vaxtaşırı həmin rayonda sakinlərin etirazlarına gətirib çıxarır. Lakin həmin etirazlar hələ də sözügedən problemin köklü həllinə gətirib çıxarmayıb. Məsələn, bu ilin martında bir qrup sakin örüş yerlərinin qanunsuz zəbt olunmasına etiraz əlaməti olaraq, aksiya keçirib. Belə ki, rayonun Ləki sakinləri kənd bələdiyyəsinin inzibati binasının qarşısına toplaşıblar. Onlar zəbt olunmuş örüş yerlərinin boşaldılmasını və həmin şəxslərə qarşı qanuni tədbir görülməsini tələb ediblər.***

Hadisə yerinə gələ Rayon İcra Hakimiyyətinin hüquqşünası Xəyyam Səmədzadə və Rayon Polis Şöbəsinin İTB-nin rəisi Səbuhi İsmayılov sakinlərlə görüşüb və onların şikayətini dinləyiblər. X.Səmədzadə örüş sahələrini zəbt edənlərə torpaqların 10 gün müddətinə boşaldılması barədə bildirişlərin paylanacağını bildirib. O qeyd edib ki, bundan sonra zəbt olunmuş sahələr boşaldılmasa, bu barədə aidiyyəti orqanlara məlumat veriləcək. Bildirilib ki, problem yaxın vaxtlarda müsbət həllini tapacaq.

Dünənsə Ucar rayonunun Qaradağlı kənd sakinləri bələdiyyəyə məxsus 100 hektara yaxın örüş yerlərinin qanunsuz olaraq eks-nazir Ziya Məmmədov tərəfindən zəbt edildiyini bildiriblər. hit.az-ın əldə etdiyi məlumata görə, sabiq nəqliyyat naziri burada süni göllər yaradaraq balıq yetişdirir.

Kənd sakinləri bu barədə dəfələrlə ölkə rəhbərliyinə, aidiyyatı qurumlara müraciətlər ünvanlayıblar. Kəndlilərin ən çox narahat olduğu hal isə süni göllərin ərazinin daha da şoranlaşmasına səbəb olmasıdır.Əslində keçmiş nəqliyyat nazirinin balıqçılığa başlaması yeni xəbərdir: bir zamanlar qüdrətli biznes imperiyasına malik olan, indi isə onun böyük hissəsi əlindən alınan Z.Məmmədovun bu gün əhalinin örüş sahələrini ələ keçirərək orada süni göllər yaratması və bu yolla qazanc əldə etmək fikrinə düşməsi çox ibrətamizdir.

Xatırladaq ki, eks nazir əslən elə Ucardandır: o bu rayonun Qazıqumlaq kəndində doğulub. Hazırda həmin kənddə Ziya müəllimin dəbdəbəli mülkü var və o ilin müəyyən müddətini həmin mülkdə keçirir. Ucarda sabiq nazir və qardaşlarına məxsus ticarət və iaşə obyektlərinin sayı kifayət qədərdir. Onun dünyaya gəldiyi rayonda artıq balıqçılığa da başlaması isə geniş ictimaiyyətə yeni məlum olur.

Qeyd edək ki, Z.Məmmədov hələ nazir olarkən onun Göyçay rayonunun Höngütlü kəndində dəyəri milyon manatlarla ölçülən təmtəraqlı villa tikdirdiyi bəlli olmuşdu. Ən ilginc olan isə bu idi ki, həmin ərazidə 50 hektarlıq süni göl yaradıldığı bildirilirdi və gölün ortasında dəyəri 4-5 milyon manat olan mülk inşa olduğu deyilirdi. O zaman Göyçay rayonuna sabiq "nəqliyyat şefi"nin əmisi oğlu rəhbərlik edirdi. Elə süni gölü və villanı da onun nəzarətindəki "ATF" şirkətinin həyata keçirdiyi üzə çıxmışdı.

50 hektarlıq süni gölün həmin vaxt balıqçılıq məqsədilə istifadə edilib- edilmədiyi bəlli deyildi. Deyilənlərdən belə başa düşmək olardı ki, sözügedən süni göl daha çox dəbdəbə, təmtəraq naminə düzəldilib. Necə deyərlər, varlığa nə darlıq?!

İndi isə Ziya müəllimin doğma rayonunda örüş sahələrini əlinə keçirərək orada yaratdığı süni göllərin məqsədi balıqçılıqdır. Bir zamanlar korrupsiyadan əldə edilən pullar hesabına gündən-günə genişlənən saysız-hesabsız şirkətlər quran, nəhəng biznes layihələri hesabına inanılmaz sərvət toplayan, lakin 2010-cu ilin ortalarından bəri sürətlə zəifləndən, sonda isə postunu itirən Z.Məmmədov hazırda balıq yetişdirməklə pul qazanmaq məcburiyyətində qalıbsa, buna nəsə demək olmaz. Görünür, taleyin təqdiri beləymiş.Sadəcə, sabiq nəqliyyat şefi yaxşı olar ki, bu istəyini camaatın örüş sahələrinə tamah salaraq həyata keçirməsin. Ziya müəllim nazir olarkən onsuz da özü barəsində xeyli mənfi imic yaratmışdı, haqqında şikayətlərin, giley-güzarların nə həddi var, nə hesabı. Barı vəzifəsiz qaldığı müddətdə camaatın qəzəbinə düçar olmağa çalışmasın. Axı dünya malı dünyada qalır.

Hə, bir də bizdən sonra dünyada qalan qoyub getdiyimiz ad, tutduğumuz əməllərdir. Çalışaq bu adı, bu əməlləri xatırlayanlar qaş-qabaq sallamasınlar, ehtiramla gülümsəsinlər və rəhmət oxusunlar.

***Orxan Həsənli***



# Əhaliyə şad xəbər: çimərliklər hazırdır

***Paytaxtdakı çimərliklərdə mövsümə hazırlıqla bağlı son işlərə yekun vurulub.***

Bakı şəhər İcra Hakimiyyətindən "Unikal"a verilən məlumata görə, çimərliklərdə lazımi təmizlik-abadlıq işləri görülüb, karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktiki tədbirlər həyata keçirilib.

Məlumatda qeyd olunub ki, keçən il paytaxt sakinləri, eləcə də çoxsaylı qonaqlarının istək və arzuları, onların IDEA İctimai Birliyinə müraciətləri nəzərə alınaraq, Birliyin təsisçisi Leyla Əliyevanın təşəbbüsü ilə paytaxtın dənizkənarı ərazilərində mövcud özəl istirahət mərkəzləri və pullu çimərliklərə alternativ olaraq ictimai çimərliklər yaradılıb.

İlk olaraq belə çimərlik Səbail rayonunda, "Şıx" çimərlik ərazısındə, daha sonra isə Sahil, Buzovna, Novxanı, Görədil və Pirşağı qəsəbələrində təşkil edilib. Qeyd edilən hər bir qəsəbədə əvvəllər baxımsız vəziyyətdə olan ərazilər təmizlənərək abadlaşdırılıb, burada tələbata uyğun miqdarda kölgəliklər, soyunub-geyinmə və duş kabinaları, sanitariya qovşaqları, istirahətə gələn vətəndaşların nahar etmələri üçün söhbətgahlar quraşdırılmış, futbol və voleybol meydançaları yaradılmış, dəniz kənarına uzanan yola asfalt çəkilib və hər bir ərazidə avtomobil dayanacağı yaradılıb.

Vətəndaşların istirahərinin təşkili üçün çimərlik ərazilərinə kifayət qədər oturacaq və qamaklar qoyulub, ərazı boyunca zibil konteynerləri, qoruyucu maskaların atılması üçün qutular quraşdırılıb, əlavə işlər görülüb.

İDEA İctimai Birliyi tərəfindən yaradılan bu ictimai çimərliklərə giriş və digər xidmətlərdən istifadə pulsuzdur. Ərazinin təmizliyini lazımi səviyyədə saxlanılması üçün burada xidmət personalı fəaliyyət göstərir.

Çimərliklərdə Fövqəladə Hallar Nazirliyinin xilasetmə məntəqələri, həmçinin tibb məntəqələri yaradılmış, sərinləşdirici içkilər və müxtəlif ərzaq məhsulları təklif edən köşklər quraşdırılıb.

Karantin şəraiti nəzərə alınaraq hər bir çimərlikdə maarifləndirici lövhələr quraşdırılıb, işçi personal tərəfindən sosial məsafə saxlanılması, dezinfeksiyaedici vasitələrdən istifadə edilməsi, təmiziyə riayət edilməsi ilə bağlı vətəndaşlara xəbərdarlıq edilir.

Eyni zamanda paytaxtın sahilyanı qəsəbələrində fəaliyyət göstərən özəl və digər çimərlik və istirahət mərkəzlərində də karantin şəraitinin tələbləri nəzərə alınmaqla mövsümə hazırlıqla bağlı müvafiq hazırlıq işlər görülüb. Aidiyyəti qurumlar tərəfindən bütün çimərliklərdə dəniz suyunun təmizliyinin yoxlanılması üçün bir neçə dəfə laborator nümunələr götürülüb, həmçinin digər məsələlərlə bağlı monitorinqlər keçirilirb.

# Rafael Cəbrayılovun başı üstündə yenə "qara buludlar" dolaşır

## Mandatını girov qoymuş sabiq deputat artıq həbsin bir addımlığındadır

***Yola salmaq üzrə olduğumuz həftə son zamanların ən qalmaqallı, səs-küylü hadisələrindən birini yenidən cəmiyyətə xatırlatdı. Söhbət deputat Rafael Cəbrayılovla bağlı bir müddətdir unudulan olaydan gedir. O, mandatını borc müqabilində girov qoymuş, bu üzə çıxınca isə cəmiyyətdə böyük rezonansa səbəb olmuş, nəticədə Cəbrayılov istefa vermək məcburiyyətində qalmışdı.***



İki gün öncə sabiq deputatın borclu olduğu bir qrup şəxs Baş prokuror Kamran Əliyevə müraciət etdi və bununla da "girov qoyulmuş mandat" hadisəsi yaddaşlarda təzələndi. Yerli KİV-in yazdığına görə, keçmiş deputatın borclu olduğu Təranə Fətəliyeva bildirib ki, həmin müraciət Ramazan bayramından əvvəl edilib.

"Müraciətdən sonra Baş Prokurorluğun "Qaynar xətti"nə zəng vurub bu barədə məlumat vermişik. Bizə dedilər ki, müraciətinizə bayramdan sonra cavab veriləcək. İndi cavabı gözləyirik", - deyə Təranə Fətəliyeva bildirib (yenisabah.com). Onun sözlərinə görə, bundan başqa, Rafael Cəbrayılovun borclu olduğu Şəfa Məmmədova adlı vətəndaş məhkəməyə müraciət edib. "Bu ayın 23-də məhkəmə prosesi keçiriləcək. Mən də Rafael Cəbrayılovu məhkəməyə vermişdim. Birinci instansiya xeyrimə qərar çıxardı. Apellyasiya Məhkəməsi də qərarı qüvvədə saxladı. Rafael Cəbrayılov hakimdən ona 2 ay möhlət verilməsini xahiş etmişdi. Hakim də bu xahişi yerinə yetirmişdi.

Rafael Cəbrayılova verilən 2 aylıq möhlət bu ayın 13-də bitir. Əgər borcumu qaytarmasa, Ədliyyə Nazirliyinə müraciət edəcəm ki, məhkəmə qərarının icrasını təmin etsinlər", - deyə o əlavə edib.

Rafael Cəbrayılovdan Baş prokurora müraciət edənlər Təranə Fətəliyeva da daxil 8 nəfərdir. Deputatın onlara toplam olaraq 1 550 000 (1 milyon 550 min) dollar borcu var ki, bu da milli valyuta ilə 2 635 000 (2 milyon 635 min) manat eləyir. Keçmiş deputatın borclu olduğu şəxslərin siyahısı belədir: Məlahət Qurbanova - 580 000 dollar; Təranə Fətəliyeva - 300 000 dollar; Xatirə Nəcəfova - 200 000 dollar; Yusif Orucov - 200 000 dollar; Aynur Kazımova - 100 000 dollar; Şəfa Məmmədova - 80 000 dollar; Bəşir Məmmədov - 60 000 dollar; Allahverdi Səfərəliyev - 30 000 dollar.

Xatırladaq ki, Rafael Cəbrayılov ayrı-ayrı vətəndaşlardan külli miqdarda borc alıb. Borcu vaxtında qaytaracağına zəmanət olaraq III və IV çağırış deputat vəsiqəsini girov qoyub. Vədinə əməl etmədiyinə görə onun borclu olduğu şəxslər məsələni ictimailəşdirib. Yuxarıda da dediyimiz kimi, bu məsələ ictimai rezonansa səbəb olduqdan sonra Cəbrayılov deputat mandatından imtina etmək məcburiyyətində qalıb.

İndi isə onu qarşıda daha çətin günlər gözləyir. Görünən odur ki, Cəbrayılov ya borclarını qaytarmaq iqtidarında deyil (hərçənd bu qətiyyən inandırıcı görünmür, onun kifayət qədər geniş biznes imkanlarının olduğu məlumdur), ya da bunu sadəcə istəmir. Borclulardan birinin - T.Fətəliyevanın dediyinə inansaq, sabiq deputatın borcları qaytarmaq üçün məhkəmədən aldığı təxminən iki aylıq müddət bitir, bundan sonra R.Cəbrayılovun hətta həbs məsələsi gündəmə gələ bilər.

Onu da deyək ki, bu ilin əvvəlində, konkret desək, yanvar ayında da keçmiş deputatın həbs edilə biləcəyi deyilirdi. O vaxt yayılan məlumatda vurğulanırdı ki, Cəbrayılovun borclu olduğu vətəndaşlar həmin vaxtkı Baş prokuror Zakir Qaralova müraciət ediblər. Altı nəfərin imzaladığı müraciətdə Rafael Cəbrayılovun müxtəlif bəhanələrlə borcunu qaytarmadığı bildirilib.

"Borc sahibləri Rafael Cəbrayılovun mandatı ləğv ediləndən sonra Baş prokurora müraciət etmək istəyiblər. Lakin keçmiş deputat onlarla görüşərək tezliklə borcu qaytaracağını bildirərək müraciətin qarşısını alıb. Borc sahibləri bir müddət gözlədikdən sonra Rafael Cəbrayılovla əlaqə saxlayaraq verdiyi vədi ona xatırladıblar. Keçmiş deputat bu dəfə bildirib ki, borcunu qaytarmaq üçün villasını satışa çıxarıb. Aylar keçsə də, villa satılmayıb. Bu dəfə Rafael Cəbrayılov qardaşı Elşən Cəbrayılovu önə verərək borc sahiblərini məhz ondan şikayətçi olmağı təklif edib. Keçmiş deputat bildirib ki, əslində pulları qardaşı götürərək xaricdə özünə biznes qurub. Borc sahibləri isə Rafael Cəbrayılovun təklifini qəbul etməyiblər. Bu halda keçmiş deputat onlardan bir qədər də möhlət istəyib" - həmin vaxt yerli KİV yazırdı; eyni zamanda bildirilirdi ki, Cəbrayılovun bir neçə dəfə verdiyi sözü tutmadığına görə borc sahiblərinin səbr kasası daşıb və nəhayət, onlar Baş prokurora müraciət ünvanlayıblar.

Borc sahiblərinin fikrincə, bu müraciətdən sonra Rafael Cəbrayılov onların pulunu qaytaracaq, əks təqdirdə isə dələduzluq ittihamı ilə həbs ediləcəkdi. Lakin bunlardan heç biri baş vermədi. İndi isə yeni Baş prokurorun məsələyə daha həssas yanaşacağı və sabiq deputatın əməlləri ilə bağlı konkret tədbirlər görəcəyi ehtimalı böyükdür.

Bu isə o deməkdir ki, R.Cəbrayılovun başı üzərində "qara buludlar" dolaşır; üstəlik, həmin buludlar getdikcə daha da sıxlaşır...

***Toğrul Əliyev***

# Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri işdən çıxarıldı

***Baş Prokurorluqda kadr islahatları aparılıb.***



Qurumdan "Unikal"a verilən xəbərə görə, dövlət başçısının imzaladığı sərəncamla Heydər Məmmədov Baş prokurorun müavini, Baş prokurorun imzaladığı müvafiq əmrlərlə Nemət Əvəzova yeni yaradılmış Baş Prokurorluğun İstintaq idarəsinin rəisi vəzifəsinin icrası həvalə edilmiş, Natiq Abdullayev Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəisi, Elşən Abbasov Baş Prokurorluğun Təşkilat və icraya nəzarət idarəsinin rəisi, Natiq Hüseynov Baş Prokurorluğun Kadrlar idarəsinin rəisi, Kamal Qılıcov Baş Prokurorluğun Xidməti araşdırmalar idarəsinin rəisi, Murad Dadaşov Baş Prokurorluğun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi, Anar Məmmədov Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini, Sərdar İmanov isə Xətai rayon prokuroru vəzifələrinə təyin ediliblər.

Bundan əlavə, uzun illər Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri işləmiş Eldar Sultanov tutduğu vəzifədən azad edilərək Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi vəzifəsinə təyin edilmiş, Günay Həsənliyə isə Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri vəzifəsinin icrası həvalə edilib.

Prokurorluq orqanlarında struktur islahatlarının həyata keçirilməsi və kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə içşilərlə komplektləşdirilməsi istiqamətində işlər davam etdirilir.

***Famil***

# Deputatlar çağırış etdilər: "Yas mərasimlərində kütləvi yoluxmalar var"

***Nazirlər Kabineti yanında Operativ Qərargah koronavirus pandemiyası ilə əlaqədar həftəsonu Azərbaycanın 9 şəhər və rayonunda sərtləşdirilmşö karantin rejiminin tətbiqinə qərar verib. Belə ki, 2020-ci il 14 iyun saat 00:00-dan 16 iyun saat 06:00-dək Bakı, Gəncə, Lənkəran və Sumqayıt şəhərlərinin, Abşeron, Yevlax, İsmayıllı, Kürdəmir və Salyan rayonlarının ərazisində sərtləşdirilmiş qaydalar tətbiq ediləcək.***



Adıçəkilən ərazilərin deputatları yerlərdəki mövcud durum haqqında Modern.az-a danışıblar.

40 saylı Kəpəz ikinci (Gəncə) seçki dairəsinin deputatı Musa Quliyev bildirib ki, bütün böyük şəhərlərdə olduğu kimi, Gəncədə də koronavirusa yoluxma çoxdur:

"Bu isə əhalinin sıxlığı, şəhər mühiti ilə bağlıdır. Həmçinin, karantin qaydalarına vaxtında, düzgün əməl edilməməsi, biganəlik halları da özünü göstərdi. Özünü qoruma tədbirlərinə xüsusilə karantinin yumşaldıldığı dövrdə düzgün əməl edilmədiyini gördük. Gəncədə koronavirusa yoluxanlar var, amma hər şey nəzarət altındadır. İcra hakimiyyətinin, yerli səhiyyə strukturları nəzarəti həyata keçirirlər. Xəstəxanalarda qəbul üçün yerlər, şərait var. Dərman preparatları, həkim kadrları yetərincədir. Amma artım bu tempdə davam edərsə, həm Gəncədə, həm də digər şəhərlərdə, ümumilikdə bütün ölkədə səhiyyə müəssisələrinin, tibb personalının çatışmazlığı ilə üzləşə bilərik. Ona görə, həftəsonu ciddi karantin rejiminə əməl etmək vacibdir. Ölkə başçısının modul tipli xəstəxananın açılışında qeyd etdiyi tövsiyələr bizim üçün vacibdir. Sosial məsafənin gözlənməsi, maskalardan istifadə və dezinfeksiyaedici vasitələrdən vaxtlı-vaxtında, düzgün istifadə şəraitinə öyrəşməliyik. Bu bizim həyat tərzimizə çevrilib".

Musa Quliyev Gəncə əhalisinə mərasimlər keçirməkdən, müxtəlif tədbirlərə qatılmaqdan imtina etməyi məsləhət görüb: "Xüsusilə yas mərasimlərində yoluxanların çox olduğu barədə ciddi, narahatedici siqnallar var. Son həftələrdə yoluxanların əksəriyyəti kütləvi şəkildə yas yerlərinə gedənlər, onların ailə üzvləridir. Hesab edirəm ki, bunu da müvafiq qurumlar nəzarət altına götürməlidirlər.

Hər bir halda çalışmalıyıq ki, üzərimizə düşənləri yerinə yetirək. Hökumətin gördüyü tədbirlərə əhali dəstək göstərməsə, koronavirusla əlaqədar ciddi problemlərlə üzləşə bilərik. Ona görə, Gəncə sakinlərinə və bütün ölkə əhalisinə məsləhətimiz qeyd edilən qaydalara tam riayət etmələridir".

48 saylı Yevlax seçki dairəsini Milli Məclisdə təmsil edən deputat İlham Məmmədov isə qeyd edib ki, ölkəmizdə vətəndaşların sağlamlığının qorunması üçün bütün zəruri addımlar atılıb:

"Görülən tədbirlər nəinki ölkəmizdə, dünyada da yeni model kimi qiymətləndirildi. Təbii ki, sərt karantin rejimi tətbiq olunan dönəmdə ölkəmiz vaxt qazandı ki, əhalinin sosial, psixoloji və iqtisadi durumunun yaxşı olması üçün bütün tədbirləri görsün. Amma təəssüf ki, yumşalma olduğu vaxtda insanların məsuliyyətsizliyi ucbatından problem daha da artdı. Tək sıx şəhərlərdə deyil, regionlarda da yoluxma artmağa başladı.

Yevlax İcra hakimiyyəti elə ilk vaxtlardan dezinfeksiya tədbirlərinə başladı, küçələr, parklar, bazarlar, ictimai yaşayış binalarının bloklarına qədər - hər yer dezinfeksiya olundu. Karantin dövründə insanların məmnunluğunu təmin etmək üçün rayonda bankomatlar, "MilliÖn" ödəmə vasitələri, səyyar market və apteklər istifadəyə verildi.

Təəssüf ki, insanların bəzi hallarda karantin qaydalarına müqavimət göstərdiyini də müşahidə etdik. Koronavirus bəlasının olmadığını iddia edənlər də var idi. Bunun nəticəsində həftə sonları üçün sərt karantin rejiminin tətbiq olunmasına ehtiyac yarandı".

Deputat vurğulayıb ki, Yevlax İcra Hakimiyyəti daxilində qərargah yaradılıb: "Ayrı-ayrı vətəndaşlarla, şəhər icra hakimiyyətinin başçısı, oradakı səlahiyyətli şəxslərlə mütəmadi əlaqə saxlayıram. Bu həftənin sonunda sərt karantin rejiminin tətbiqi ilə bərabər artıq Yevlax İcra Hakimiyyəti yanında yaradılmış qərargah fəaliyyətə başlayıb. İnsanlara sərt karantin rejiminə ciddi riayət etmələri üçün çağırışlar edirlər. Eyni zamanda səhiyyə müəssisələrində də həkimlərin növbəli qrafik əsasında işə çıxaraq, səhhətində problem yaranan insanlara köməklik göstərməsi təşkil edilib. Bu ümumi bəladır. Pandemiyadan azad olmaq üçün inzibati metodlar deyil, insanların məsuliyyəti böyük önəm daşıyır".

87 saylı Ağsu - İsmayıllı seçki dairəsinin deputatı Tahir Kərimli də İsmayıllıda insanların mümkün qədər karantin qaydalarına əməl etdiyini bildirib: "İsmayıllı İcra Hakimiyyətinin başçısı da bununla bağlı açıqlama verib, davamlı məlumatlar paylaşılır. İcra Hakimiyyəti öz təşəbbüsü isə vətəndaşlar arasında test aparır.

İsmayıllıda vəziyyət hazırda normaldır. Camaat hər zaman qaydalara riayət edən xarakteri ilə seçilib. Ona görə karantin rejiminin pozulması hallarının kütləvi olduğunu düşünmürəm. Rayonda mobil qruplar yaradılıb, məlumat gələn bütün sahələr yoxlanılır, testlər keçirilir".

Tahir Kərimli İsmayıllı camaatından istəyini də dilə gətirib: "İnsanlar inamsızlıq nümayiş etdirməsinlər. Koronavirus bəlası həqiqətən var, karantin qaydalarına riayət etmədikcə, daha da genişlənir. Ona görə, insanlara məsləhətim bu məsələdə son dərəcə həssas olmaqdır. #Evdeqal çağırışına əməl etmək, tibbi maskalardan, dezinfeksiya məhlullarından istifadə etmək lazımdır. İsmayıllı rayonun əksəriyyəti kəndlərdən ibarətdir. Öz həyəti olan ailələr çalışıb, başqaları ilə ünsiyyətdən qaçmalıdırlar. Mərasimlər, görüşlər, qonaqlıqlar keçirilməməlidir. Nəzərə almalıyıq ki, səhhətimiz hər şeydən önəmlidir".

***Aysel Aslan***

# "Azərbaycanın müstəqilliyini gözü götürməyən qüvvələr az deyil" - Komitə sədri



***"Azərbaycan xalqını qarşıdan gələn 15-iyun Milli Qurtuluş Günü münasibəti ilə səmimi qəlbdən təbrik edirəm! Xalqın taleyində böyük önəm daşıyan elə tarixlər var ki, həmin günlərdə onun gələcək həyatını müəyyən edən əhəmiyyətli başlanğıcların əsası qoyulub. Belə günlərdən ən önəmlisi tariximizə qızıl hərflərlə yazılmış 15 İyun - Milli Qurtuluş Günüdür. Bu gün xalqımız Heydər Əliyevin şəxsiyyəti ətrafında sıx birləşməklə öz gələcək taleyini həll etdi. "Mənim həyatım da, fəaliyyətim də yalnız və yalnız Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasına, ölkəmizin bu ağır vəziyyətdən qalxmasına həsr olunacaqdır", - deyən ümummilli lider problemlərin həlli üçün ölkədə vətəndaş həmrəyliyini, sabitliyi son dərəcə vacib sayırdı".***

"Unikal" xəbər verir ki, bunu parlamentin bu gün keçirilən növbədənkənar sessiyasının dördüncü iclasında çıxış edən Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov deyib. Komitə sədri bildirib ki, əgər müstəqilliyi qazanmaq ilkin şərt idisə, ikinci vacib məsələ onu qoruyub inkişaf etdirmək idi: "Bu, ümummilli liderin iradəsi sayəsində reallığa çevrildi. Heydər Əliyev milli dövlətçiliyimizin konsepsiyasını yaratdı. Respublikanın qarşısında duran problemlər mərhələlərlə həll olundu, əmin-amanlıq, siyasi sabitlik yarandı. İctimai-siyasi, sosial-iqtisadi, elmi və mədəni həyatda əsaslı dönüş başlandı, xalqımızın bütövlüyü, həmrəyliyi, milli birliyi təmin edildi. Azərbaycanda Heydər Əliyev siyasətinin alternativi yoxdur. Bu gün də bütün nailiyyətlərimizin əsasında ümummilli lider tərəfindən müəyyənləşdirilən siyasi kurs və Prezident İlham Əliyevin bu siyasi kursu uğurla davam etdirməsi faktı dayanır. Tam əminliklə deyə bilərik ki, Azərbaycanın gələcəyi işıqlı və firavan görünür. Prezidentimiz cənab İlham Əliyevin və Birinci vitse-prezidentimiz çox hörmətli Mehriban xanım Əliyevanın bu siyasəti uğurla həyata keçirməsi nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən, modernləşən, beynəlxalq miqyasda nüfuzu gündən-günə artan dövlətinə çevrilib, ötən dövr ərzində möhtəşəm iqtisadi uğurlara imza atılıb. Eyni zamanda, onu da qeyd etməliyik ki, dəyişən dünyada biz hər gün risklərlə, yeni çağırışlarla üzləşirik və ölkəmizin qarşısında bü gün də təhlükələr vardır. Azərbaycanın müstəqilliyini gözü götürməyən qüvvələr az deyil. Onların heç bir mənfur planı həyata keçməyəcəkdir. Sadəcə onlar dərk etməlidirlər ki, Azərbaycan 27 il bundan əvvəlki dövlət deyil. Bu gün Heydər Əliyev ideyalarına sadiq, həyatlarını bu ideyaya qurban verə biləcək çox sayda davamçıları var".

# TƏBİB ofis sahiblərinə müraciət etdi



***"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi" (TƏBİB) ofis binalarının əməkdaşları, sahibkarlar və menecerlərə müraciət edib.***

"Unikal"ın məlumatına görə, TƏBİB-in yaydığı müraciətdə bildirilib ki, ofis daxilində COVID-19 infeksiyasından qorunmaq üçün qaydalara əməl etməlidirlər.

- Əməkdaşlar COVID-19 haqqında maarifləndirilməli, ofisdə gigiyenaya riayət etməyə təşviq etməklə bağlı posterlər yerləşdirilməlidir.
- Xəstəliyi olan əməkdaşlar ofis binasına buraxılmamalı və evdə izolyasiya olunmasına şərait yaradılmalıdır.
- Ofisdə asqırarkən və ya öskürərkən ağız və burun birdəfəlik salfetlə örtülməlidir.
- Ofis birdəfəlik salfetlərin atılması üçün qapalı zibil qabları ilə təmin olunmalıdır.
- Ofis əlləri dezinfeksiya etmək üçün içində dezinfeksiyaedici məhlul olan dispenserlərlə təchiz olunmalıdır.

# Koronavirusla bağlı müsabiqə qaliblərinin adları açıqlandı

***Mədəniyyət Nazirliyinin Azərbaycan Yazıçılar Birliyi ilə birgə elan etdiyi "Koronavirus pandemiyası ilə mübarizə mövzusunda hekayə müsabiqəsi"nin qalibləri müəyyənləşib.***

Mədəniyyət Nazirliyindən "Unikal"a verilən məlumata görə, müsabiqəyə 417 hekayə təqdim olunub, 29 hekayə müəyyən edilərək müsabiqə qaydalarına cavab vermədiyi üçün qəbul edilməyib.

Komissiyanın 5 üzvü tərəfindən müsabiqəyə qəbul olunan 388 hekayənin mövzu, bədii və peşəkar yaradıcılıq baxımından dəyərləndirilməsi aparılmış və müəyyən edilmiş qiymətləndirmə cədvəlinə müvafiq olaraq əsərlərə hər bir üzv tərəfindən 10 ballıq şkala əsasında qiymət verilib.

"Koronavirus pandemiyası ilə mübarizə mövzusunda hekayə müsabiqəsi"nin komissiyasının fərdi qiymətləndirmə cədvəlinə əsasən alınmış ümumi nəticəyə və komissiyanın yekun qərarına müvafiq olaraq aşağıdakı hekayələr müsabiqənin qalibləri elan edilib:

**I YER**

Natiq Məmmədli "Taclı mələklər"

**II YER**

Sevinc Elsevər "A quşlarım, getməyin..."

**III YER**

Cavi Dan "Ev"

**Xüsusi mükafat üzrə**

Reyhan Yusifqızı "Həkimin gündəliyi"

Əkbər Qoşalı "İradə, mən ölürəm..."

Mədəniyyət Nazirliyinin müvafiq əmrinə əsasən müsabiqənin I yer üzrə qalibinə 2000 (iki min), II yer üzrə qalibinə 1500 (bir min beş yüz) və III yer üzrə qalibinə 1000 (bir min), xüsusi mükafat üzrə qaliblərə 500 manat məbləğində pul mükafatı və nazirliyin xüsusi diplomu təqdim olunacaq.

Qısa zamanda qaliblərin mükafatlandırılması xüsusi karantin rejimi və sosial izolyasiya qaydalarına müvafiq olaraq təşkil ediləcək.

***Famil***

# Radio yayım stansiyaları beynəlxalq qeydiyyata alındı

***Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi ölkəmizin radio yayım stansiyalarının maneəsiz fəaliyyətinin təmin edilməsi məqsədilə onların beynəlxalq qeydiyyatı üçün müvafiq tədbirlər görülüb.***

Nazirlikdən Unikal.org-a verilən məlumata görə, BTİ-nin rəhbər şəxsləri, eyni zamanda mütəxəssislərinin iştirakı ilə Cenevrədə 2019-cu ildən başlayaraq müxtəlif vaxtlarda müzakirələr aparılıb. Müzakirələr zamanı Azərbaycanın qeydiyyat üçün Beynəlxalq Telekommunikasiya İttifaqına təqdim etdiyi FM radio yayım stansiyalarının, Ermənistanın yayım stansiyalarına hər hansı maneə təsirinin olmadığı texniki hesabatlarla BTİ-nin mütəxəssislərinə və qarşı tərəfə sübut olunub.

Nəticədə Ermənistan tərəfindən edilmiş əsassız etirazlar geri götürülüb və Azərbaycanın qeyd olunan radio yayım stansiyalarının BTİ-də qeydiyyata alınması təmin edilib.

Qeyd edək ki, son illər ərzində Azərbaycanın radio yayım stansiyalarının maneəsiz fəaliyyətinin təmin edilməsi məqsədilə onların beynəlxalq qeydiyyatı üçün Beynəlxalq Telekommunikasiya İttifaqına tərəfimizdən edilmiş müraciətlər Ermənistan Rabitə Administrasiyası tərəfindən əsassız etiraz edilirdi.

Ermənistan Rabitə Administrasiyasının bu əsassız etirazları ölkəmizin radio yayım stansiyalarının BTİ-də qeydiyyata alınmamasına, bununla da Azərbaycan tərəfinin fəaliyyətinə maneə təsirlərinin yaranmasına səbəb olurdu.

***Aygün***

# Nazirlikdən xəbərdarlıq - Bu saatlarda küçəyə çıxmayın!

***"Baş verən iqlim dəyişmələrinin təzahürlərindən biri də yay aylarında güclü isti günlərin sayının artmasıdır".***

Unikal.org xəbər verir ki, bunu Milli Hidrometeorologiya Xidmətinin rəisi Umayra Tağıyeva bildirib.

Xidmət rəisi əlavə edib ki, sinoptiklərin xəbərdarlığına görə, iyunun 13-14-də Abşeron yarımadası və Bakı şəhərində havanın temperaturunun 40 dərəcəyədək, aran bölgədə isə 42 dərəcəyədək yüksələcəyi gözlənilir.

"Belə temperatur şəraiti nəinki meteohəssas insanlar, hətta bütün əhali üçün çox əlverişsizdir.

Gündüz saatlarında günvurma və istivurma təhlükəsi bu riski bir qədər də artırır. Lakin müəyyən tədbirlər görməklə güclü istilərin mənfi təsirlərindən qorunmaq mümkündür.

Məsələ, vacib olmadığı halda günəş şüalarının daha aktiv olduğu saat 11-dən 17-dək küçəyə çıxmamaqdır. Əgər küçəyə çıxmaq məcburiyyətindəsinizsə, baş örtüyündən və ya çətirdən istifadə edin, kölgəli yerlərdə olmağa çalışın, özünüzlə su götürün və s.", - deyə o bildirib.

# İmtahanlardan xeyli abituriyent kəsiləcək - SƏBƏB

***Ali və orta ixtisas məktəblərinə sənəd qəbulu başa çatıb və hazırda buraxılış imtahanları keçirilir. Məlumdur ki, bu il pandemiya səbəbilə həm repetitor, həm də kurslarda hazırlıqların keçirilməsi qadağan olundu. Əvəzində həmin hazırlıqlar virtual qaydada davam etdirildi. Maraqlıdır, bütün bunlara görə bu il qəbul imtahanları üçün sənəd verənlərin sayında azalma olub? Pandemiya tələbə olmaq istəyənlərin bu arzusunu təxirə salıb?***



Məsələ ilə bağlı Lent.az -a danışan təhsil eksperti bu il ali məktəblərə sənəd verənlərin sayında artım olduğunu bildirib: "Pandemiya olmasına baxmayaraq, bu il ali və orta ixtisas məktəblərinə sənəd verənlərin sayı ötən illə müqayisədə artıb. Bu il birinci qrupa sənəd verənlərin sayı 30917 nəfər olduğu halda, ötən il bu rəqəm 27824 idi. İkinci ixtisas qrupu üzrə bu il sənəd verənlərin sayı 14180 nəfər idisə, keçən il onların sayı 12388 nəfər təşkil edib. Gördüyünüz kimi, hər iki qrupa sənəd verənlərin sayında bu il artım olub.

2020-ci ildə üçüncü ixtisas qrupuna qəbul olmaq üçün 22568 abituriyent sənəd vermişdisə, keçən il həmin ixtisas qrupuna sənəd verənlərin sayı 20810 nəfər olub. İxtisas qrupları arasında ən az sənəd qəbulu sayı dördüncü ixtisas qrupundadır. Bu il həmin qrup üzrə 5156 nəfər sənəd verib. 2019-cu ildə isə bu rəqəm 4784 nəfər idi. Ən böyük artım beşinci qrup üzrə müşahidə olunub. Belə ki, 2019-cu ildə 50074 abituriyent sənəd verdiyi halda, 2020-ci ildə eyni qrup üzrə sənəd verənlərin sayı 57635 nəfərdir".

Kamran Əsədovun sözlərinə görə, builki imtahanlardan sonra xeyli abituriyent kəsiləcək:

"Ancaq bu il ötən ilə nisbətən plan yerlərində də dəyişiklik var. Məsələn, birinci qrup üzrə 14475, ikinci qrup üzrə 13375, üçüncü ixtisas qrupunda 11200, dördüncü qrupda 3315, beşinci qrup üçün isə 3393 plan yeri ayrılıb. Bütün bunları nəzərə alsaq görərik ki, bu il qəbul imtahanlarından sonra xeyli abituriyentin kəsilmə ehtimalı var. Məsələn, birinci qrupda plan yeri ilə abituriyentlərin sayında fərq böyükdür. Abituriyentlərin nisbətən şanslı olduqları qrup ikincidir. Həmin qrupda tələbə olanların sayı daha çox olacaq.

Ən gərgin vəziyyət üçüncü ixtisas qrupunda qeydə alınacaq. Orada 22 mindən çox abituriyent sənəd versə də, plan yerlərinin sayı 11 min ətrafındadır. Pandemiya ilə əlaqədar, repetitor və ya kurslarda hazırlıqlara fasilə verilməsindən əlavə, qəbul imtahanlarından sonra ciddi müsabiqə mərhələsi olacağı qaçılmaz olacaq".

# Bu il I sinfə qəbul prosesində yenilik

***İlk dəfə olaraq 2020-2021-ci tədris ili üçün ümumi təhsil məktəblərinin I siniflərinə şagird qəbulu zamanı əvvəlcə elektron sistemdə qeydiyyat prosesi, daha sonra isə məktəb seçimi prosesi aktivləşdirilib.***

Bakı Şəhəri üzrə Təhsil İdarəsindən Unikal.org-a verilən məlumata görə, bu yolla müəyyən səbəblərdən elektron sistemdən istifadə etməkdə çəkinlik çəkən valideynlərin qeydiyyat prosesini bitirmək üçün əlavə vaxt qazanması və digər valideynlərə eyni anda məktəb seçimi mərhələsində iştirak edə bilməsi təmin olunub.

Cari tədris ilindən etibarən ilk dəfə olaraq, ümumi təhsil məktəblərinin tədrisi digər dildə aparılan bölmələri üzrə məktəbəhazırlıq qruplarına cəlb edilmiş uşaqlar da I sinfə qəbul zamanı şifahi nitq bacarıqlarının qiymətləndirilməsi müsahibələrində iştirak edib. Mövcud sanitar-epidemioloji vəziyyətlə əlaqədar valideynlərə müsahibənin formasını seçmək imkanı yaradılıb. Valideynlərin seçiminə uyğun olaraq müsahibələr onlayn və ənənəvi (canlı) formada təşkil olunub. Müsahibə nəticəsi məqbul hesab edilən uşaqlar üçün növbəti tədris ili üzrə I sinfə elektron sistemdə avtomatik sorğu yerləşdirilib. Müsahibə nəticəsi məqbul hesab edilməyən uşaqlar üçün isə Azərbaycan bölməsi üzrə məktəb seçimi imkanı yaradılıb.

Ümumi təhsil məktəblərinin tədrisi digər dildə aparılan bölmələri üzrə I sinfə müraciət etmiş və məktəbəhazırlıq qruplarına cəlb edilməmiş uşaqların da I sinfə qəbulu məqsədilə şifahi nitq bacarıqlarını qiymətləndirən müsahibələr təşkil edilib. Valideynlərin seçiminə əsasən müsahibələrin ənənəvi (canlı) və ya onlayn qaydada təşkili mümkündür.

Mövcud sanitar-epidemioloji vəziyyətlə əlaqədar ənənəvi (canlı) müsahibəyə yazılmış valideynlərə şəxsi kabinetlərindəki "Əlaqə" bölməsinə yazaraq və ya elektron sis-



temdə seçimlərini dəyişərək onlayn müsahibə formasını seçmək imkanı yaradılıb. Bu baxımdan valideynlərə daha çox onlayn müsahibələrə üstünlük verilməsi tövsiyə edilir.

Onlayn müsahibə prosesi "Microsoft Teams" platforması vasitəsilə valideynlə videobağlantı yaratmaqla, Komissiya üzvlərinin uşaqla ünsiyyəti şəklində həyata keçirilib.

***Zaurə***

# "Azərişıq" ASC sədrindən yeni kadr islahatları

***"Azərişıq" ASC-də 2 region və 10 rayona yeni rəis təyin edilib.***

Unikal.org xəbər verir ki, prezident İlham Əliyevin qarşıya qoyduğu tapşırıqlara uyğun olaraq istehlakçılara göstərilən xidmətin səviyyəsini daha da yüksəltmək, aparılan yenidənqurma işlərini sürətləndirmək üçün müasir və innovativ düşüncəli, yeni texnologiyaları mənimsəmiş Ağıllı Şəbəkələrin elekt-



ron idarəetmə tələblərinə cavab verən peşəkar gənc kadrlar region və rayon elektrik şəbəkələrinə rəis təyin edilmişlər.

Qərb və Şimal-Qərb Regional Enerji Təhcizatı və Satışı idarələrinə (RETSİ), həmçinin Quba, Şamaxı, Qax, Oğuz, Balakən, Şəki, Ucar, Ağcəbədi ilə yanaşı paytaxt Bakının Səbail və Nərimanov rayon elektrik şəbəkələrinə yeni rəislər təyin edilib.

# Avropa Parlamentinin Birgə Bəyannaməsi Ermənistanda niyə siyasi zəlzələ effekti yaratdı?

***Məlum olduğu kimi, 10 iyun 2020-ci ildə Avropa Parlamentində (AP) Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair yüksək siyasi əhəmiyyətə malik olan Birgə Bəyannamə qəbul edildi. Avropa Parlamentinin Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, Ermənistan üzrə məruzəçisi Trayan Basesku və AP-nin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurand tərəfindən imzalanmış bu sənəddə Ermənistanla Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsini birləşdirən üçüncü avtomagistralın tikilməsinə etiraz bildirilərək bu cür qanunsuz fəaliyyətlərin beynəlxalq hüquq prinsipləri ilə tam ziddiyət təşkil etməsi müddəası əksini tapdı.***

Avropa Parlamentinin yalnız Azərbaycan üzrə məruzəçisi tərəfindən deyil, həm də Ermənistan üzrə məruzəçisi Trayan Basesku və bundan başqa Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurand tərəfindən qəbul edilir. Hələ indiyə kimi Ermənistan üzrə məruzəçi belə bir ədalətli, doğru və cəsarətli addım atmamışdı. Bu tarixi nailiyyət Trayan Baseskuya nəsib oldu. Mən onu ürəkdən təbrik edir və ona səmimi təşəkkürümü bildirirəm.

3) Adı çəkilən Bəyannamə münaqişə kontekstində verilir və Avropa Parlamenti Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmətini bir daha ifadə edir. Sənəddə qeyd edilir ki, magistral yolun tikintisi Azərbaycanın səlahiyyətli qurumlarının razılığı sinə yol açaraq etimad və sülhün yaradılmasına əlavə təhlükələr yaradır.

Yuxarıda sadalanan faktları nəzərə alaraq belə bir nəticəyə gələ bilərik ki, adı çəkilən Birgə Bəyannamənin müddəaları gələcəkdə Azərbaycan üçün yaxşı presedent rolunu oynaya bilər:

a) Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan tərəfindən həyata keçirilən qanunsuz iqtisadi fəaliyyətlərin, maddi resurslardan qanunsuz istifadə faktlarının pislənilməsi istiqamətində Avropa Parlamenti və digər qurumlar tərəfindən yeni sənədlər qəbul edilə bilər;

b) Birgə Bəyannamənin qəbul olunması erməni işğalı altında olan Dağlıq Qarabağ və ətraf rayonların ərazisində Ermənistan tərəfindən həyata keçirilən mədəni irsimizin təhrifi siyasəti, tarixi-mədəni abidələrimizin dağıdılması, dəyişdirilməsi və qanunsuz yollarla satışa çıxarılması faktlarının ifşası istiqamətində tədbirlərin görülməsi üçün də baza rolunu oynaya bilər.



Adı çəkilən Bəyannamənin əhəmiyyəti və işğalçı ölkədə yaratdığı "siyasi zəlzələ"nin səbəbi nədir!?

1) İlk dəfədir ki, beynəlxalq təşkilat, yəni Avropa Parlamenti səviyyəsində Ermənistandan başlanan və Azərbaycanın işğal olunmuş ərazilərinədək davam edən qanunsuz infrastruktur layihəsi bu qədər açıq və birmənalı mətnlə pislənilir.

2) Bu bəyanat ilk dəfədir ki, olmadan qərarlaşdırıldığına görə bu proses beynəlxalq hüququn norma və prinsiplərinin birbaşa pozuntusudur.

4) Bununla bərabər sənəddə həm də magistral yol tikintisinin münaqişə prosesinə yaratdığı manеə və təhlükələr də öz əksini tapıb. Bəyannamədə göstərilib ki, magistralın tikintisi Azərbaycanın Dağlıq Qarabağ bölgəsi və ətraf rayonlarının işğalı nəticələrinin möhkəmləndirilmə-

Beləliklə, Ermənistan-Azərbaycan münaqişəsinə dair qəbul edilmiş ilk bu cür sənəd olan Avropa Parlamentinin birgə bəyannaməsi Ermənistanın uzun illərdir ki həyata keçirdiyi qanunsuz fəaliyyətlərinə AP-nin qətiyyətli və obyektiv münasibətinin ifadəsidir. Bu sənəd işğalçı ölkənin növbəti məğlubiyyəti, Azərbaycanın isə növbəti diplomatik uğurudur. Bu sənəd Azərbaycan Prezidenti cənab İlham Əliyevin hücum diplomatiyasının konkret nəticəsi, dövlətimizə beynəlxalq aləmdə olan inam və etimadın göstəricisi, xarici siyasət idarəmizin, Brüsseldəki səfirliyimizin dövlət başçısının tapşırıqlarını peşəkar formada icra etməsinin ən yaxşı nümunəsidir. Bu həm də Azərbaycanın Parlament diplomatiyasının nailiyyətidir.

***Azay Quliyev,***
***Milli Məclisin üzvü***

# Çimərlikdə bu qaydalara əməl etməlisiniz

***"Qaradağ, Səbail, Binəqədi, Xəzər rayonlarında ötən il yaradılmış 6 ictimai çimərlik dəniz mövsümünə tam hazırdır".***

"Unikal" xəbər verir ki, bu barədə məlumatı Bakı Şəhər İcra Hakimiyyətinin nümayəndəsi Bayram Həsənov REAL TV-yə açıqlamasında deyib. Bildirib ki, çimərlik ərazisində vətəndaşları qaydalar barədə məlumatlandıracaq lövhələr vurulub:

"Çimərlik taxtaları arasında 2 metr, çətirlər arasında isə 4 metr məsafə nəzərdə tutulub. Vətəndaşlar arasında sosial məsafənin qorunması üçün ərazidə iplər çəkilib. İyunun 15-dən sonra çimərlikdə tibb məntəqələri də fəaliyyət göstərəcək. Biz inanırıq ki, görülmüş bu tədbirlər digər çimərliklər üçün də nümunə olacaq".

Qeyd edək ki, iyun ayının 15-dən ölkədə çimərlik mövsümünə start veriləcək.

Xatırladaq ki, Türkiyə Səhiyyə Nazirliyinin koronavirusla bağlı qərargahının nümayəndəsi,



uzman həkim Səma Turan dənizdə duz miqdarı yüksək olduğundan virusun canlı qala bilmə ehtimalının aşağı düşdüyünü və hovuzlara nisbətən daha az təhlükəli olduğunu bildirmişdi.

# "Azərbaycan indiki şəraitdə insan sağlamlığını qoruyan yeganə ölkədir" - Tahir Mirkişili



***"İki gün öncə Azərbaycan iqtisadiyyatının bu ilin 5 ayının nəticələri elan olunub. İndiki pandemiya şəraitinin iqtisadi göstəricilərə təsirinin əhəmiyyətini nəzərə alaraq bu rəqəmləri diqqətinizə çatdırmaq istərdim. Öncə qeyd edim ki, gözlənildiyi kimi, 5 ay ərzində ÜDM-in həcmi 1.7% azalmış, idxal 26.7%, ixracın həcmi isə 25.3% azalıb. Azalma yük və sərnişin daşımalarında da müşahidə olunmuş, hər iki göstərici müvafiq olaraq 10.3 və 24% azalıb".***

"Unikal" xəbər verir ki, bunu parlamentin bu gün keçirilən növbədənkənar sessiyasının dördüncü iclasında cari məsələlərin müzakirəsi zamanı Milli Məclisin İqtisadi siyasət və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib.

Komitə sədrinin sözlərinə görə, azalmalar əsasən Beynəlxalq bazar konyunkturasından asılı olan və Azərbaycan dövlətinin atdığı addımlardan asılı olmayan sahələrdə (neftin qiymətinin, ixrac qiymətlərinin azalması, yük daşımalarda azalma və s) baş verib və bu gözlənilən idi: "Amma bunlarla yanaşı ölkənin iqtisadi artım və məşğulluğu təmin edəcək böyük potensiala malik sahələrdə artımın davam etməsi çox sevindirici haldır. Belə ki, bu ilin 5 ayında qeyri neft sənayesinin 14% , kənd təsərrüfatı istehsalı həcmin 3.6% və büdcə gəlirlərinin 17% artması ölkəmizin çətin şəraitdə belə inkişaf potensialından xəbər verir. Xüsusi qeyd etmək istərdim ki, təhlillər göstərir ki, hansı sahələrdə aparlan iqtisdi islahatlar daha çox mənimsənilib, o sahələrdə artım davam edir. Ölkədə orta aylıq əmək haqqının artaraq 740 manata çatması əhalini maddi rifahı halı nöqteyi nəzərindən də mühümdür. İqtisadçılarda belə bir ümumi fikir var ki, azalmanın olmasından daha çox azalma tempi daha böyük önəm daşıyır. Bu kontekstdə qeyd etmək istərdim ki, Avropa Birliyində 2-cü rüb üzrə Ümumi Daxili Məhsulun 14% azalması gözlənilir. Dünya Bankının bir-neçə gün öncə açıqladığı yeni hesabatında (Global Economic Prospects) 2020-ci ildə Azərbaycanda ÜDM-in 2.6% azalacağı proqnozlaşdırılır".

Tahir Mirkişili müqayisə üçün 2020-ci ildə Rusiyada ÜDM-in 6%, Gürcüstanda 4.8%, Qazaxstanda 3%,Türkiyədə 3.8% azalacağının proqnozlaşdırıldığını deyib: "İstənilən halda bu ilin 5 ayının nəticələrinə görə Azərbaycan iqtisadiyyatının əsas iqtisadi artım və məşğulluğu təmin edən mənbələrin, yəni qeyri-neft sənayesi, kənd təsərrüfatı məhsul istehsalında mühüm irəliləyişlərin müşahidə olunması dövlətin gördüyü islahatların effektiv olmasını göstərir. İqtisadiyyatın ən çox islahatlara məruz qalan sahələrində indiki şəraitdə belə artımın qeydə alınması, ÜDM-də azalma tempinin az olması onu deməyə imkan verir ki, Azərbaycanın pandemiya böhranından minimum itkilərlə çıxmağa iqtisadi imkanları mövcuddur. Azərbaycan indiki şəraitdə həm insan sağlamlığını qoruyan, həm də hədəf sektorlarda iqtisadi artımı təmin etməyi bacaran yeganə ölkədir".

***Hüseyn İsgəndərov***

# Neftçalada su təchizatı və kanalizasiya sisteminin yenidən qurulmasına başlanıb

***Neftçala şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması məqsədilə Prezident İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ilkin olaraq 5,0 (beş) milyon manat vəsait ayrılıb.***

Neftçala rayon İcra Hakimiyyətindən "Unikal"a verilən məlumata görə, hazırda rayon ərazisində bu sahədə mövcud infrastruktur olmadığı üçün tam yeni layihə hazırlanıb.

İcra başçısı Mirhəsən Seyidovun, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədr müavini Seymur Seyidovun, "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin digər mütəxəssislərinin, İcra Hakimiyyətinin aidiyyəti məsul şəxslərinin, Neftçala şəhər İnzibati Ərazi Dairəsi üzrə nümayəndəsinin və yerli bələdiyyə orqanının iştirakı ilə 11 iyun 2020-ci il tarixində RİH-nin inzibati binasında layihənin təqdimatı keçirilib.

İlkin olaraq Neftçala şəhərinin və?ətraf yaşayış məntəqələrinin içməli su təchizatının yaxşılaşdırılması nəzərdə tutulan layihə çərçivəsində mənbəyi Salyan rayonu ərazində su tutumu 7500 m3 olan su anbarı tikiləcək.

Həmin anbardar uzunluğu 44 km olan magistral su xəttinin çəkilməsi planlaşdırılır.

Mövcud layihəyə əsasən çoxmənzilli binaların və fərdi yaşayış evlərində yaşayan 40.000 nəfərə yaxın sakinin içməli su xətləri ilə təchizatı və sayğaclaşdırılması, paralel olaraq Neftçala şəhərinin kanalizasiya sisteminin yenidən qurulması həyata keçiriləcək.

Hazırda layihənin icrası istiqamətində zəruri tədbirlər həyata keçirilirməsinə başlanılıb.

## Bu il nə qədər müəllim işə qəbul olunub? - RƏSMİ

***Təhsil Nazirliyinin keçirdiyi müəllimlərin işə qəbulu və yerdəyişməsi müsabiqəsinə Bakı Şəhəri üzrə Təhsil İdarəsi 2019-2020-ci dərs ili üçün 1 442 vakansiya təqdim edib.***

İdarədən Unikal.org-a verilən məlumata görə, müsabiqə və müsahibələr nəticəsində 993 nəfər daimi əsaslarla işə qəbul olunub.

Bunlardan 414 nəfəri müəllimlərin işə qəbulu müsabiqəsinin müddətsiz müqavilə ilə işə qəbul mərhələsi nəticəsində, 319-u vakant yer üzrə müddətli müqavilə əsasında çalışan müəllimlərin daimiləşmə prosesi nəticəsində, 260-sı isə müddətsiz müqavilə ilə işləyən müəllimlərin iş yerinin dəyişməsi prosesi nəticəsində işə qəbul olunub.

Bu tədris ilində müəllimlərin işə qəbulu müsabiqəsinin müddətli müqavilə ilə işə qəbul üzrə elektron yerləşdirmə prosesi nəticəsində 1273 nəfər namizəd müddətli müqavilə ilə müxtəlif fənlər üzrə müəllim vəzifəsində işlə təmin olunub.

BŞTİ-nin tabeliyindəki təhsil müəssisələrində çalışmanın yaş həddinə çatmış 1 004 nəfər ilə dərs ilinin sonunadək müddətli müqavilə bağlanılıb.

## Eldar Sultanov yeni vəzifəyə təyinat alıb

***Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov yeni vəzifəyə təyinat alıb.***

"Unikal"ın məlumatına görə, bununla bağlı Baş prokuror Kamran Əliyev müvafiq əmr imzalayıb.

Əmrə əsasən, uzun illər Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri işləmiş Eldar Sultanov tutduğu vəzifədən azad edilərək Baş Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin rəisi vəzifəsinə təyin edilib, Günay Həsənliyə isə Baş Prokurorluğun Mətbuat xidmətinin rəhbəri vəzifəsinin icrası həvalə edilib.

Qeyd edək ki, Eldar Sultanov 1963-cü il martın 16-da Gürcüstanın Marneuli rayonunda anadan olub. 1969-1979-cu illərdə orta təhsil alıb. E.Sultanov Azərbaycan Aqrar Universitetinin iqtisadiyyat və Bakı Dövlət Universitetinin hüquq fakültələrini bitirib. 1983-cü ildən dövlət qulluğunda, o cümlədən vergi orqanlarında çalışan E.Sultanov 2001-2006-cı illərdə Milli Məclis sədrinin köməkçisi, 2007-ci ildən isə prokurorluq orqanlarında - Baş Prokurorluğun Təşkilat Analitik İdarəsinin prokuroru vəzifəsində xidmətə başlayıb.

E.Sultanov 2008-ci ildən Baş Prokurorluğun Mətbuat xidmətinə rəhbərlik edib. Bu müddət ərzində o, Kütləvi İnformasiya Vasitələri ilə qarşılıqlı münasibətlərin daha da yaxşılaşmasına və yüksək əməkdaşlığa nail ola bilib.

# Nazim İbrahimovun yeni həmləsi...

## Sabiq "diaspora şefi"nin qardaşı barədə gözlənilməz məhkəmə qərarı nədən xəbər verir?

***Yola saldığımız həftənin maraqlı hadisələrindən biri də Diaspora İş üzrə Dövlət Komitəsinin keçmiş sədri Nazim İbrahimovun qardaşı, iş adamı Sahib İbrahimovun hakim qarşısına çıxarılması və sonda elan edilən məhkəmə qərarı oldu. Lakin mətbuatda bu hadisə kifayət qədər diqqət çəkmədi; yerli media sadəcə ümumi məlumatla kifayətləndi.***

Xatırladaq ki, Sahib İbrahimovun cinayət işi üzrə məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsinin hakim Ramella Allahverdiyevanın sədrliyi ilə keçirilib, hökm oxunub.Hökmə əsasən, Sahib İbrahimov 5 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. İstintaq zamanı həbsdə qaldığı müddət cəzadan çıxılaraq qəti olaraq 3 il 11 ay cəza saxlanıb. Cinayət Məcəlləsinin 70-ci (şərti) maddəsi tətbiq edilməklə 1 il müddətinə sınaq müddəti olmaqla cəzası şərti hesab edilib.Barəsində seçilmiş ev dustaqlığı qətimkan tədbiri dəyişdirilib və başqa yerə getməmək haqqında iltizam tədbiri seçilib. Hökmdə Vergilər Nazirliyinin mülki iddiası qismən təmin edilib.Sahib İbrahimova məxsus Atatürk prospektindəki binanın üzərinə qoyulmuş həbs qərarı götürülüb. Məhkəmənin hökmünə əsasən, zərərçəkmiş Ehtibar Allahverdiyevin vəkili Xəqani İmanovun mülki iddiası təmin edilib. X.İmanov söyləyib ki, nümayəndəsi olduğu Ehtibar Allahverdiyeva 162 min 400 dollar zərər vurulub. Məhkəmə mülki iddianı 142 min manatlıq hissədə təmin edib.

Vəkil hökmdən narazı qaldıqlarını, maddi zərərin və mənəvi zərərin tam ödənilməsini tələb etdiklərini bildirib. Xəqani İmanov hökmdən apellyasiya şikayəti verəcəklərini qeyd edib.Onu da bildirək ki, prokuror külli miqdarda dələduzluqda, təkrarən vergidən yayınmaqda, vəzifə səlahiyyətlərindən sui-istifadədə, vəzifəli şəxsin səlahiyyətlərini mənimsəmədə, vəzifə saxtakarlığında ittiham edilən Sahib İbrahimova Cinayət Məcəlləsinin 66.3-cü (Cinayətlərin məcmusuna az ağır, ağır və ya xüsusilə ağır cinayətlərdən hər hansı biri daxildirsə, təyin olunmuş cəzaları tamamilə və ya qismən toplamaq yolu ilə qəti cəza təyin edilir.Bu halda azadlıqdan məhrumetmə növündə qəti cəzanın müddəti iyirmi ildən çox ola bilməz. Cinayətlərin məcmusuna daxil olan cinayətlərdən birinə görə ömürlük azadlıqdan məhrum etmə növündə cəza və ya iyirmi il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edildikdə isə az ciddi cəzanı daha ciddi cəza ilə əhatə etmək yolu ilə qəti cəza təyin edilir) maddəsi tətbiq edilməklə 5 il 6 ay cəza istəmişdi.Amma qeyd edilən maddələrlə Sahib İbrahimovu 15 ildən artıq azadlıqdan məhrumetmə cəzası gözləyirdi. Dövlət ittihamçısı Sahib İbrahimovun həbs edilməsini yox, barəsində Cinayət Məcəlləsinin 70-ci (şərti) maddəsinin tətbiq edilməsini istəmişdi. İşin maraqlı tərəfi isə budur ki, Sahib İbrahimov nə zərərçəkmişlərin pulunu, nə də dövlətə olan vergi borcunu ödəyib. Belə ki, Sahib İbrahimov 1 milyon 439 min manat vergi borcundan cəmi 37 min manatını ödəyib. Bundan başqa, o, qanunsuz sahibkarlıqla məşğul olmağa görə vurduğu 1 milyon 61 min manat ziyanı da ödəməyib.



Sözügedən məhkəmə qərarı təəccüb doğurur; çünki S.İbrahimovun qardaşı artıq vəzifədə deyil, belə hesab edilir ki, sabiq "diaspora şefi" təkcə postunu yox, hakimiyyət dairələrindəki nüfuzunu da tamamilə itirib. Belədə keçmiş komitə sədrinin qardaşı barədə gözlənilməz şəkildə bu cür hökmün elan edilməsi təəccüb yaratmya bilməz.

Yada salmaq yerinə düşər ki, 2018-ci ilin aprelində mətbuatın və ictimaiyyətin uzun müddətdən bəri davam edən proqnozları özünü doğrultdu:N. İbrahimov Diaspora ilə İş üzrə Dövlət Komitəsinin sədri postundan kənarlaşdırıldı. O adıçəkilən Komitəyə 10 illik rəhbərliyi dövründə Azərbaycan diasporasının güclənməsi adına demək olar, hər hansı müsbət təsiri ilə yadda qalmamışdı, əvəzində isə qısa vaxtda var-dövlət baxımından ən qüdrətli oliqarxlardan birinə çevrilmişdi. Sabiq "diaspora şefi"nin öz biznes imperiyasını bu qədər böyütməsi, ölkə daxilində və xaricində sərvətlərini inanılmaz miqyasa çatdırması necə mümkün olmuşdu? Bu sualın cavabı çoxlarına görə sadədir: dövlət tərəfindən Azərbaycan diasporasının güclənməsi məqsədilə ayırdığı iri büdcə vəsaitləri hesabına!

Belə düşünənlərin nə qədər haqlı olduğunu isə Prezident Administrasiyasının o vaxtkı rəhbəri Ramiz Mehdiyevin N.İbrahimov vəzifəsindən uzaqlaşdırıldıqdan sonra səsləndirdiyi fikirlər təsdiqləyir. Cənab Mehdiyev həmin vaxt bildirmişdi ki, "Diasporla İş üzrə Dövlət Komitəsinin işindən narazılıqlar var idi, Komitənin sədri Nazim İbrahimov öz vəzifəsinin öhdəsindən layiqincə gələ bilməyib. Təbii ki, bütün bunlardan Prezident İlham Əliyevin də məlumatı var. Buna görə də Prezident Nazim İbrahimovun işdən azad edilməsi barədə sərəncam verib".Prezident Administrasiyası rəhbəri qeyd etmişdi ki, Nazim İbrahimovun rəhbərliyi dövründə nə Gürcüstanda, nə Avropa ölkələrində, nə də Orta Asiya ölkələrində yaşayan azərbaycanlılarla heç bir iş görülməyib: "Düzdür, Komitədə müəyyən beynəlxalq tədbirlər keçirilib, amma konkret işlər görülməyib. Müəyyən tədbirlərin həyata keçirilməsində dövlət tərəfindən ayrılan maliyyə yardımları da öz ünvanına çatmayıb".

Əvvəllər də vurğuladığımız kimi, həmin açıqlamalardan sonra ictimaiyyətdə və mətbuatda yeni gözləntilər meydana çıxdı: təxminlər bu yöndə idi ki, N.İbrahimov sadəcə postunu itirməklə vəziyyətdən çıxa bilməyəcək, onun haqqında "dövlət tərəfindən ayrılan maliyyə yardımları öz ünvanına çatmadığı" üçün korrupsiya ittihamı ilə cinayət işi başlanacaq və proses həbsə qədər uzanacaq.

Lakin həmin gözləntilər özünü doğrultmadı; üstəlik, hətta keçmiş "diaspora şefi"nin qardaşı barəsindəki kifayət qədər ciddi ittihamlara baxmayaraq məhkəmədən yüngül cəza ilə qurtuldu.Bəzilərinin fikrincə bu, sabiq komitə sədrinin özünün əvvəlki mövqelərini, nüfuzunu bərpa etmək istəməsi istiqamətində ilk addımıdır. N.İbrahimov vəzifədən kənarlaşdırıldıqdan sonra özü barəsində yetərincə sərt rəsmi fikirləri həzm etmədiyi iddia olunur. Hesab edilir ki, keçmiş "diaspora şefi" artıq özünə qarşı hüquqi müstəvidə yarana biləcək problemlərin arxada qaldığını düşünür və aktivləşmə yolu tutur. Onun istəyi yenidən hər hansı vəzifə tutmaq olmaya bilər; ancaq sabiq komitə sədri özünün və ətrafının biznes şəbəkəsini gücləndirmək, müəyyən təsir imkanları qazanmaq istəyindədir. Elə qardaşının məhkəmədən kifayət qədər yüngül cəza ilə qurtulması, hətta onun Atatürk prospektindəki binasının üzərinə qoyulmuş həbs qərarının götürülməsi də bu istiqamətdə ilk həmlə kimi dəyərləndirilir.

Bu cür iddiaların nə qədər doğru olub-olmadığını isə zaman göstərəcək...

***Orxan Həsənli***

# Ermənistan beynəlxalq hüquq prinsiplərini pozur

## Dağlıq Qarabağa yeni yol tikintisi atəşkəs razılaşması və sülh danışıqları prosesini pozmaq cəhdidir

***Ermənistan tərəfi Azərbaycanın işğal olunmuş ərazilərində bütün qanunları pozaraq, tikinti işlərinin aparılmasını davam etdirir. Təbii ki, bu da ciddi narazılıqla qarşılanmaqdadır. Hətta bir sıra beynəlxalq təşkilatlar da buna etirazını bildiriblər.***

Dünən isə Ermənistan prezidentinin köməkçisi, eks-deputat və "Beynəlxalq İnsan İnkişafı Mərkəzi"nin prezidenti Tevan Poqosyan Avropa parlamentinin Qarabağla bağlı bəyanatına reaksiya verib. Ermənistan rəsmisi Avropa Komissiyasının Ermənistandan Qarabağa üçüncü yolun çəkilməsinə etirazı ehtiva edən bəyanatını tənqid edib. Poqosyanın fikrincə, rəsmi Yerevan Qarabağa yalnız quru yolu ilə deyil, hava nəqliyyatını da işə salmalıdır. "Bizə təkcə, Qarabağa üçüncü yolu inşa etmək yox, yeni kommunikasiyalar, o cümlədən Xocalı aeroportu barədə də fikirləşmək lazımdır. Müntəzəm hava rabitəsi yaratmalıyıq ki, Qarabağa təyyarədə uça bilək. Bunun üçün Xocalı aeroportu işə salınmalıdır".

Tevan Poqosyan Avropa parlamentinin son qərarını neytrallaşdırmaq üçün AŞPA-dakı erməni nümayəndə heyətinin akitvləşməsini və Yerevanın maraqlarına xidmət edən yeni bəyanatın yayılmasına nail olmağı vacib hesab edib. "Bizim mövqeyimizə dəstək verəcək digər ölkələrin nümayəndə heyətləri ilə əlaqə qurmalıyıq. Əgər Avropa parlamenti Minsk Qrupunun səylərinə dəstək olmursa, onda neqativ açıqlamaları ilə bizə mane olmasınlar".

Məsələ ilə bağlı fikirlərini "Unikal"la bölüşən "Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu hesab edir ki, Ermənistanın işğal olunmuş Azərbaycan əraziləri üzərindən Dağlıq Qarabağa yeni yol tikintisi aparması atəşkəs razılaşması və sülh danışıqları prosesini pozmaq cəhdidir. Onun sözlərinə görə, Yeni yol işğal altında olan Qubadlı və Cəbrayıl rayonlarını keçərək Ermənistandakı Kafan rayonunu Dağlıq Qarabağın Hadrut rayonu ilə birləşdirəcək:

"Bununla bağlı Avropa Parlamentinin (AP) Azərbaycan üzrə məruzəçisi Jelena Zavko, Ermənistan üzrə məruzəçisi Traian Basesku və AP-nin Azərbaycan, Gürcüstan və Ermənistan üzrə Parlament Əməkdaşlıq Komitəsinin həmsədri Mariya Kalyurand artıq birgə bəyanat qəbul edib. Bəyanatda qeyd olunur ki, magistralın inşası qərarı, Azərbaycanın səlahiyyətli orqanlarının razılığı olmadan alınıb və beynəlxalq hüquq pozulub. Bundan əlavə, bu addım Dağlıq Qarabağın və ətraf rayonların qanunsuz işğalını simvolik olaraq əhatə edə bilər. Politoloq bildirib ki, Erməni separatçıları İrəvanla birgə əvvəlcə işğal altındakı Şuşada "andiçmə mərasimi" keçirdilər. Daha sonra separatçıların yeni "prezidenti" ikinci mərhələdə "təyinatlar" həyata keçirdi. Separatçılar hazırda keçiblər növbəti mərhələyə. Söhbət separatçıların reallaşdırmağa çalışdığı "yol xəritəsindən" gedir. İlk olaraq yunanlardan başlayıblar.

Azərbaycan Xarici İşlər Nazirliyinin Dağlıq Qarabağ separatçıları ilə Kipr Yunan Respublikası arasındakı əlaqələri araşdırmasına və yunanlara xəbərdarlıq mesajı göndərməsinə ehtiyac var. Məsələ burasındadır ki, Dağlıq Qarabağ separatçılarının "parlament sədri" Artur Tovmasyan iyunun 10-da açıqlama verərək Kipr Respublikası ailə "Artsax-Kipr" dostluq qrupu formalaşdırdıqlarını bildirib.Bu qeyri-rəsmi klub deyil, qrupa Kipr Yunan Respublikası tərəfindən bu ölkənin deputatları, bələdiyyə üzvləri və adanın müxtəlif siyasətçiləri daxildirlər. Kipr Yunan Respublikası bu yolla Dağlıq Qarabağ separatçıları ilə rəsmi təmas qurmuş olur. Əslində erməni separatçılarıyla adı çəkilən qrupun yaradılması təşəbbüsü martın əvvəllərində Kirpdə verilmişdi. Tərəflər dünyanı bürüyən koronavirus epidemiyasına baxmayaraq, bu aylarda ciddi çalışıblar və əməkdaşlığı genişləndirmək üçün "yol xəritəsi" tərtib ediblər.

İşin arxasında Yunanıstanın olmasına dair şübhələr var. Yunanıstanla Türkiyə arasındakı münasibətlər son zamanlar gərginləşib. Görünür, rəsmi Afina Bakı-Ankara strateji ittifaqının güclənməsinə Kiprdəki yunanlar vasitəsilə cavab verir. Rəsmi Afina istəsə Kiprdəki yunanlarla Dağlıq Qarabağdakı ermənilər arasındakı intensivləşən əlaqələrə son qoya bilər. Separatçılarla ada vasitəsilə əlaqələr davam edirsə, dəmək rəsmi Afina belə istəyir.

Erməni separatçıları məqsədlərini gizlətmirlər. Onlar yunanlarla yaratdıqları klubun fəaliyyəti vasitəsilə bir müddət sonra Kipr Yunan Respublikasının "Dağlıq Qarabağ Respublikasını" rəsmən tanıyacaqlarına ümid edirlər. Bu məsələdə erməni lobbisi yunan lobbisi ilə birgə çalışır.

Azərbaycan bu əlaqələri görməzlikdən gələ bilməz. Əks halda erməni separatçılarının formalaşdırdıqları "dostluq" qruplarının sayı artacaq. Separatçılar mövcud "qrupları" fəallaşdırmağa və dünyada tərəfdar sayını artırmağa çalışacaqlar. Tərtib etdikləri "yol xəritəsinin" əsas hədəflərindən biri bölgəyə səfərlərin artmasını təmin etməkdir. Əlbəttə, hazırkı pandemiya dövründə bunu reallaşdırmaq mümkün deyil. Separatçıların bütün hazırlıqları postpandemiya dövrünə hesablanıb.

Separatçıların və erməni lobbisinin məqsədi bu "qruplar" vasitəsilə işğalı rəsmiləşdirməkdir. Hələ ki, bu onlarda alınmır. Ancaq separatçılar, Ermənistan hakimiyyəti və erməni lobbisi çalışmalarına ara vermirlər. Bu baxımdan Azərbaycan XİN birbaşa və ya Yunanıstan üzərindən Kipr Yunan Respublikasına nota göndərməlidir. Qoy rəsmi şəkildə desinlər ki, onlar Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirlər və yaradılan qrupun Kipr Yunan Respublikasının rəsmi qurumlarına aidiyyatı yoxdur. Əgər belə bir cavab verərlərsə, bu erməni separatçılarına tərs şillə sayıla bilər. Yox əgər yunanlar Azərbaycan XİN-in notasına reaksiya verməzlərsə və ya məntiqsiz cavab verərlərsə, biz də onlara Kuzey Kıbrıs Türk Cumhuriyyəti ilə əlaqələrimizi daha üst səviyyəyə qaldıra biləcəyimizlə bağlı mesaj göndərə bilərik.

Politoloq Məhəmməd Əsədullazadə isə bildirib ki, Avropa parlamentinin Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərinə üçüncü yolun çəkilməsinə qarşı etirazı ölkəmizin mövqeyinin güclənməsi deməkdir: "Demək, beynəlxalq hüquq Azərbaycanı dəstəkləyir. Ermənistanın Qarabağ məsələsində əvvəlki illərdən fərqli olaraq mövqeyi kifayət qədər zəifləyib. Qeyd edim ki, Ermənistan 2016-cı il Aprel döyüşündən sonra prinsipcə işğal olunmuş ərazilərdə infrasturuktur layihələri və məskunlaşdırma siyasətindən çəkinməli idi. Çünki, Azərbaycanın qəfil hücumundan çəkinməli idi. Amma, Aprel döyüşlərindən bir neçə ay sonra, işğalçı ölkə Araz boyu ərazilərdə məskunlaşma və digər ərazilərdə qəsəbələr saldı. Yeni infrastruktur layihələr reallaşdırdı. Hətta Suriyadan erməniləri gətirib yerləşdirdilər. Onlara evlər tikdilər. Ermənistanın arxayınlığı nədən qaynaqlanır. Əsas sual budur. Ermənistan 2013-cü ilə qədər işğal olunmuş ərazilərdə məskunlaşdırma və infrastrukturun geniş şəkildə qurulmasından çəkinirdi. İndi isə, çox sərbəst şəkildə hətta Aprel döyüşlərindən sonra açıq şəkildə Kəlbəcərdə, Laçında,Cəbrayılda, Zəngilanda yeni otellər, kəndlər salıb. Hətta Talış kəndində də yaşayışı yenidən bərpa edib".




Politoloq onu da qeyd edir ki, Ermənistanla danışıqlar prosesi ilə paralel olaraq hərbi təzyiqlər artırılmalı və yeni yaşayış məskənlərinin salınmasına imkan verilməməlidir: "Ermənistan üçüncü yolu çəkirsə, demək onlar danışıqlar yolu ilə ətraf rayonların boşaldılamasında maraqlı deyil. Beynəlxalq hüquq və ordumuzun gücü imkan verir ki, geniş miqyaslı müharibə aparmadan Ermənistanın bu təxribatlarına güclü zərbələr endirib, lokal irəlilləyişə nail olaq. Ermənistanın hazırkı siyasəti müharibə variantını gündəmə gətirir. Azərbaycan Ermənistan ordusuna güclü zərbə endirsə, bu Paşinyanın hakimiyyətdən getməsi ilə nəticələnəcək. Dövlət başçısı İlham Əliyevin Tərtərdə verdiyi mesajlar və ordunun gücləndirilməsi, yeni geosiyasi şəraitin yetişməsi fonunda müharibənin başlayacağına bir işarə idi".

***Z.Məmmədli***



## Türkiyədən Çin və ABŞ-a aviareyslər bərpa olunur

***"Türk Hava Yolları" (THY) aviaşirkətinin bu ay üçün nəzərdə tutulan beynəlxalq uçuş siyahısında iyunun 19-dan etibarən Türkiyədən Uzaq Şərq ölkələri, o cümlədən Çin və ABŞ-a aviareyslərin başlayacağı bildirilir.***

Məlumata əsasən, ilkin mərhələdə iyunun 19-dan Çinin Şanxay şəhərinə həftədə bir aviareys keçiriləcək. Eyni tarixdən ABŞ-ın Çikaqo və Vaşinqton şəhərlərinə də uçuşların keçirilməsi nəzərdə tutulur. İyunun 22-dən Mayami, ayın 24-dən isə Los-Angelesə aviareyslər bərpa olunacaq.

## ABŞ-ın xüsusi elçisi: "Əfqanıstanda sülh heç vaxt olmadığı qədər yaxındır"

***ABŞ-ın xüsusi elçisi Zalmay Xəlilzad Əfqanıstan hökuməti ilə radikal "Taliban" hərəkatı arasında məhbus mübadiləsinin həlledici mərhələyə qədəm qoyduğunu bildirib.***



"RİA Novosti" xəbər verir ki, o, bu barədə "Twitter"də yazıb.

"Hökümət tərəfindən 3 mindən çox "Taliban" məhbusunun və "Taliban" tərəfdən isə 500-dən çox əsirin azad edilməsini alqışlayırıq... Əfqanıstan daxilində sülh əldə olunmasına heç vaxt olmadığı qədər yaxşıyıq. Hər iki tərəf ən qısa zamanda danışıqlar masasına əyləşmək üçün çalışmalıdır", - ABŞ emissarı vurğulayıb. Qeyd edək ki, fevralın sonunda Qətərdə təşkil olunan mərasimdə ABŞ və "Taliban" radikal qruplaşması 18 ildən çox davam edən müharibə dövründə ilk dəfə sülh sazişi imzalayıb. Saziş özündə xarici qüvvələrin 14 ay ərzində Əfqanıstandan çıxarılmasını və məhbus mübadiləsi razılaşmasından sonra isə mart ayında ölkə daxilində hökumətlə radikal qruplaşma arasında dialoqun başlamasını ehtiva edir.

## Əfqanıstanda məsciddə partlayış törədilib

***Əfqanıstanın paytaxtı Kabil şəhərinin qərbində yerləşən məsciddə partlayış törədilib.***

Bu barədə Əfqanıstan Daxili İşlər Nazirliyi məlumat verib.

Kustar üsulla hazırlanmış bombanın parlaması nəticəsində məscidin imamı da daxil olmaqla, dörd nəfər ölüb.

Hadisə nəticəsində xəsarət alanların olduğu da bildirilir.

# TRAMPIN YENİDƏN PREZİDENT SEÇİLMƏSİNDƏ "KÜRƏKƏN ƏNGƏLİ"

## O, Kuşnerdən imtina edə biləcəkmi? - ARAŞDIRMA

***Ailələr arasında gedən mübarizə, göründüyü kimi, bütün Yer kürəsinə təsir etməkdədir. Kimsə bundan kənarda qala bilmir.***

ABŞ-la İngiltərə və onun təsir sferasında olan ölkələr arasında böyük gərginlik yaşanır. ABŞ-la Çin arasında gedən mübarizənin qaynağı da budur.

ABŞ-da önə çıxan ailələrdən biri Koxlar, biri də onların "investisiya üzü" olan Merserlərdir.

Robert Merser "Breitbart"-a nəzarət edən, həm də yəhudi Adelson ailəsilə mübarizə edən şəxsdir. Çarlz Koxun bu dünyada arxalandığı və sirdaş olduğu, bəlkə də, yeganə şəxs Robert Merserdir.

2013-cü ildə Çarlz Koxun Kanzas Viçitadakı malikanəsinə dəvət olunan 3 önəmli şəxs var idi. Biri dostu Robert Merser, biri Stiv Bennon, digəri də "Facebook"-un sahibi Mark Zukerberq idi. Hələ Tramp seçilməmiş və Ağ Evə gəlməmişdi. Həmin toplantıda onlar 2016-cı ilin noyabr ayında keçiriləcək prezident seçkilərində Trampın namizəd olacağını və onun qalib gəlməsi üçün bəzi addımların atılmalı olduğunu müzakirə etdilər. Yəni, start orada verildi.



Stiv Bennon rəqəmsal sistemlə insanların haqqında olan məlumatların analiz ediləcəyini və bəzi bölgələrdə bundan istifadə etdikdən sonra Trampın səslərinin artacağını söylədi. Kox da, Merser də bu fikri çox bəyəndi. Merser tərəfindən maliyyələşdiriləcəyi nəzərdə tutulan "Cambridge Analytica" quruldu. Mərkəz London olaraq göstərildi. Şirkət orada quruldu. Rəqəmsal məlumatlar toplanırdı, yəni, "məlumat mədənçiliyi" işi aparılırdı.

Zukerberq də "Facebook"-un "This is your digital life"-ından, yəni, şəxsi testindən istifadə edən təqribən 87 milyon amerikalının məlumatlarını Stiv Bennona təslim etdi. "Cambridge Analytica" da bu məlumatlarla işləməyə başladı. Yəni, qartopu qar uçqunu olmaq üçün hərəkətə keçmişdi. Ayrıca, "Cambridge Analytica" İngiltərə üçün də işləyirdi və "Brexit" yolunu açırdı. Həm də qüsursuz bir şəkildə...

Qısa müddətdə elə məlumatlar əldə edildi ki, onlardan istifadə edərək, bir bölgədə süd satışı 400% artırıldığı halda, ondan yalnız 19 km uzaqlıqda olan başqa bir bölgədə süd satışı 81% azaldıldı. "Cambridge Analytica" ən yüksək qiyməti almışdı. Bütün sınaqlar yüksək nəticələr verir və komanda irəliləyirdi. "Cambridge Analytica" "məlumat mədənçiliyi" işi ilə yeni bir dövr başlatdı. Stiv Bennon da Trampın seçki komandasına qatılınca, müəyyən bölgələrdə Trampı önə çıxaracağı qətiləşdi. Çünki insanlar şəxsi məlumatlarından istifadə edilərək yönləndirilirdilər. Məsələn, Trampa münasibətdə neytral olan bir amerikalının şəxsi məlumatlarını nəzərə alan "Cambridge Analytica" həmin seçiciyə maraqlı mesajlar verirdi. Əgər həmin seçici "New York Yankees" tərəfdarıdırsa, onun Trampın bu komanda ilə bağlı verdiyi çox önəmli mesajları görməsi təmin edilirdi. Əslində, Tramp belə bir mesaj verməmişdi. Bir anda düşüncələrə yön verilirdi, düşüncələr idarə edilirdi. Bu üsulla Tramp 2016-cı ilin noyabr ayında Ağ Evə göndərildi. Və 2017-ci ilin yanvar ayında Trampın prezidentliyi təhvil almasından sadəcə 1 il sonra "Cambridge Analytica" qapadıldı. Bağlanma tarixi olaraq, 2018-ci il göstərildi.

Ancaq "Cambridge Analytica"-nın məlumatları hələ də Kox ailəsinin əlindədir. Kox ailəsi Zukerberqdən bu məlumatları silməsini istədi. Yəni, demək olar ki, bütün amerikalı seçicilərin məlumatları Çarlz Koxun kassasında durur. Şirkəti qapatsalar da, məlumatlar əllərindədir. "Dərin Amerika" kassasına önəmli bir xəzinə qoymuşdur.

Və aradan, təqribən, 2 il keçdikdən sonra "Cambridge Analytica"nın qapadılan London, Vaşinqton və Nyu York ofislərində yenidən hərəkətlilik başlayıb. Yəni, noyabr ayında ABŞ prezidentini Kox ailəsi müəyyən edəcək.

Kox, Trampa ən böyük dəstək verən iş adamı idi. Bəzilərinə görə, Çarlz Kox hələ də Trampı prezident görmək istəyir. Koxun özünün də içində olduğu "Dərin Amerika" istəməsə belə, Trampın üstündən hələ də qəti xətt çəkilmiş deyil. Ancaq önəmli bir istəkləri də var. Trampın bəzi məsələlərlə bağlı geri addım atmasını gözləyən Çarlz Kox, əslində, önəmli bir tələbin arxasında durur. O, bir müddət öncə, Trampa "Cared Kuşneri Ağ Evdə görmək istəmirəm. Sistemsizliyi Vaşinqtona inteqrasiya etməməsi ilə bağlı ona xəbərdarlıq etmişdim" deyərək, nəticəni gözləyir. Yəni, "Dərin patron" Trampdan öz ailəsinə qarşı əməliyyat keçirməsini tələb edir. Görünən odur ki, Tramp "Prezident olmaq istəyirsənsə, Kuşneri yolla" xəbərdarlığı ilə baş-başa qalıb. ABŞ seçkilərə gedərkən cavabı maraqla gözlənilən sual budur.

Bir çox təhlilçinin görüşü belədir ki, "Bəli, Tramp bunu edər". "Trampın ən çətin seçimi budur" deyənlər heç də az deyil. Çünki Kuşner əslə və qəti şəkildə adi bir adam deyil. Dəfələrlə yazdım, çox önəmli döngələrdə çox önəmli rol oynayan oyunçudur. Trampın yerində olsanız da, onu asanlıqla kənara itələyə bilməzsiniz. Kuşnerin gündəliyini kiçik görməmək də şərtdir. Kuşner Ağ Evə Tramp sayəsində yaxınlaşmadı. Tramp qızı İvankanın Kuşnerlə evlənməsini də istəmirdi. Ancaq Kuşner İvanka ilə evləndi...

İndi Tramp "Dərin Amerika" ilə anlaşmağa məcbur olduğunu bilir. Çünki sistemdən kənarda qala bilər. Bu ehtimal heç də az deyil. Çünki Bayden də Kox ailəsinə yaxındır. Arada çox güclü bağlar mövcuddur.

Tramp, üstündən xətt çəkildiyi andan etibarən, 2015-ci ildəki hüzur və rahatlığı axtarmağa başlayar. Çünki 4 illik prezidentliyi dövründə həddindən çox düşmən qazandı. Düşmənləri də aslanın zəif dövründə ortaya çıxar. Tramp bu durumu nəzərə alır. Bu səbəblə, bəzən xətaya yol verir. Çünki qayğılıdır və qorxur.

Robert Merserin 1 iyun tarixində Kraliça II Yelizaveta ilə bir görüşü olmalı idi. Ancaq Kraliça koronavirusu bəhanə edərək, bu görüşü təxirə saldı. Bu durum Çarlz Koxu narahat etdi. Çünki Merser Kraliça ilə Koxun adından görüşəcəkdi. Həmin görüşün 1 iyulda keçiriləcəyi nəzərdə tutulur. Ancaq Merserə yaxın olan mənbələr bu görüşün olmayacağını düşünürlər. Çarlz Koxun Robert Mersərə "Artıq görüşmə" dediyi də iddia edilir.

Dünya koronavirusun təsirlərini dəf edərkən, yeni halına dönərkən toqquşma halı daha da aydınlaşır. ABŞ İngiltərəni kənarda saxlamaq istəmir. İngiltərədə ən güclü iş adamı Robert Merserdir. Güclü deyərkən, qoyduğu investisiyalar deyil, arxasındakı güc nəzərdə tutulur. Londonda təsirli olan Robert Merserin də Kraliçaya əsəbiləşdiyi məlumdur. Merser poker ustasıdır. Adi insanların görə bilmədiyi şeyləri görən, mürəkkəb alqoritmlərdən istifadə edərək, sərvət qazanan özəl bir şəxsdir. Milyarderdir. "Son qumarım Trampdır" deyə biləcək qədər, özünə arxalanan biridir.

İndi bir qədər geri çəkilərək, düşünün. Bizlər gündəlik həyatımıza davam edərkən, görün, zirvədə nələr olur... Yaşadığımız həyata nə qədər təsir edə bilirik? Dövlətlərin gələcəyini heç görmədiyimiz və tanımadığımız insanlar təyin edir. Və bu insanların bura ilə bağlı da planları vardır...

***Ərgün Dilər***
***"Takvim", Türkiyə,***
***11 iyun 2020-ci il***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

***Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun dəstəyilə "Qaçqın və məcburi köçkünlərin, əhalinin sosial cəhətdən qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli ilə bağlı həyata keçirilən tədbirlərin işıqlandırılması" istiqaməti üzrə layihə çərçivəsində hazırlanır.***

# Pandemiya dövründə özünüməşğulluq proqramı uğurla icra olunur

## Samir İmanov: "Bu bizi gələcəyə nikbin baxmağa imkan yaradır. Biz artıq əlilliyi özümüzə dərd edib sosial problemlər məngənəsində boğulmuruq"

***Koronavirus pandemiyası dünyanın bir sıra ölkələrində sosial layihələrin təxirə salınmasına səbəb olsa da, Azərbaycanda pandemiya dövründə də sosial layihələr icra olunur. Xüsusilə aztəminatlı və əlil şəxslərin məşğulluğu sahəsində çoxsaylı tədbirlər həyata keçirilir.***

Pandemiya dövründə aztəminatlı və əlil şəxslərin özünüməşğulluq proqramına cəlb edilməsinə də artıq start verilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidməti özünüməşğulluq proqramı iştirakçıları üçün təlimlərin keçirilməsinə başlayıb. Təlimlər "Vətəndaş qəbulu həyata keçirən qurumlarda koronavirus (COVİD-19) infeksiyasının profilaktikasına dair" metodiki göstərişlərə uyğun şəkildə, 10 nəfərdən ibarət qruplar halında təşkil edilir. İlkin mərhələdə koronavirus pandemiyası ilə əlaqədar təlimlərində fasilə yaranmış 1102 nəfərin təlimləri davam etdirilir. Növbəti mərhələdə isə 1804 iştirakçı təlimlərə cəlb ediləcək. Bu ilin əvvəlindən artıq 2600 nəfər proqram üzrə təlimlərə cəlb edilib.Təlimlər zamanı biznes-plan qurmaq, kiçik biznesin təşkili və inkişaf etdirilməsi üzrə bilik və bacarıqlar öyrədilir.

Samir İmanov da onlardan biridir. 1981-ci ildə Sumqayıt şəhərində anadan olan Samir serebral iflic xəstəliyindən əziyyət çəkir. O, anadangəlmə 1-ci qrup əlildir. Samir İmanov təhsilini "Sumqayıt Şəhər Evdə Təhsil Məktəbi"ndə alıb. Əlilliyi olan insanlardan bəhs edən dörd kitabın müəllifidir-.Özünün dediyinə görə, ölkəmizdə əlillik mövzusunda silsilə kitablar yazan ilk yazardır və dəfələrlə bir çox yazı müsabiqələrinin qalibi olub. Fəxri Fərman, diplom və digər mükafatlarla təltif olunub. "Əlil Təşkilatları İttifaqı"Sumqayıt Şəhər Regional Şöbənin sədri vəzifəsində çalışıb. Respublika Gözdən Əlillər Kitabxanasında səs montajçısı işləyir. Məktəblərdə şagirdlərə əlillik və əlilliyi olan insanlar barədə təlimlər keçir. Fiziki məhdudiyyətli insanlar üçün yaradılmış www.qartal.org saytının rəhbəridir. O, hətta əlilliyi olan şəxslər üçün yazılmış mahnının da sözlərinin müəllifidir. Həmsöhbətimiz həmçinin əlilliyi olan şəxslərə qarşı etiket qaydalarından bəhs edən sənədli filmin ssenari müəllifidir. Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. Ölkəmizdəki istedadlı və bacarıqlı əlilliyi olan insanların yer aldığı və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən hazırlanan "Əlillik qüsur deyil" kitab-albomunda yer alıb. S. İmanov ailəlidir. Onun bir oğlu var.

S. İmanov deyir ki, bir neçə il öncə işsiz kimi ərazi üzrə Məşğulluq Mərkəzində qeydiyyata düşüb: "1-ci qrup əlilliyi olan şəxslərin işləmək hüququ haqqında qanunda müddəa öz əksini tapanda mən çox sevindim. Bu vaxta qədər 1-ci qrup əlillər işləyə bilmirdilər. Bu qərar ləğv olunduqdan sonra mən iş üçün müraciət etdim. Bir müddət sonra Məşğulluq Mərkəzindən mənə zəng vurdular. Ötən ilin aprel ayında mənə zəng edərkən bildirdilər ki, özünüməşğulluq proqramı var, o layihəyə qoşulmaq təklifi verdilər. Mən də buna böyük məmnuniyyətlə razılığımı bildirdim. Məni qeydiyyata aldılar. Noyabr ayında məni təlimlərə cəlb etdilər. Həqiqətən də təlimin təşkilatçıları iştirak edən əliliyi olan şəxslərin qeydinə qalırdılar.Hətta bizim üçün xüsusi nəqliyyat da təşkil etmişdilər. Bizi taksi evdən götürüb təlimin keçirildiyi məkana aparırdı. Təlim bitdikdən sonra geri qaytarırdılar. Təlimin keçirildiyi məkan da çox gözəl seçilmişdi. Təlimdə mənim iştirak etdiyim bina Sumqayıtda Heydər Əliyev Mərkəzi idi. Tamamilə bina əlilliyi olan şəxslər üçün uyğun idi. Bizə təlimlərin gedişatında da qulluq edilirdi. Bizi çay və yeməklə də təmin edirdilər. Təlimin gedişində bizə iki şəxs tərəfindən biznesin sirləri öyrədildi. Yusif Axundov və İlqar Əsədov bizə biznes-plan qurmaqla bağlı təlim keçdi. Biz beləcə biznes-plan tərtib etdib, təqdim etdik BMT-nin nümayəndəliyinə. Bizi bundan sonra imtahan dəvət etdilər. İmtahanı uğurla verdikdən sonra gəlib biznes-planda qeyd etdiyim əraziyə baxış keçirtdilər. Ərazinin uyğun olduğunu gördükdən sonra bu ilin aprel ayında mənə biznes-planda qeyd etdiyim mal-materialı təqdim etdilər. Bura 10 arı ailəsi, bal süzən aparat, 10 kq şan, 100 ədəd çərçivə verdilər. Buna qədər mənim özümün 4 arı ailəm vardı. Mən bu 14 arı ailəsi ilə birlikdə öz şəxsi təsərrüfatımı qurdum. Deyərdim ki, öz kiçik biznesimi qurdum. Mən özünüməşğulluq üçün müraciət etməzdən öncə də kitab çap etdirirdim. Mənim üçün yazmaq çox çətin idi. Çünki, yazarkən, fikrimi tam yazıya yönəldə bilmirdim. Çünki sosial qayğılarım vardı. Artıq bu aktivlər mənə təqdim olunduqdan sonra düşünürəm ki, güzəranımız, dolanışığımız yaxşılaşacaq. Bir neçə aydan sonra ilk bal süzümü olacaq. Balı satıb sosial vəziyyətimi yaxşılaşdıracam. Buna görə mən prezidentimizə, nazirliyə, BMT-nin Azərbaycandakı nümayəndəliyinə, müəllimlərə və bu işdə zəhməti keçən hər kəsə təşəkkür edirəm. Çox sağ olsunlar ki, əlilliyi olan şəxslərin sosial müdafiəsini təmin edirlər. Bu bizə gələcəyə nikbin baxmağa imkan yaradır. Biz artıq əlilliyi özümüzə dərd edib sosial problemlər məngənəsində boğulmuruq. Bu qayğı bizə güc verir. Özümüzü cəmiyyət üçün daha yararlı hiss edirik. Bu işdə əziyyəti olan hər kəsə minnətdaram".





Nazirlikdən isə özünüməşğulluqla bağlı işlərin pandemiya dövründə də davam edəcəyini bildirdilər: "Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə BMT-nin İnkişaf Proqramının birgə icra etdiyi "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi çərçivəsində əlilliyi olan şəxslər üçün kiçik bizneslərin qurulması işləri davam edir. Layihə əsasında Zaqatala rayonunda da bu kateqoriyadan olan bir qrup əlilliyi olan şəxsə arıçılıq üzrə kiçik bizneslərini yaratmaları üçün aktivlər (arı ailələri, zəruri ləvazimatlar) təqdim edilib. Bundan əvvəl isə layihə çərçivəsində Şəmkir rayonunda əlilliyi olan şəxslərə aktivlər verilib. Ümumilikdə layihə pilot olaraq müəyyən edilmiş 12 şəhər və rayonda 500 nəfər əlilliyi olan şəxsin kiçik biznesə çıxışına şərait yaradılması nəzərdə tutur. Onu da qeyd edək ki, prezident İlham Əliyevin təşəbbüsünə uyğun olaraq, banklar tərəfindən özünüməşğulluq proqramına dəstək məqsədilə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Mərkəzi Bank və Banklar Assosiasiyası arasında əməkdaşlıq çərçivəsində proqram iştirakçılarına aktivlərin verilməsi davam edir. Artıq 100-ə yaxın proqram iştirakçısına seçdikləri fəaliyyət sahəsi üzrə kiçik bizneslərini qurmaq üçün banklar tərəfindən mal və materiallar formasında aktivlər təqdim edilib. Ümumilikdə isə əməkdaşlıq çərçivəsində respublika üzrə təlimləri uğurla başa vuran və biznes planlarını müdafiə etmiş 1000 nəfər proqram iştirakçısının banklar tərəfindən aktivlərlə təmin edilməsi nəzərdə tutulub. Məşğulluğa və sosial rifaha dəstək istiqamətlərindən biri də özünüməşğulluq proqramının genişləndirilməsidir. Bu il 12 minə yaxın ailənin bu proqrama cəlb edilməsi nəzərdə tutulur.

Xatırladaq ki, özünüməşğulluq proqramı Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra edilən və Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramı tərəfindən dəstəklənən "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" texniki yardım layihəsinin tərkib hissəsidir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə əsasında. Səhifəni hazırladı: Mələk Eyvazlı



# Narkotik alverçiləri belə həbs edildi

***Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşları tərəfindən həyata keçirilən növbəti əməliyyat tədbiri nəticəsində külli miqdarda yüksək təsiredici xassəyə malik narkotik vasitələrin və psixotrop maddələrin ölkə ərazisinə gətirilərək realizə olunmasının qarşısı alınıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, Baş İdarə əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında həyata keçirdikləri tədbir nəticəsində narkotiklərin qanunsuz dövriyyəsində şübhəli bilinən Masallı rayon sakini, əvvəllər məhkum olunmuş Elməddin Əzizov Bakı şəhəri Xətai rayonu ərazisində saxlanılıb.

Onun üzərində şəxsi axtarış aparılan zaman 11,930 qram narkotik vasitə aşkar olunaraq götürülüb.

Əməliyyat tədbirlərinin davamı olaraq Baş İdarənin əməkdaşları tərəfindən Elməddin Əzizovun Xətai rayonunda kirayədə qaldığı evə baxış zamanı əlavə 24 kiloqram 885 qram heroin, 1 kiloqram 870 qram tiryək, 3 kiloqram 275 qram psixotrop maddə olan metamfetamin və 1 ədəd elektron tərəzi aşkar olunub.

Araşdırma zamanı müəyyən olunub ki, Elməddin Əzizov hələlik adı istintaqa məlum olmayan İran vətəndaşının tapşırığı ilə qanunsuz yollarla Azərbaycan ərazisinə keçirilən külli miqdarda narkotik vasitə və psixotrop maddəni Masallı rayonu ərazisində qəbul edib və Çaxırlı kəndində yarımtikilidə gizlədib.

Daha sonra Elməddin Əzizov narkotik vasitələri paytaxta gətirərək kirayə yaşadığı evdə saxlayıb. O, narkotik vasitələri İran vətəndaşının deyəcəyi adamlara satandan sonra pulun bir hissəsini geri göndərməli imiş. Baş İdarə əməkdaşları tərəfindən həyata keçirilən daha bir əməliyyat zamanı isə narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan daha iki nəfər şəxs saxlanılıb.

Abşeron rayonunda həyata keçirilən tədbir zamanı paytaxt sakini Zeynal Zeynalov və Göyçay rayon sakini Vüqar Cəbrayılov tutulublar. Onların üzərində şəxsi axtarış aparılan zaman Zeynal Zeynalovdan 3 kiloqram, Vüqar Cəbrayılovdan isə 309,150 qram narkotik vasitə heroin aşkar olunaraq götürülüb.

Bu şəxslər də ifadələrində narkotik vasitələri hələlik adı istintaqa məlum olmayan İran vətəndaşından satmaq niyyəti ilə aldıqlarını bildiriblər.

Beləliklə sonuncu əməliyyatlar nəticəsində Baş İdarənin əməkdaşları tərəfindən 33 kiloqramdan artıq narkotik vasitə və psixotrop maddənin qanunsuz dövriyyəyə buraxılmasının qarşısı alınıb.

Faktlarla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanılıb, adları çəkilən şəxslər tutularaq istintaqa təqdim olunublar.

Cinayət işi üzrə zəruri istintaq və əməliyyat-axtarış tədbirləri davam etdirilir.

# Kişi keçmiş arvadını sevgilisinin yanında öldürdü: “Təzə barışmışdıq...” – Təfərrüat

***Bakıda arvadını xüsusi amansızlıqla öldürməkdə, onunla birlikdə olan kişiyə isə xəsarət yetirməkdə ittiham olunan Şəmkir rayon sakini, 1985-ci il təvəllüdlü Rəşad İbrahimzadənin işinə Ali Məhkəmədə baxılıb.***

Rəşad İbrahimzadə nikahı 14 fevral 2018-ci ildə Gəncə şəhəri Kəpəz rayon Məhkəməsi tərəfindən pozulmuş arvadı Zəhra İbrahimovanın başqa kişilərlə görüşərək, əxlaqsız həyat tərzi keçirməsindən şübhələnib.

Rəşad keçmiş arvadınmı izləməyə başlayıb və onu 1 may 2018-ci ildə, saat 8 radələrində Bakı şəhəri, “Gənclik” metrosu yaxınlığında avtobus dayanacağında 199 nömrəli marşrut avtobusuna əyləşdiyini görüb. Rəşad taksi maşınında onu izləyərək arxasınca gedib.

Zəhranın Xətai prospektində “Yaşıl bazar”ın qarşısında avtobusdan düşdüyünü görüb. Rəşad onu izləməkdə davam edib. Xətai prospektində, “Atlas” özəl tibb klinikasının qarşısında keçmiş arvadının əvvəllər tanımadığı Emil Əliyevlə səmimi görüşüb, yanaşı getdiklərini görüb.

Rəşad onların yaxın münasibətlərdə olduqlarını başa düşüb və arvadına çoxsaylı bıçaq zərbələri vurub. Qadın aldığı xəsarətdən hadisə yerində ölüb.

Rəşad keçmiş arvadı ilə birlikdə olan Emil Əliyevə də bir neçə bıçaq xəsarəti yetirib. Emil Əliyevə xəstəxanada tibbi yardım göstərildiyindən həyatını xilas etmək mümkün olub.

İstintaq orqanı tərəfindən Rəşad İbrahimzadənin barəsində Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə), 29,120.2.7-ci (iki və ya daha çox şəxsi öldürməyə cəhd) və 228.4-cü (qanunsuz olaraq qaz silahını, soyuq silahı, o cümlədən soyuq atıcı silahı əldə etmə, satma və ya gəzdirmə, milli geyim ləvazimatı hesab olunan ərazilərdə və ya ovçuluq peşəsi ilə bağlı olaraq soyuq silahı gəzdirmə) maddələri ilə ittiham elan edilib.

Cinayət işi üzrə təqsirləndirilən şəxs qismində ifadə verən Rəşad İbrahimzadə elan olunmuş ittiham üzrə özünü qismən təqsirli bilib. O bildirib ki, keçmiş arvadının başqa-başqa kişilərlə görüşüb, əxlaqsızlıq etdiyini eşidib. Bunu dəqiqləşdirmək üçün onu izləməyə başlayıb: “Mayın 1-də arvadımı “Atlas” özəl tibb klinikasının qarşısında tanımadığım kişi ilə səmimi görüşdüyünü gördüm. Bu məndə daha da qısqanclıq yaratdı. Onların yaxın münasibətlərdə olduqlarını güman etdim.

Təxminən iki il əvvəl əldə etdiyim və üstümdə gəzdirdiyim bıçaqla əvvəlcə Zəhranı vuraraq öldürdüm. Emilə də bıçaqla zərbə endirib hadisə yerindən qaçdım”.

Cinayət işi üzrə zərərçəkmiş şəxs qismində tanınan Emil Əliyev bildirib ki, Zəhra ilə yaxın münasibətləri olsa da, təxminən hadisədən iki gün əvvəl onun İntsaqram sosial şəbəkəsində müxtəlif qadın müğənnilərlə birlikdə çəkilmiş şəkillərini gördüyü üçün aralarında mübahisə olub və münasibətləri soyuyub: “Zəhra ilə növbəti gün barışdıq. Sonra Zəhraya iş tapdığımı deyərək, ona “Şərq Bazarı”nın arxasında yerləşən ofisə getməli olduğunu bildirdim”.

Emil Əliyevin sözlərinə görə, aprelin 30-da Zəhra Nicat adlı dostunun ofisinə getməyib, buna səbəb isə Zəhranın yuxudan gec oyanması olub: “Növbəti gün səhər saat 8 radələrində idarə etdiyim “Mercedes” markalı avtomobilimə mindim və işə getdim. İşə çatdıqdan təxminən 10-15 dəqiqə sonra Zəhra mənə zəng edərək, “Şərq Bazarı”nın qarşısında olduğunu, ofisin yerini tapmadığını, Nicata zəng etsə də, onun telefona cavab vermədiyini dedi. İş yerim olan “Ceramic Center” həmin yerə yaxın olduğu üçün Zəhraya gözləməsini istədim. Bir qədər sonra “Şərq Bazarı”nın yanında Zəhra ilə görüşdük. Birlikdə “Dəmir Bank”ın ofisi istiqamətində getdik”.

Emil Əliyev qeyd edib ki, bu vaxt Zəhranın istifadəsinə olan mobil telefona zəng gəlib: “Zəhra cavab verərkən “sənə deyirəm ki, işdəyəm” və “sən yenə dəlimi oldun” sözlərini deyərək telefonu söndürdü. Zəng edənin kim olduğunu soruşdum. Zəhra zəng edənin keçmiş əri Rəşad olduğunu söylədi. Zəngdən heç bir dəqiqə keçməmiş o, geri dönərək keçmiş ərinin arxasınca gəldiyini dedi. Mən də Zəhranın bu sözlərindən sonra geriyə dönərək baxdım. Rəşadın əlindəki bıçağı açdığını gördüm”.



Emil Əliyev deyib ki, həmin vaxt nə baş verdiyini anlayıb: “Bir də gördüm ki, Rəşad Zəhraya hücum etdi. Ona mane olmaq istədim. Rəşad mənim də üstümə bıçaq çəkdiyi üçün geriyə doğru qaçdım.

Zəhraya ardıcıl zərbələr endirdiyini gördüm və ayırmaq məqsədilə yenidən Rəşadın üstünə qaçdım.

Həmin vaxt ayağım dəmirə ilişdiyindən arxası üstə yerə yıxıldım. Rəşad məni bu vəziyyətdə olduğumu gördü, üstümə hücum edərək qarın və ayaq nahiyələrimə ardıcıl zərbələr vurmağa başladı. Ona müqavimət göstərməyə çalışsam da, Rəşad zərbələr endirməkdə davam etdi. Zərbələr vurduqdan sonra yerdə hərəkətsiz vəziyyətdə qaldığımdan öldüyümü düşündüyü üçün getdi.

Bir qədər sonra ayağa qalxdım və bir neçə metr irəlidə Zəhranın yıxılı vəziyyətdə olduğunu, orada toplaşan şəxslərin onu “Atlas Medical” klinikasına tərəf apardıqlarını gördüm. Özüm də yeriyərək qanlı vəziyyətdə klinikaya daxil oldum”.

Emil Əliyev əlavə edib ki, həkimlərin Zəhraya tibbi yardım göstərmələrinə baxmayaraq onun həyatını xilas etmək mümkün olmayıb. Bir qədər sonra Təcili Tibbi Yardım briqadası gəlib və Zəhranın öldüyünü bildirib.

Bakı Ağır Cinayətlər Məhkəməsi Rəşad İbrahimzadəyə 17 il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin edib.

Hökmdən narazı qalan Rəşad İbrahimzadə apelyasiya şikayəti verib. O, himayəsində 3 azyaşlı uşağın olmasının nəzərə alınıb cinayət işinə yenidən baxılmasını, barəsində yüngül qərar qəbul olunmasını xahiş edib.

Rəşad İbrahimzadənin apelyasiya şikayəti araşdırılması üçün Bakı Apelyasiya Məhkəməsinə göndərilib. Şikayət hakim Namiq Məmmədovun sədrlik etdiyi kollegiyada araşdırılıb.

Apelyasiya şikayətinin dəlillərini araşdıran hakim heyəti sonda qərar elan edib. Rəşad İbrahimzadənin apelyasiya şikayəti təmin olunmayıb.

Bu qərardan narazı qalan Rəşad İbrahimzadənin vəkili Hidayət Məmmədov kasasiya şikayəti verib. Vəkil kasasiya şikayətində göstərib ki, müdafiə etdiyi şəxs könüllü olaraq polislərə təslim olub, himayəsində üç azyaşlı uşağı var.

Vəkil qeyd edib ki, Rəşad İbrahimzadənin keçmiş həyat yoldaşının əxlaqsız hərəkətləri nəticəsində ailəsi dağılıb. Vəkilin sözlərinə görə, ona cəza təyin edilərkən bu vəziyyət yüngülləşdirici hal kimi nəzərə alınmayıb, əksinə hadisə zamanı istifadə etdiyi cib bıçağının soyuq silah qismində qeyd alınması cəzasını daha da ağırlaşdırmasını bildirilib.

Vəkil vurğulayıb ki, Rəşad İbrahimzadənin barəsində olan cinayət işinə hüquqi qiymət verilməlidir. O, müdafiə etdiyi şəxsin ittiham olunduğu Cinayət Məcəlləsinin 29,120.2.7-ci maddəsinin həmin məcəllənin 126.1-ci (qəsdən sağlamlığa ağır xəsarət yetirmə) maddəsinə tövsif edilməsini istəyib.

Bu şikayətə Ali Məhkəmədə hakim Fərhad Köərimovun sədrlik etdiyi kollegiyada baxılıb. Hakim heyəti vəkilin kasasiya şikayətini qismən təmin edib.

Rəşad İbrahimzadənin cəzasını 13 il 3 aya endirilməsi barədə qərar qəbul edilib(teleqraf).

# Bağlanan bankların bir çox əmanətçisi narazıdır




***Lisenziyası ləğv edilmiş AtaBank, Amrahbank, NBC Bank və AGBakın qorunan əmanətçilərinə kompensasiya ödəniləcəyi bəyan edilib. Artıq AtaBank və Amrahbankın əmanətçiləri kompensasiya almağa başlayıblar.***

"Unikal" xəbər verir ki, Marjanın əldə etdiyi məlumata görə, lisenziyası ləğv edilmiş bankların bir sıra qorunan əmanətçiləri çətinliklə qarşılaşıblar. Belə ki, Əmanətlərin Sığortalanması Fondu bəzi əmanətlərə sonradan edilmiş yatırımlara görə kompensasiya ödəmir. Buna səbəb olaraq, əmanətin qorunan olması üçün, əmanət müqaviləsinin bağlanıldığı tarixdə və yatırımın edildiyi tarixdə Fondun müəyyən etdiyi illik faiz dərəcəsinin yuxarı həddinin fərqli olması göstərilir. Əmanət müqaviləsi bağlanan vaxt əmanətin faizi Fondun həddindən aşağı olmasına baxmayaraq, sonradan yatırım edilən zaman əmanətin faizi Fondun müəyyən etdiyi həddən yuxarı olarsa yatırımlar sığortasız hesab edilir.

Bakı şəhər sakini Kudelin Oleq bildirib ki, 2018-ci ilin sentyabr ayında Amrahbankın Binəqədi filialında 3 illik sığorta müqaviləsi imzalayıb:

"Həmin vaxt Əmanətlərin Sığortalanması Fondunun illik faiz dərəcəsinin yuxarı həddi 15% idi, mən isə 13% ilə əmanət müqaviləsi imzalamışam. Yəni mənim əmanətim tam sığortalı hesab olunur. Müqavilənin şərtlərinə görə, əmanət müddətinin yarısınadək olan dövrdə hər ay əmanətin 2 mislini keçməmək şərtilə yatırım edə bilərdim. 01 İyul 2019-cu il tarixindən müqavilənin şərtlərinə əsasən illik 13%-lə yerləşdirdiyim əmanətimə yatırımlar etmişəm. İndi Əmanətlərin Sığortalanması Fondu mənim yatırımlarımı sığortasız hesab edir. Buna səbəb olaraq yatırım etdiyim zaman Fondun illik faiz dərəcəsinin yuxarı həddinin 10% olmasını göstərilir. Fondun bu hərəkəti doğru deyil. Mən yeni əmanət hesabı açmamışam ki, yatırımların sığortasız hesab edilsin?! Müqaviləyə əsasən əmanətimə yatırımlar etmişəm, ötən müddət ərzində qorunan əmanətin faizinin 15%-dən 10%-ə düşməsinin yatırılmara şamil edilməsinin əsası yoxdur. Fond bizə cavabında bildirib ki, məhkəməyə müraciət edin və məhkəmə bizi haqlı hesab etsə yatırımlara görə də kompensasiya ödəniləcəkdir. Başa düşə bilmirəm, vətəndaş nə üçün incidilməlidir?!. Mənim kimi yüzlərlə əmanətçilər narazıdır".

NBC Bankın əmanətçisi də eyni vəziyyətlə üzləşib: "Mən NBC Bankın əmanətçisiyəm və bu banka 12,5% gəlirliliklə əmanət yerləşdirmişəm. Müqavilənin şərtlərinə görə, 4 ay əlavə yatırımlar edilə bilərdir. Bank bağlandıqdan sonra Əmanətlərin Sığortalanması Fondu bildirir ki, ilk yatırdığınız əmanət sığortalı hesab edilir, sonradan etdiyiniz yatırımlar sığortasızdır. Çünki, mən müqavilə bağladıqdan sonra Fond qorunan əmanət faizində dəyişiklik edib, 15%-dən 10%-ə endirilib. Mənim bu dəyişiklikdən xəbərim olmayıb. İndi Əmanətlərin Sığortalanması Fondu mənim və mənim kimi müştərilərin yatırımlarını sığortasız hesab edir".

Əmanətlərin Sığortalanması Fondunun şərtinə görə, cəlb edildiyi günə Fondun müəyyən etdiyi həddən yuxarı illik faiz dərəcəsi ilə qəbul edilmiş əmanətlər qorunmayan əmanətlər hesab edilir. Hazırda Fondun müəyyən etdiyi hədd 12%-dir. Bu gün 12%-dək faizlər ilə bağlanmış manat əmanət müqaviləsi sığortalı hesab edilir. Fondun iddiasına görə, məsələn, bu gün 11%-lə bağladığınız əmanət müqaviləsi üzrə sonradan əmanətinizə yatırımlar etsəniz və yatırım etdiyiniz gün də Fondun müəyyən etdiyi faiz 10%-ə düşmüş olsa yatırımlarınız sığortasız hesab ediləcəkdir.

Əmanətçilər, Fonddan yuxarı dövlət orqanlarına şikayət etməyə hazırlaşırlar.

# Bu ölkələr Azərbaycandan tibbi maska idxal etmək istəyir

***"Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılmış tibbi maska istehsalı müəssisəsində bu günədək 4 mln ədəd tibbi maska istehsal edilib. İstehsal edilmiş 2 mln ədəd tibbi maska satılıb, qalanı isə ehtiyatda saxlanılır".***

Unikal.org xəbər verir ki, bu barədə müəssisənin təsisçisi Səkinə Babayeva bildirib. Onun sözlərinə görə, müəssisə gündəlik tələbata uyğun məhsul istehsal etmək gücünə malikdir: "Müəssisəyə xammal Türkiyədən gətirilir və yüksək keyfiyyətə malikdir".



S.Babayeva tibbi maska ixracı ilə bağlı məsələyə münasibət bildirib: "Brazilyadan, Almaniyadan tibbi maska idxalı ilə bağlı təkliflər almışıq. Lakin əsas hədəfimiz daxili tələbatı ödəməkdir. Ölkədə tələbat ödənildikdən və ehtiyat fondu yaradıldıqdan sonra, tibbi maskaların xaricə satışına icazə verildikdən sonra ixracla bağlı məsələni nəzərdən keçirəcəyik".

Qeyd edək ki, aprelin 6-da Sumqayıt Kimya Sənaye Parkında "Bakı Tekstil Fabriki" MMC tərəfindən yaradılan tibbi maska istehsalı müəssisəsinin açılışı olub. İstehsalçıya İqtisadiyyat Nazirliyinin yanında

Sahibkarlığın İnkişafı Fondu tərəfindən 1,2 milyon manat məbləğində güzəştli kredit verilib. Müəssisənin yaradılması üçün ümumi investisiya xərcləri 3,9 milyon manat təşkil edir.

# Vergi ödəyicilərinin cari ödəmələri ilə bağlı - CİDDİ GÜZƏŞTLƏR



***Koronavirus pandemiyası şəraitində vergi ödəyicilərinin maliyyə vəziyyətinin yaxşılaşdırılması məqsədilə Vergi Məcəlləsinə edilmiş dəyişikliklər əsasən vergiödəyicilərinin cari ödəmələri ilə bağlı güzəştləri nəzərdə tutur.***

"Unikal" Dövlət Vergi Xidmətinə istinadla xəbər verir ki, İqtisadi Araşdırmalar və Tədris Mərkəzinin rəhbəri Radil Fətullayev bu dəyişikliklərə əsasən turizm müəssisələri, turoperatorlar, turagentlər, hazırlıq və ixtisasartırma kursları, ictimai iaşə xidməti göstərən müəssisələr, avtomobil nəqliyyatı vasitəsilə ölkə daxilində sərnişin və yükdaşıma xidməti göstərən müəssisələr, mehmanxanalar və bu tipli digər obyektlər, eləcə də istirahət-əyləncə mərkəzlərinin daxil olduğunu deyib.

İqtisadçı Vergi Məcəlləsində sadələşdirilmiş vergi ilə bağlı mühüm dəyişikliklərin edildiyini də diqqətə çatdırıb: "Bu, ictimai iaşə sektorunda fəaliyyət göstərən vergiödəyicilərinin zərərlərinin azaldılması baxımından mühüm əhəmiyyət kəsb edir. İctimai iaşə sektorunda çalışan sahibkarlar bu il sadələşdirilmiş vergini 8 faiz əvəzinə 4 faiz dərəcəsi ilə, digər sadələşdirilmiş vergiödəyiciləri isə ümumi dövriyyədən 1 faiz məbləğində vergi ödəyəcəklər".

R.Fətullayev, həmçinin vurğulayıb ki, Vergi Məcəlləsinə edilən son dəyişikliklərdə sərnişin daşınması xidməti göstərən vergiödəyicilərinin öhdəlikləri də nəzərə alınıb. Bu sektorda vergi məbləğləri 50 faiz azaldılıb. Belə ki, taksi xidməti göstərən şəxslər Bakı şəhərində 2020-ci il ərzində aylıq 9 manat vergi ödəyəcəklər və digər bölgələrdə də bu məbləğ əmsallara müvafiq olaraq azaldılacaq.

# Tikinti şirkətləri hər bina üzrə vergiyə məlumat verəcəklər

***Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı məlumat forması hər bina üzrə ayrılıqda doldurularaq vergi orqanına təqdim ediləcək.***

"Unikal" xəbər verir ki, bu, İqtisadiyyat Nazirliyinin Kollegiyasının təsdiq etdiyi ""Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı hər bina üzrə verilməli məlumatın forması"nın tərtib edilməsi Qaydası"nda əksini tapıb.

"Bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi ilə bağlı hər bina üzrə verilməli məlumatın forması" hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dək vergi orqanına təqdim edilməlidir.

Məlumat formasını elektron formada vergi orqanına göndərmək üçün vergi ödəyicisi İnternet Vergi İdarəsinin "Onlayn kargüzarlıq və E-VHF" bölməsinə daxil olaraq məlumat formasının müvafiq xanalarını doldurmalı və gücləndirilmiş elektron imzadan istifadə etməklə təsdiq etməlidir. Məlumat formasına daxil edilən məbləğlər milli valyuta ilə (manatla) ifadə olunur.

Məlumat formasında yaşayış sahələri üzrə otaqların sayından və mansard (çardaq) olmasından asılı olaraq, sayı və sahəsi, 1 (bir) kvadratmetrinin satış qiyməti (ƏDV-daxil), cəmi təqdim edilmiş sahələrin sayı və sahəsi, o cümlədən, yerinə yetirilmiş işlər (mərhələlər) üzrə təqdim edilmiş sahələrin (tikintisi başa çatmış mərtəbələr üzrə) sayı və sahəsi və dövlətə ayrılan sahələrin sayı və sahəsi, o cümlədən qeyri-yaşayış sahələri satış üçün nəzərdə tutulan sahələrin olmasından asılı olaraq sayı və sahəsi, 1 (bir) kvadratmetrinin satış qiyməti (ƏDV-daxil), satış üçün nəzərdə tutulmayan (ümumi istifadə edilən sahələr) sahələrin sahəsi, cəmi təqdim edilmiş sahələrin sayı və sahəsi, o cümlədən yerinə yetirilmiş işlər (mərhələlər) üzrə təqdim edilmiş sahələrin (tikintisi başa çatmış mərtəbələr üzrə) sayı və sahəsi, eləcə də dövlətə ayrılan sahələrin sayı və sahəsi ayrılıqda əksini tapmalıdır.

# KIŞİLƏR

***Bizim uşaqlığımız ikinci dünya müharibəsindən sonrakı dövrlərə təsadüf edirdi.Yarımıçıq məktəblərdə təhsil alır,ayaqqabı ala bilmədiyimizdən atalarımızın bizə tikdiyi çarıqlarla lazımsız şəl-şəlpədən yığıb topa oxşar bir şey düzəldərək, onu dəmir tikanla örtülmüş düzlərdə axşamacan ora -bura qovurduq və heç yorulmaq bilmirdik Yorulanda ağzımızı axar kiçik kanallara dirəyib doyunca içərdik.Xəstəlik nə olduğunu bilməzdik.Axşamlar 5-6 bacı qardaş çovustanda çıraq işığının başına yığılıb sabahkı ev tapşırıqlarını bir-birimizə kömək edərək hazırlayırdıq. Şənbə-bazar günlərini həsrətlə gözləyirdik.Həmin gün valideyinlərimiz bir evə yığışar müharibədən qayıdıb gəldikdən sonra orada qələbənin qazanılması üçün etdikləri şücaətlərdən ağızdolusu danışar və biz də xəyalən səngərlərdə olub faşizmə qalib gəlmək üçün sanki onlara köməklik edərdik.***

Yaylağa-arana gedib gələn çobanlarımız yol boyu onlara zülm verən erməniləri çomaqları ilə necə pərən-pərən salmaqlarından,necə at çapmalarından və orada Şahhüseyn kişinin,Şəmil kişinin beş-on ermənini necə şil-küt emələri bizim üçün əsil qəhrəmanlıq simvoluna çevrilirdi.Rub kişinin kəndə hücüm edən canavarı necə boğması ən maraqlı söhbətlərdən birinə cevrilirdi.-Bu epizodun təkrar-təkrar söylənilməsini xahiş edərdik ki,ən qorxulu heyvan olan canavarın xofunu canımızdan çıxara bilək.

Maraqlı olan o idi ki,bu kişilər həm silinməz yaddaşa malik idilər,həm də hər kəs başına gələni çox ardıcıllıq və səliqə-səhmanı gözləməklə danışardı.

Gələn səfər kmi danışacaq bu artıq müəyyənləşirdi ki,ağsaqqallar incik düşməsinlər.Hamının deyiləsi hekayəsi olurdu axı.Burada yalan adlı heç nə ola bilməzri.Həmişə də filankəs bilməmiş deyil ifadəsini işlədirdilər.

Bir maraqlı hekayə bizim üçün daha böyük maraq kəsb etdi.Belə ki.yaylaq vaxtı kəndin sayılıb-seçilən kişilərdən ikisi atın üstündə hardansa toydan qayıdırmışlar.Yolu qısaltmaq üçü Qurban kişi söhbətə başlayır.Əfət kişi qulaq asmalı olur.Yol çox uzun imiş.Bir bulağın üstünə çatanda Qurban kişi atdan düşüb,atının yüyənini atdan düşməyən Əfət kişiyə verib, ağzını bulaqdan axan buz kimi suya dirəyib su içməyə başlayır.Bu zaman Əfət kişi atın üstündə Qurban kişinin bayaqqı söhbətinə nə isə əlavə edərək danışmaq istəyir.Aşağıda ağzı su içməkdə olan Qurban kişi ayaqlarını sağa-sola yelləyir..Bu o demək imiş ki. o,hələ söhbəti bitirməyib-.Üzünü doyunca su içib doyan Qurban kişiyə tutan Əfət kişi əlacı kəsilərək:

-İndidən deyirəm ki,növbəti toy səfərində danışan mən olacağam

Bəli biz nə qədər çətinlikə böyüsək də heç zaman onların bizə verdiyi tövsiyələrdən və əxlaq normalarından kənara çıxmamışdıq.Bu bizim qanımıza hopmuşdu.

*Əbülfət Alışov*

# “Heydər Əliyev Cümhuriyyəti, Rəsulzadəni, üçrəngli bayrağımızı xilas etdi”

***“1991-ci ildə o vaxtkı Ali Sovetin-bizim indi daxili interyerini dəyişən Milli Məclisimizin binasına daxil olanda bir vaxtlar onu sürəkli alqışlarla qarşılayanların əvəzinə başsız ayaqları ilə etiraz edənləri görəndə Heydər Əliyevin hesabına karyera qazanan qocaman bir deputat irəliyə çıxıb bax bu salonda mənəvi Ustadına dönüklüklə demişdi: iki dövrün qəhrəmanı olmaq mümkün deyil! Söhbət əlbəttə, Sovetlər birliyi və müstəqil Azərbaycanın bir-birindən fərqli formasiya olmasından gedirdi. Lakin Heydər Əliyev sübut etdi ki, millətinə xidmət edərkən hansı ideoloji quruluşa mənsub olmağın heç bir fərqi yoxdur.Yetər ki, sənin özünün böyük idealların olsun!”***

“Unikal” xəbər verir ki, bu fikirləri parlamentin bu gün keçirilən növbədənkənar sessiyasının dördüncü iclasında çıxış edən Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc deyib.



Komitə sədri qeyd edib ki, 1993-cü ilin 15 iyunu Azərbaycan Heydər Əliyevin əli ilə xilas oldu: “Ötən 27 ildə milyonlarla insanımız bu haqda danışır, yazır, göstərir.O vaxtlar hələ “Daş yuxular”ı görməyən və Prezident Sarayında-rəhbər qarşısında Birinci şəxsə xeyli təriflər yağdıran yazıçı Əkrəm Əylisli böyük hərflərlə yazırdı ki, Azərbaycan “xaos diktaturası”ndan xilas oldu. Həqiqətən bəlydi. İndi həmin əsəri tapıb yenidən çap eləmək lazımdır ki, gerçək tarix və əlyazmalar yanmasın!

Bəli, sovet rejimini çökdürdüyünü iddia edən milli Cəbhəmiz “üç ildə üç dəfə hakimiyyət”i dəyişməyə məcbur edəndən sonra özləri də kiçik bir əyalətə çəkilib Dövləti öz sahibinə qaytardılar. Əbülfəz Elçibəyin bütün həyatı boyu məcburən də olsa, ən düzgün addımı məhz bu qərarı olmuşdu. Lakin Heydər Əliyevin Bakıya qayıdışı təkcə 1991-ci ildə müstəqilliyini elan edən Azərbaycanı deyil, 1918-ci ildəki Cümhuriyyətimizi, Üçrəngli Bayrağımızı, Demokratik Respublikanın qurucu liderləri olan Rəsulzadəni, Xoyskini, Topçubaşovu da xilas etdi. Ən sonda indi sağ qaldıqları üçün böyük liderə borcunu onun ruhu ilə döyüşməklə qaytaran Elçibəy ardıcıllarını da ölümdən qurtardı. Heydər Əliyev istəsəydi, nüfuzunun ən yüksək çağında yeni bayraq, yeni himn və yeni gerbin arxitekturasını cızardı. Lakin fenomen tarixi şəxsiyyət kimi o, əsrin əvvəli və sonunu varisliklə birləşdirdi, bütün ugur və məğlubiyyətləri ilə bərabər Cümhuriyyəti, həmçinin tarixi-siyasi və sovet keçmişimizin arasında körpülər saldı,dövlətçilik tariximizi sarsılmaz bağlarla bütövləşdirdi, üzərində yeni dövlət qurdu”.

Zahid Oruc Surət Hüseynovun mətbuata çıxmasına da münasibət bildirib: “O vaxtkı hadisələrin baş qəhrəmanı Surət Hüseynov 27 illik susqunluqdan sonra indi müsahibə verir və onu hərbi qəhrəmandan xalq düşməninə çevirən demokratlara qəzəbini yağdırır, onları öz adı ilə çağırır. Adam bir anlıq düşünür ki, nə yaxşı o vaxtkı Cəbhə iqtidarı minlərlə vətəndaşımız kimi Ermənistana əsir düşməyiblər, yoxsa, tarixdə olduğu kimi onları hansı adla çağırardılar?

Məğlubiyyətlərini qələbə, faciələrini nailiyyət kimi təqdim edən qüvvələrin Heydər Əliyevin hakimiyyətə gəlişinə nəzəri olaraq, mane olmaq imkanları vardı: bundan ötrü bircə yol mövcud idi-dövləti qurmaq və qorumaq. Lakin ilahi ədalət o missiyanı Heydər Əliyevə nəsib etdi.Rəsulzadə və silahdaşları dövləti qurmaq istəyirdilər, gücləri çatmadı, Elçibəy istəyirdi dövlət qursun, bacarmadı. Dövlət-İnsan Heydər Əliyevsə gəldi, gördü və qurdu!

Bax bu salon şahiddir ki, məhz xalqın qəzəbi və nifrəti qarşısında 13 iyun 1993-cü ildə istefaya getməyə məcbur olan İsa Qəmbər əgər gerçəkdən də Elçibəyin varisidirsə, gərək gedib Ulu öndər qarşısında təzim etsin. Çünki Heydər Əliyev Xalq Cəbhəsinin rəhbərlərini bütünlüklə polkovnik Surət Hüseynova girov düşmək təhlükəsi və rüsvayçılığından qurtarmamışdı, eləcə də Elçibəyin dəfn törəninə qatılıb böyük Partiarxa xas müdrikliklə özünü ona siyasi rəqib sayanlardan yerlə-göy qədər uca olduğunu nümayiş etdirmişdi. Qoy indi Elçibəyin davamçıları gedib Fəxri Xiyabanda öz borclarını qaytarsınlar”.

Deputatın sözlərinə görə, 15 iyun tarixi yalnız bir günə və bir ilə - 1993- cü ilə məxsus deyil.

“Heydər Əliyevin haqq etdiyi keçici Qırmızı bayraqlarla 1969-1984 illərin sovet Azərbaycanının dünyəvi dövlətçilik yönündə parlaq quruculuğunu təşkil edən minlərlə uğurlu təqvim günləri də bu günkü müstəqil dövlətimizin üzərində ucaldığı təməllər-fundament olub. Heydər Əliyev əsrlərin və nəsillərin arzusu olan dövlət quruculuğu missiyasını gerçəkləşdirməklə, 90-cı illərdə cəmi “bir illik hakimiyyətləri ilə necə iqtidar olmaq olmaz” sualına birdəfəlik cavab verdi. Neft müqavilələrindən dövlət çevrilişlərini durduranadək, dövlətin Ana qanununu yazandan bir milyon yaxın qaçqın-köçkünləri yerbeyer edənədək 15 iyun xilaskarlığını davam etdirdi.

İndi çoxları sual edir: nə üçün insanlar 1991-ci ildə Bakıdakı hakimiyyətləri qoyub kiçik bir avtonom respublikaya üz tuturdular?! Bunun cavabı çox sadədir. Çünki o vaxt məhz Dövlət-Adam: Heydər Əliyevin şəxsiyyətinə görə Bakı deyil, Naxçıvan Azərbaycanın siyasi paytaxtına çevrilmişdi. Bəli, mənəvi hakimiyyət kimdədirsə, faktiki rəhbərlik də Ondadır! 1993-cü ildə sadəcə xalqımız onu hüquqi cəhətdən rəsmiləşdirdi.

Bütün həyatı boyu Heydər Əliyevi iki qüvvə müşayiət edib :mütləq qalibiyyət və labüd məğlublar. Doğrusu məhz ona görə də belə bir tarixi deyim var-dahilər doğulanda nadanlar ona qarşı birləşir.Şəxsi uğurunu daim millətlə bölüşən, onu xalqın adına yazan böyük lider heç vaxt ağrılarını toplumun üzərinə qoymadı.Əsli həqiqətdə Heydər Əliyevin şəxsi düşmənləri olmayıb. Dövlətə, millətə, azadlığımıza, ugurumuza qənim kəsilən hər kəs Heydər Əliyevə qarşı kin küdurət bəsləyib. Lakin Ulu öndərə münasibət obyektiv tarixi gerçəklikdir, o subyektlərin rəyindən asılı deyil. Hakimiyyət birinciliyində Əliyev soyadlı şəxs olmayanda da Heydər Əliyev xilas etdiyi Azərbaycan dövləti onun silinməz adı ilə yaşamaqda davam edəcək.

17 ildir prezident İlham Əliyev 15 iyundan başlanan yolu-müstəqilliyin əbədi və dönməz xəttini uğurla davam etdirir.Biz inanırıq ki, yaşadığımız hazırki dünyəvi təhlükədən çıxdığımız gün təqvimdə 15 iyunun növbəti uğurlu təkrarı olacaq!", - deyə parlamentari bildirib.

# Övladını atan, tamaşaçılar tərəfindən söyülən Məlik Dadaşov haqda FAKTLAR

***7 iyun Azərbaycan teatr və kino tarixində özünəməxsus yeri olan görkəmli sənətkar, Xalq artisti Məlik Dadaşovun doğum günündür.***

"Unikal" Kulis.az-a istinadən bu münasibətlə sənətkar haqqında maraqlı faktları təqdim edir.

Məlik Dadaşov 1924-cü il iyunun 7-də Bakıda doğulub. 1950-ci ildə Azərbaycan Teatr İnstitutunu (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) bitirib.

Uşaq yaşlarından musiqiyə gedib, kontrabasda ifa edirmiş. Orta məktəbi bitirdikdən sonra sənədlərini Tibb İnstitutuna verib. Qəbul olunub, amma elə birinci kursdan universiteti yarımçıq qoyub səhnəyə istiqamətlənir.

Məlik Dadaşov İkinci Dünya müharibəsində iştirak edib. 1943-cü ildə aldığı kontuziyaya görə geri qaytarılır və uzun müddət müalicə olunur. Müalicədən sonra hərbi hissələrdə musiqiçi kimi fəaliyyət göstərir. 1945-ci ildə müharibədən qayıdan Məlik Dadaşov Gənc Tamaşaçılar Teatrına yollanır və orda aktyor kimi işə götürülür. Az sonra sənədlərini Teatr İnstitutuna verir və Adil İsgəndərovun sinfinə daxil olur.

23 yaşlı aktyor səhnə fəaliyyətinə Zaqatalada yenicə açılmış teatrda başlayaraq əsas rolların ifaçısına çevrilir. Teatrda Sofiya Hüseynova adlı gənc aktrisa ilə ailə qurur. Bu izdivacdan 1946-cı ildə gələcəyin daha bir aktyoru - Rafael Dadaşov dünyaya gəlir. Lakin, bir müddət sonra cütlük boşanır. O, oğlunu atır və gənc aktrisa oğlu Rafaeli təkbaşına böyüdür.

1985-ci ildə Məlik Dadaşov "Müsahibə götürən adam" filminə çəkilir. Siyasi məsələlərə görə Pakistanda zəhərlənən Anatoli Kavaleznik haqqında olan filmdə Məlik Dadaşov bu ölkənin əks-kəşfiyyat komissarı Niyaz xan obrazını yaradır. Film çəkilən zaman sağ olan Niyaz xan bundan xəbər tutur və onun obrazını yaradacaq aktyoru öldürəcəyi ilə hədələyir. Buna görə də filmin Pakistanda aparılmalı olan çəkilişləri təxirə salınır. Məlik Dadaşovu da Pakistana qoymurlar. Filmin çəkilişləri İçərişəhərdə aparılır.

Məlik Dadaşov sənət taleyində sonralar da bu kimi hədələrlə davamlı olaraq üz-üzə qalır. "Axırıncı aşırım"da Qəmlonu, "Fəryad" filmində erməni obrazını, "Dəli Kür"də mollanı, "Ölülər"də Şeyx Nəsrullahı oynayanda tamaşaçılar aktyora həddsiz dərəcədə nifrət edir, küçədə görəndə onu söyüb yamanlayırmışlar.

Qızı deyir: "Atam yaradıcılığı boyu iki rolu ifa etmək istəməyib. Erməni rolunu, bir də "Ölülər"də Şeyx Nəsrullahı. Şeyx Nəsrullahı ona görə oynamaq istəmirdi ki, özü axır vaxtlar namaz qılırdı. Deyirdi, mən Allaha ibadət eləyirəm, amma "Ölülər"də Allaha qarşı çıxıram. "Fəryad" filmində isə düşmən obrazı yaratmalı idi. Bu rolu heç oynamaq istəmirdi. Yadımdadır ki, Ceyhun Mirzəyev yalvarırdı atama, deyirdi, bu rol sizə yazılıb. Atam onun sözündən çıxmadı, yaratdı o obrazı. Ən pisi də o oldu ki, rola görə atamı Ermənistanda milli qəhrəman kimi qəbul etdilər. Atam isə AzTV-də çıxış edərək həmin addan imtina elədi: "O adı heç vaxt heç cür özümə yaraşdıra bilmərəm. Bax buna görə də mən bu rolu oynamaq istəmirdim. Bilirdim ki, nəticəsi bu ola bilər."

"Fəryad" filmindən çox sonralar isə belə bir hadisə olub. Məlik Dadaşov instituta gedəndə "Malakan" bağının yanında bir qadın onu görüb qışqırmağa başlayır. "Ay camaat, bu adam ermənidi", - deyib camaatı yığır başına. Aktyor sənədlərinin təqdim edəndən sonra ona inanırlar. Filmin premyerasında isə tamaşaçılar qulağı eşidə-eşidə Məlik Dadaşovu söyürmüşlər.

Dövrün digər nəhəng sənətkarı Adil İsgəndərovla gənclik illərində münasibətləri yaxşı olsa da sonralar bilinməyən səbəblərdən onlar iki düşmənə çevrilirlər. Hətta onun oğlu Rafael Dadaşovun filmlərə çəkilməməsində Adil İsgəndərovun böyük rol oynadığını dilə gətirir: "Bu, Adil İskəndərovla Məlik Dadaşovun arasında yaranan çox ciddi mübahisə ilə bağlı idi. Zamanında Məlik Dadaşov Adil İskəndərovun yarasına duz səpmişdi. Görünür Adil müəllim də bunu yaddan çıxarmamış, yeri gəldikcə onun oğluna müəyyən sərhədlər qoyurdu.



Hətta Məlik Dadaşov özü o zaman Moskvaya gedib oranın vasitəsi ilə teatra bərpa olunmuşdu."

Lakin, deyilənlərə görə Adil İsgəndərov "Axırıncı aşırım" filmində Kərbəlayi roluna görə ona verilən mükafatdan imtina edərək deyib: "Bu mükafat Məlik Dadaşova düşür, Qəmlonu yaratdığına görə".

Uzun çəkişmələrdən sonra bir gün Məlik Dadaşov Milli Dram Teatrını tərk etməli olur. Qızı Gülnarə atasının teatrdan getmə səbəbini o vaxtkı mədəniyyət naziri Polad Bülbüloğlu ilə bağlayır. İki il Rus Dram Teatrında işləyən aktyor təqaüd adı ilə ordan da uzaqlaşdırılır.

Aktyor 70 yaşında övlad faciəsi yaşayır. İkinci nikahdan olan qızı xərçəngdən dünyasını dəyişir. Onun ölümündən sonra Məlik Dadaşov öz ağrısını bu sözlərlə ifadə edir: "Mən artıq yaşaya bilməyəcəm!"

Tədris Teatrında tələbələr ilə "Arşın mal alan"ı məşq edən zaman mizan göstərmək istəyəndə müvazinətini itirib yıxılır. Gicgahı yaxınlıqdakı stolun küncünə dəyir. Onu xəstəxanaya çatdırırlar, bundan sonra altı gün yaşayır. Huşu özündə olsa da, dili tutulur, danışa bilmir. Axırıncı gün qızından qələm-dəftər istəyir. Son istəyi nəşinin Akademik Milli Dram Teatrına aparılmaması və bəzi adamların dəfninə buraxılmaması olur.

Aktyor 1996-cı ildə 72 yaşında dünyasını dəyişir. Oğlu Rafael atasından incik olduğu üçün onun dəfninə getmir. Üçüncü arvadı Dolares isə ərinin vəsiyyətinə uyğun olaraq əlindəki siyahıda adları yazılan adamları dəfnə buraxmır.

# Sənət tarixində əbədiləşən aktyor



***Teatr və kino sənətinin qüdrətli aktyorlarından olan Əməkdar artist, respublika Dövlət mükafatı laureatı Hamlet Xanızadə cəmi 49 il ömür sürüb. Bu unudulmaz aktyor yaradıcılığı boyu can verdiyi obrazları ilə mədəniyyətimizin elə zirvələrini fəth etdi ki, yaratdıqları həmişəyaşar oldu. Güclü yaradıcı potensiala malik olan Hamlet Xanızadə zəngin daxili aləmə və istedada malik idi. Bu səbəbdən də müxtəlif xarakterli rolları yaratmaqda çətinlik çəkmirdi. Hansı rolu oynamasından asılı olmayaraq onun təqdim etdiyi obraz canlı və yaddaqalan alınırdı. Bunun başlıca səbəbi ondan ibarət idi ki, Hamlet rollarının daxili aləminə məharətlə nüfuz etməyi, onları təbii və səmimi çatdırmağı bacarırdı.***

Milli.Az AZƏRTAC-a istinadən bildirir ki, bu gün böyük sənətkarın anadan olmasından 79 il ötür.

Hamlet Xanızadə 1941-ci ildə Bakının Şağan qəsəbəsində dünyaya göz açmışdı. Uşaqlıqdan teatra həvəsi vardı. Amma atası Bəbir kişi oğlunu aktyor görmək istəmirdi. Onun uşaqlığı İkinci Dünya müharibəsinin dəhşətli qovğalarına təsadüf etdi. Xüsusilə də ağlı kəsəndən maraqla baxdığı filmlər gənc Hamletin arzularını məhz bir istiqamətə yönəltmişdi. Elə buna görə də Teatr İnstitutunda təhsil alan

Hamlet Xanızadə 1961-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında işə başladı. Bu möhtəşəm səhnədə ilk dəfə hansı rolu oynayıb, kimlərlə tərəf müqabili olub, - bilmirik. Amma onun rollarının sırasına boylananda heyrətlənməyə bilmirsən. Son dərəcə fərqli və ziddiyyətli surətləri bir aktyor öz ruhundan, varlığından keçirərək onları necə ustalıqla yarada bilmişdi: Həsən Səbbah ("Xəyyam"), İblis ("İblis"), Qacar ("Vaqif"), Molla Abbas ("Dəli yığıncağı"), Nizami ("Atabəylər"), Doktor ("Şöhrət və ya unudulan adam"), Antonino ("Fırtına") və başqaları. Əgər bir az da diqqət yetirsək ki, Hamlet Xanızadə məhz hansı müəlliflərin əsərlərində özünü bir aktyor kimi taparaq təsdiq edirdi, - onda sənətkarın yaradıcılığı haqqında müfəssəl düşüncəyə sahib ola bilərik. Təbii ki, ilk növbədə Hamlet Xanızadənin məftun olduğu, sevdiyi dramaturqlar vardı: Hüseyn Cavid, Mirzə Cəlil, Şekspir, Nazim Hikmət, Səməd Vurğun, İlyas Əfəndiyev, Nəriman Həsənzadə, Anar, Yusif Səmədoğlu və başqaları. Hamlet Xanızadə Mehdi Məmmədov, Hökümə Qurbanova, Əliağa Ağayev, Ağasadıq Gəraybəyli, İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı kimi müqtədir sənət korifeyləri ilə bir yerdə çalışıb. Tanrının bağışladığı istedad öz yerində, Milli Dram Teatrı Hamlet Xanızadə üçün bir məktəb idi. O, ustadlardan öyrənərək həm də öz məktəbini yaratdı.

Unudulmaz aktyorun yaradıcılığında ikinci bir mərhələni də kino sənətindəki xidmətləri təşkil edirdi. "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Arxadan vurulan zərbə", "Şəhərin yay günləri", "Qızıl uçurum", "Babək", "Bir Cənub şəhərində", "İnsan məskən salır", "İstintaq davam edir", "Qatarda", "Qatır Məmməd", "Qəm pəncərəsi", "Qərib cinlər diyarında", "Möcüzələr adası", "Nizami", "Topal Teymur", "Yaramaz", "Yol əhvalatı"... və nəhayət, "Qətl günü" filmlərində yaratdığı müxtəlif xarakterli obrazlarda yenə də Hamlet Xanızadənin özünəməxsus orijinal yozumu hiss olunmaqdadır. O, bu obrazları elə bir şəkildə təqdim edib ki, ikinci bir ifaçı haqqında düşünmək belə ağla gəlmir. "Qətl günü" filmindəki Sədi Əfəndi onun son rolu oldu. Həyat yoldaşı Nailə xanımın sözləridir: "Çəkilişlər zamanı, bəlkə də gündə neçə yol ölüb-dirilirdi. Filmdəki dövrlə bağlı ədəbiyyatı oxuduqca öz-özünə deyirdi: "Gör biz necə böyük bir millətin övladlarıyıq". Təəssüf ki, bizim milli taleyimizin əks-sədası olan bu filmə Hamletsiz baxdıq".

Həyatın bu amansızlığı imkan vermədi ki, Hamlet Xanızadə yaratdığı obrazın tamaşaçılar tərəfindən necə maraqla qarşılandığının şahidi olsun.

Hansı rolda çəkilməsindən asılı olmayaraq aktyor oynadığı rolun məsuliyyətini gözəl dərk edirdi. O, rejissorlarla çox asan dil tapırdı. Olduqca səmimi, işgüzar bir insan idi. Onu tanıyanlar deyirdilər ki, Hamlet heç vaxt insanların qəlbinə toxunmazdı. Rolları isə əksinə qəddar, zalım, qaniçən insanlar olurdu.

Hamlet Xanızadə güclü yaradıcı potensiala malik aktyor idi. Onun zəngin daxili aləmi müxtəlif xarakterli rolları yaratmağa imkan verirdi. Əməkdar artist idi. Xalq onu sevirdi. Mükafatı isə bir dövlət mükafatı və bir də xalqın ürəyində qazandığı məhəbbət idi. Bu məhəbbət bu gün də var, sabah da olacaq.

Cəmi 49 il ömür sürmüş Hamlet Xanızadə 80-ə yaxın filmdə unudulmayan, bir-birinə bənzəməyən, maraqlı obrazlar yaradıb. Onun qəhrəmanlarının əksəriyyəti tarixin, özü isə sənətin zirvəsində əbədiləşib!

# Çəkilişində rejissorun, operatorun, fotoqrafın həlak olduğu filmimiz - "Mən ki gözəl deyildim"in faciəvi kadr arxası

***“Unikal” Kulis.az-a istinadən ”Mən ki gözəl deyildim” bədii filminin təhlilini təqdim edir.***

1968-ci ildə ekranlara çıxan ”Mən ki gözəl deyildim” filmi Xalq yazıçısı Bayram Bayramovun eyniadlı povesti əsasında ekranlaşdırılıb.

Sovet dönəmi milli kinematoqrafiyamızda güllə səsinin eşidilmədiyi, döyüş səhnələrinin olmadığı, arxa cəbhədə insanların müharibə illərində necə yaşadığını, fəaliyyətini göstərən əla filmlər çəkilib: ”Şərikli çörək”, ”Bizim Cəbiş müəllim”, ”Tütək səsi” və s. Bu filmlərinin rejissorları müharibənin çətinliyini görüb yaşamış adamlardır.

”Mən ki gözəl deyildim” filminin rejissorlarından biri Ramiz Əsgərovun uşaqlığı müharibə illərinə təsadüf edib və o, çətin uşaqlıq yaşayıb. Ancaq çox təəssüf ki, biz heç vaxt R. Əsgərovun sağ qalacağı təqdirdə onun filmi necə quracağını, necə bitirəcəyini bilməyəcəyik.

Məsələ ondaydı ki, filmin çəkilişi zamanı partlayış baş verir və həlak olanların arasında R. Əsgərov da olur.

Hadisənin şahidlərindən biri, filmin operatoru təyin edilmiş Rasim Ocaqov hadisə haqda danışırdı: ”1967-ci ildə ”Mən ki gözəl deyildim” filminin birinci yaradıcı heyətilə Lənkəranda faciəli hadisə baş verdi. Həmin epizodda müharibə vaxtı bizim əsgərlər qayıqla üzür və ətrafda partlayışlar baş verməliydi. Birinci çəkiliş ərəfəsində biz pirotexniklərlə döyüşün təfsilatını, qamışlar arasından keçib gedəcək desant qayıqları arasındakı altı partlayışın hündürlüyünü, ölçülərini götür-qoy etdik. Sonra studiya adətiylə ilk günü şampanla ”yumaq” üçün ziyafət verməyi də nəzərə aldıq. Budur, Port-İliç körfəzi, 21 iyul 1967-ci il. Səhər indi açılıb. Çəkiliş qrupu xüsusi hərbi sal üzərində öz yerini tutur. Aktyorların mindiyi qayıqlar görünür. Pirotexnikərə işarə verilir. ”Çəkiliş başladı. Birinci kadr. Birinci dubl.” Birinci, üçüncü...beşinci partlayış-hər şey əladır. Altıncı! Ayaqlarımızın altında nəsə guppuldayır və tam sakitlik çökür. Özümə gələndə dəhşətli mənzərə gördüm. Gənc fotoqrafın gözləri hədəqədən çıxmışdı, içalatı əllərinə tökülmüşdü. Solda qıçı üzülmüş pirotexnik uzanmışdı. Hər şey tüstü içindəydi. Qana bulaşmış Ramiz yanımda idi. O, əlini mənə uzadıb dedi: ”Rasim, bax barmağımın üçü yoxdu”. Ayağa durmağa çalışdı, ancaq qalxa bilmədi. Qıçlarının ikisi də üzülmüşdü, lakin bunu dərk etmirdi, ağlına yerləşdirə bilmirdi. Mən də qıçımdan yaralanmışdım, qanaxmanı saxlamaq üçün yaramı dəsmalla bağlamaq istəyirdim. Birdən sükutu vahiməli bağırtılar pozdu. Xaos. Çaxnaşma. Kimsə kömək etməyə çalışır. ”Desantlar” qayıqda avar çəkirlər. Onlara, deyəsən, heç nə olmayıb, təkcə aktyor Ələddin Abbasovun əlindən qan axırdı. Bizi vertolyotlarda apardılar. Dörd nəfər həlak oldu (üçü elə yerindəcə, Ramiz isə ertəsi gün hospitalda). Dörd nəfər yaralandı. Sonra bizə dedilər, bədbəxt yoldaşlarımızın cənazələrini studiyadan götürülər. Çoxlu adam varmış, hamı da şok vəziyyətində. Sonralar məlum oldu ki, pirotexnik partlayıcı qurğunu səhv salıb, üstünə mindiyimiz saldakı qurğunu partladıb”.



R. Əsgərov ümidverici rejissor idi. ”Yaşamaq gözəldir, qardaşım” adlı ilk tammetrajlı bədii filmi onun milli kinomuza yeni nəfəs gətirəcəyindən xəbər verirdi. Hətta müəllimi, məşhur rus rejissoru Mixail Romm R. Əsgərovu ən istedadlı tələbələrindən biri sayırdı.

Baş vermiş faciədən sonra ciddi problemlər yaşanır. Sağ qalan üzvlər yenidən başlayacaq çəkilişdən imtina edirlər. Yerli rejissorların çoxu yarımçıq qalmış işi boynuna götürmək istəmir. Digər tərəfdən filmə xeyli pul xərclənmişdi, kinostudiyada plan kəsiri yaranmışdı. Vəziyyətdən çıxmaq üçün Moskvada yaşayıb fəaliyyət göstərən, əslən iranlı olan Sasanpuru rejissor kimi dəvət edirlər. İkinci quruluşçu rejissor kimi Ağarza Quliyev təyin olunur. Operator isə Moskvadan dəvət edilir: Aleksandr Polkanov. Ancaq Polkanov rəhbərliyə Sasanpurun əsərin ruhunu, mühiti hiss edə bilmədiyini deyir. Çox çək-çevirdən sonra Tofiq Tağızadə rejissor təyin olunur. O, Məzahir roluna dəvət olunmuş Oleq Xabalovu dəyişdirir və bu obrazı Şahmar Ələkbərov oynayır. Yeri gəlmişkən, R. Əsgərov Xabalovla ilk filmində də işləmişdi. Çingiz roluna isə gürcü aktyoru dəvət edilibmiş. T. Tağızadə onu Rus Dram Teatrının aktyoru Eldar Əliyevlə əvəzləyir. Azərbaycan tamaşaçısı bu aktyoru daha çox ”Dəli Kür” filmindən Rus Əhməd kimi xatırlayır. Səidə obrazına uzun müddət aktrisa axtarılır və Xuraman Qasımovanın üzərində dayanılır. X. Qasımova bu filmə kimi artıq ”Liftçi qız” filmində oynamışdı.

Hadisələr İkinci Dünya Müharibəsi illərini əhatə edir. Əsas qəhrəman, Azərbaycanın dağ kəndlərindən birində yaşayan 15 yaşlı Səidə uşaq ikən anasını itirib, müharibə başlayanda isə atasını cəbhəyə yola salır. Film də elə bu epizodla başlayır.

Əmisi Qurbanın (Sadıq Hüseynov) himayəsində yaşayan Səidəyə əmisi arvadı, qonşular uşaq kimi yanaşır. Və rejissor bizə kadrbakadr Səidənin necə böyüdüyünü, yetkinləşmə prosesini göstərir. Əhvalatın əvvəlində sərt gerçəkliyə hazır olmayan, gördüklərinə sadəlöhv reaksiya verən Səidəyə poçtalyon Şərif (İsmayıl Osmanlı) öncə atasının ölüm xəbərini demir. Səidə poçtalyon işləyəndə bərkə boşa düşür, bərkiyir və onun bu acı xəbərə hazır olduğunu görən Şərif həqiqəti deyir.

Yeri gəlmişkən, atasının ölüm xəbərini aldığı səhnə heç cürə alınmırmış. Buna görə rejissor aktrisaya bacarıqsız olduğunu, Səidənin taleyini yaşaya bilmədiyini deməklə ağladıb və bundan sonra o, dərin kədəri ifadə edə bilib.

Filmdə Səidənin həyatı fonunda arxa cəbhədəki insanların məişəti, güzəranı, dövrün mühiti verilir. Dərindən olmasa da, qadına cəmiyyətdə münasibət məsələsinə də toxunulur. Səidənin Məzahirlə dostluğunun dedi-qodu yaratması, əmisi arvadı Gözəlin onu məhz qadın olduğuna görə təzyiq altında saxlama cəhdi və s.

Müəllif müharibənin törətdiyi faicəni göstərmək üçün oğul, əhvalatı ər, ata itkisinin yaşayan insanların naləsi ilə yükləyir. Üstəlik, Fikrət Əmirovun ayrılıqda mükəmməl olan musiqisi ilə filmi daha da ağırlaşdırır. Ona görə bəzi səhnələrlə musiqi artıq görünür. Çünki onsuz da təsvirlər danışaraq daha çox söz deyir. Hərçənd, Məzahir, Çingiz, Qurban obrazları bəzi hallarda ağırlığı yumorları ilə yüngülləşdirə bilir.

Ən maraqlı səhnələrdən biri oğlunun qara kağızını alan ananın ağlaması zamanı onu yox, məhz Səidənin, onun reaksiyasının göstərilməsidir. Bu halda ağrı daha ifadəli, təsirli alınır. Yaxud Şərifin Səidəyə atasının ölüm xəbərini deyəndən sonra, gənc qızın kədəri poçtalyonun möhürü məktublara tez-tez, əsəbiliklə vurması ilə sinxronlaşır və bu maraqlı həll ilə vəziyyətin gərginliyini daha çılpaqlıqla hiss edirik.

Dublyajda bəzi səslər xarakterlərə oturuşmur. Özəlliklə də, epizodik ifaçılarda. Uşaqlara isə yaxşı işlənilməyib. Bəzi səhnələrdə mizanların quramalığı nəzərə çarpır. Filmin adı ”Mən ki gözəl deyildim” olsa da, onu doğruldan bir epizod belə yoxdur. Hər halda Səidənin zahiri görkəmi ilə bağlı komplekslərini görmürük.

İlk quruluşda bir neçə döyüş səhnəsi çəkilsə də, bunlar növbəti quruluşa salınmayıb.

1969-cu ildə Kiyevdə keçirilən kinofestivalda Xuraman Qasımova ”Qadın rolunun ən yaxşı ifası”na görə diploma layiq görülüb...

Çəkilişlər Daşkəsən rayonunun Bayan kəndində və pavilyonda aparılıb.

***P.S. Bəzi faktlar Aydın Dadaşovun ”Rejissorların yetim qızları, yaxud ayaqsız cənnət quşları” məqaləsindən və Ulduzə Qaraqızının ”Azərbaycan filmlərinin yaranma tarixi” kitabından götürülüb.***

## "Yarımçıq qalmış" tamaşa davam edir

***Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı quruluşçu rejissoru Xalq artisti Vaqif Əsədov olan “Yarımçıq qalmış” tamaşasını növbəti dəfə sosial şəbəkədəki hesabları vasitəsilə iyunun 8-də təqdim edəcək.***



Teatrdan bildirilib ki, Yevda Abramov və Leyla Bəyimin “Yarımçıq qalmış...” (Xəyalpərvər oğlan”) əsəri əsasında hazırlanan eyniadlı tamaşa 2016-cı ilin aprel ayında cəbhə xəttində gedən döyüşlər zamanı şəhid olan Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının heykəltəraşlıq fakültəsinin məzunu Samir Kaçayevin xatirəsinə həsr olunub. Səhnə quruluşçu rəssamı Elşən Sərxanoğlu, rejissoru Gülnar Hacıyeva, plastik səhnələrin rejissoru Pərviz Məmmədrzayev, musiqi tərtibatçısı Ramiq Nəsirov, rejissor assistenti isə Sevda Hacışəmiyevadır.

Tamaşada əsas rollarda Əməkdar artistlər Elnur Kərimov, Leyla Vəliyeva, Elşən Rüstəmov, Rasim Cəfərov, aktyorlar Bəhram Həsənov, Anar Seyfullayev, Günel Məmmədova, Asya Atakişiyeva, Zemfira Əbdülsəmədova, Elnur Hüseynov, Manaf Dadaşov, Vahid Orucoğlu, Ramil Məmmədov, İlqarə Tosova, Nuriyyə Əliyeva və Elgün Yəhyayev çıxış edəcək.

# Kinomuzun ciddi problemləri: Kanna gedən yollar haradan keçir? - TƏNQİDÇİ DANIŞDI

***"A kateqoriyalı festivallar arasında ən önəmliləri Venetsiya, Berlin və Kanndır. İndiyə qədər bu festivalların əsas müsabiqəsinə heç bir Azərbaycan filmi düşməyib. Bütün heyətin azərbaycanlılardan ibarət olduğu bir filmin Kann festivalının proqramlarından birinə qatılması bizim üçün doğrudan da üstünlükdür".***

Bu sözləri Lent.az -a müsahibəsində kinotənqidçi Sevda Sultanova deyir.

Xatırladaq ki, ötən həftə rejissor Teymur Hacıyevin "Axşama doğru" filminin 73-cü Kann film festivalına qatılması xəbəri kinosevərləri sevindirdi. "La Semaine dela Critique" ("Tənqid həftəsi") proqramına daxil olan "Axşama doğru" bu nüfuzlu proqrama düşən ilk Azərbaycan filmdir. Elə Sevda xanımla söhbətimiz də bu məsələ ətrafında oldu. Kinotənqidçi kinosevərləri maraqlandıran bir neçə suallı cavablandırıb.



***- Azərbaycan kinosunu Kann festivalında təmsil edəcək filmimiz bu yerin haqqını verirmi?***

- Mən "Axşama doğru" filmini izləməmişəm. Ümid edirəm ki, yaxın müddətdə premyerası olacaq və marağında olan hər kəs izləyə biləcək. Amma onu deyim ki, Teymur Hacıyev çox istedadlı rejissordu. Onun "Şanxay, Bakı" filminin nəql texnikası çox orijinaldır. Bundan əlavə, Teymurun "Duz, istiot zövqə görə" filmi bir neçə nüfuzlu festivallarda nümayiş olunub və mükafat alıb. Buna görə də əminəm ki, o yenə də çox maraqlı bir film ərsəyə gətirib. Teymur Hacıyev, ümumiyyətlə, dövlətin dəstəyi olmadan çalışır. O, sənətini təmənnasız sevən bir rejissordur.

***- Başqa hansı filmləri orada görmək daha yaxşı olardı?***

- Venetsiya film festivalın ikinci proqramında Elçin Musaoğlunun "Nabat"i, daha sonra Kann film festivalına "Sonuncu" adlı film qatılıb. "Sonuncu" filmi Azərbaycanı təmsil edirdi, amma rejissoru rus idi. Ümumiyyətlə, Kann festivalında iştirak edən ilk filmimizin rejissoru milli kino tariximizdə əhəmiyyətli yer tutan onlarla sənədli filmin müəllifi Muxtar Dadaşovdur. Onun "Sovet Azərbaycanı" sənədli işi isə 1951-ci ildə Kann kinofestivalında "elmi-kütləvi və pedoqoji filmlər nominasiyasında" münsiflər heyətinin xüsusi mükafatına layiq görülüb.

***- Ümumiyyətlə, nüfuzlu festivallara filmlər nəyə əsasən seçilir?***

- Nüfuzlu festivallara çıxacaq filmlərimiz haqda danışırıqsa, onu deyim ki, bura yeni çəkilmiş, bu festivalların tələblərinə uyğun olan filmlər qatıla bilər. Amma bir sıra hallarda festivallarda konyunkturaya yol verilir. Məsələn, bir neçə əsas festival ötən il belə razılığa gəldilər ki, festivallarda kişi rejissorların filmləri çoxdur, qadın rejissorların da işləri olsun. Burdan belə çıxır ki, qadın rejissorlar çox olmalıdır deyə, keyfiyyətsiz işlərmi olmalıdır? Bir də görürsən ki, mükafat filmin mövzusunun aktuallığına görə verilir. Amma aktuallığına görə seçilən filmin sənət əhəmiyyəti aşağı olur. Yəni sənət meyarlarını əsas götürmürlər. Bunları nəyə görə deyirəm. Son illər çəkilən filmlərimiz orada mükafat alan filmlərdən heç də geri qalmır. Bəs niyə bizim filmlər ora çıxmır? Ona görə ki, bu festivallarda müştərək filmlərə daha böyük önəm verilir. Müştərək film odur ki, Azərbaycan bir neçə başqa ölkə ilə isethsalatda iştirak edir. Bu halda filmlərimizin əsas müsabiqəyə düşmək şansları çox olacaq. Azərbaycan nəyə görə müştərək layihələrdə iştirak etmir? 2008-2018-ci illərdə prezidentin sərəncamı ilə kino ilə bağlı prqoram qəbul edilib. Həmin proqramın bəndlərindən birində deyilir ki, Azərbaycan "Eurimages"a üzvü olmalıdır. Bu zaman ölkəmiz həm film üçün maddi dəstək qazana biləcək, həm filmin uğurlu prokatı olacaq, həm də mükafat qazana biləcək, üstəlik başqa üstünlüklər də var. Mədəniyyət Nazirlyi də bu proqramda yazılan bəndlərin əksəriyyətini yerinə yetirmədi, elə buna görə də bizdə bu məsələ öz həllini tapmadı.

***- Dünyada aparılan sorğulardan belə nəticəyə gəlmək olur ki, ötən əsrin filmləri indi çəkilənlərdən daha güclüdür. Eləcə də, Azərbaycan kinosu. Buna səbəb nədir?***

- Məsələn, mən özüm film izləmək istəyəndə, yaxşı bir kino tapmaqda çətinlik çəkirəm. Buna görə də kinonun mənbələrinə qayıdıram. Yəni 20-ci əsrdə yeni kino dili, kino istiqamətləri yaradan rejissorların filmlərinə baxanda görürəm ki, müasir rejissorlardan daha maraqlı, daha dərindilər. İndiki filmlərdə ruh çatışmır. Filmə baxanda rejissorun emosional yaşantısını görmək olmur. Trier, Almodovar, Venders, Zaydl kimi artıq mqasir dövrümüzdə klassikə çevrilmiş rejissorlar var, onlar başqa. Mən yeni nəsildən danışıram. Təkrarçılıq çoxdur. Yeni nəsil rejissorlar arasında favoritlərim iki nəfərdir: Ruben Estlund və Martin Makdonax. Ötən əsrdə italyan, alman, fransız kinosu üslubu, yanaşması ilə çox fərqlənib. Amma bu gün həmin ölkələrdə zəif filmlər daha çox çəkilir. Azərbaycana gəlincə, 1925-ci ildə Abbas Mirzə Şərifzadənin rejissorluğu ilə ekranlaşdırılan "Bismillah" ilk milli filmimiz hesab olunur. Yeri gəlmişkən, bu, ən yaxşı hesab etdiyim səssiz, Azərbaycan filmlərindən biridir. Azərbaycan kinosu inkişaf edə bilərdi. Amma düşünürəm ki, 1937-ci il repressiyaları Azərbaycan kinosunun qırılma nöqtələrindən biri oldu. Senzura gücləndi, yaradıcı insanlar təqib olundu, elə Abbas Mirzə Şərifzadənin özü həbs olundu. İnsanlar qorxu içində yaşamağa başladılar. Bundan sonra çox ucuz təbliğat filmləri çəkildi. 40-50-ci illərdə çəkilən filmlərin bir çoxu zəifdir. O vaxt baş verən əngəllər kino sahəmizə çox güclü təsir etdi.

# Teymur Mustafayev xüsusi qaydalar əsasında dəfn ediləcək



***Xalq artisti Teymur Mustafayev COVID-19-dan ölən bütün xəstələr kimi xüsusi qaydalar əsasında dəfn ediləcək.***

TƏBİB-dən APA -ya verilən xəbərə görə, dəfndə məhdud sayda insanın iştirakına icazə veriləcək.

Qeyd edək ki, Teymur Mustafayev bu gün koronavirusdan vəfat edib.

# Uşaqlara ŞAD XƏBƏR: yeni cizgi filmi gəlir



***"Azanfilm" Studiyası "Tıq-tıq və dostları möcüzələr axtarışında" maarifləndirici, çoxhissəli animasiya filminin 1-ci hissəsinin istehsalını tamamlayıb.***

Mədəniyyət Nazirliyindən verilən xəbərə görə, animasiya filminin 1-ci hissəsində Tıq-tıq öz dostları ilə cənub bölgəsinə səyahət edir və orada bitən, nadir ağaclardan olan dəmirağac haqqında məlumat verir.

Filmdə, həmçinin, başqa maarifləndirici məlumatlar da fərqli şəkillərdə balacalara çatdırılır.

Mədəniyyət Nazirliyinin sifarişi ilə "Azanfilm" Studiyasında istehsal olunan filmin ssenari müəllifi və quruluşçu rejissoru Sultan Abbasbəyli, bəstəkarı Azər Hacıəsgərli, səs rejissoru Mehman Nadirov, prodüseri Mansur Şəfiyevdir.

# "Bizi birləşdirən mədəniyyət" layihəsi davam edir

***Beynəlxalq Muğam Mərkəzindən "Bizi birləşdirən mədəniyyət" layihəsi çərçivəsində canlı yayımlar davam etməkdədir. Belə ki, ötən həftə BMM -dən layihənin 3 canlı efiri yayımlanmış və tamaşaçılar eləcə də sosial şəbəkə izləyicilər tərəfindın maraqla izlənilib.***

Uşaqların müdafiə günü ilə əlaqədar hazırlanan xüsusi canlı efirdə musiqi məktəblərinin istedadlı şagirləri çıxış edərək azərbaycan musiqi mədəniyytinin sabahının parlaqlığını nümayiş etdiriblər. Növbəti günlərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti efirin qonağı olub, universitetin rektoru, professor Ceyran Mahmudova təhsil ocağının fəaliyyətindən söz açıb. Həmin gün universitetin tələbələri maraqlı konsert proqramı ilə cıxış ediblər.

Xalq artisti Zəhra Quliyeva, violin ifaçısı Osman Mustafazadə də həftə ərzində canlı efirin qonağı olublar. Xalq artisti onlayn dərslər və tələbələrinin uğurları ilə bağlı düşüncələrini bölüşüb.

Əməkdar artist , rejissor Nicat Kazımov, ifaçılar Pərvin Lətifov və Aydan Rüstəmzadə də canlı efirin qonaqları sırasında olublar.

BMM-nin solisti, V Muğam Televizya Müsabiqəsinin qalibi Nisbət Sədrayeva "Bizi birləşdirən mədəniyyət" efirində sənətə gəlişi, musiqi təhsili və muğam sənəti ilə bağlı düşüncələrini bölüşüb. Həmin gün Aviasiya işçilərinin peşə bayramı da canlı efir vasitəsilə təqdim olunub. 5 iyun Şairlər günündə Xalq artisti ADMİU-nin Muğam kafedrasının müdiri Teyyub Aslanov və Əməkdar artist Azad Şükürovun qonaq olduğu canlı efir unudulmaz şair Mikayil Müşfiqə həsr edilib. Qonaqlar Müşfiq həyatı və yaradıcılığından söz açıb, tələbələrin ifasında şairin şeirləri və sözlərinə bəstələnmiş mahnılar ifa edilib.

BMM-nin solistləri və Muğam Televiziya müsabiqəsinin qaliblərinin iştirak etdiyi həftəiçi buraxılışlarda həm milli musiqi həm də klassik musiqilərə yer verilib.

Qeyd edək ki, "Bizi birləşdirən mədəniyyət" layihəsinin çəkilişləri həftəiçi canlı olaraq BMM-dən yayımlanır. Canlı yayımlar, eyni zamanda, BMM -nin "Facebook" səhifəsindən də təqdim edilir.

# “Koronavirusu Amerika və çinlilər istehsal edib" - Vaksinoloq alim




***Koronavirusun genetikası onun təbii mənşəli olmadığını, Çin və ABŞ alimləri tərəfindən hazırlandığını göstərir.***

“Unikal” medicina.az-a istinadən bildirir ki, norveçli vaksinoloq Birger Sörensen açıqlama verib.

”Quarterly Review of Biophysics” nəşrində dərc olunan yeni araşdırmada B.Sörensen sübut etməyə çalışır ki, koronavirusun quruluşundakı tikanabənzər zülalların ardıcıllığı onların süni yolla virusa yerləşdirildiyini deməyə əsas verir.

Həmçinin, alim virusun insanlar arasında yayılmağa başlamasından bəri mutasiyaya uğramadığını iddia edir. Bu isə COVID-19-un əvvəlcədən insanlara uyğunlaşdırıldığını deməyə əsas verir.

B.Sörensen iddia edir ki, bu, viruslar üçün qeyri-adi haldır.

”Biz virusu texniki olaraq təsvir etsək, təbii ki, bunun təbii inkişafın nəticəsi olmadığını görərik. Onu amerikalılar və çinlilər ”funksiya əldə olunmaqla yaranan mutasiya” adlandırdıqları araşdırma çərçivəsində istehsal ediblər.

Bu cür tədqiqatlar bütün dünyada aparılır. Heç kim bu barədə danışmır, lakin qabaqcıl laboratoriyalarda həmin işlər daim inkişaf etdirilir”, - deyə B.Sörensen bildirib.

Böyük Britaniyanın kəşfiyyat idarəsinin 1999-2004-cü illərdə rəhbəri olmuş Riçard Dirlav ”Telegraph” nəşrinə verdiyi müsahibədə qeyd edib ki, bəzi alimlərin araşdırmaları pandemiyanın laboratoriyada meydana gələ biləcəyini sübut edir:

”Düşünürəm ki, hər şey bədbəxt hadisə nəticəsində başladı. Sual yaranır, Çin buna görə məsuliyyəti öz üzərinə götürərək təzminat ödəyəcəkmi? Hesab edirəm ki, bütün ölkələr Çinə və onun rəhbərliyinə münasibətlərini yenidən nəzərdən keçirməli olacaqlar”.

# Azərbaycanlıların da əziyyət çəkdiyi - REVMATOİD ARTRİT

***Revmatoid artrit - Orqanizmin öz hüceyrələrinə düşmən kəsildiyi qeyri-adi, mürəkkəb bir xəstəlikdir.***

Son zamanlar çox yaşlı insanları, qadınları, eləcə də artıq orta yaşlı insanları da qəfil yaxalayan autoimmun xəstəliklərindən biri də revmatoid artritdir. Nəzərə alın ki, hazırki qidalanma, stress, yaşam tərzi ilə 30 -40 yaş arası revmatoid artritin əsası qoyula bilər.

“Unikal” medicina.az-a istinadən müalicəsi çətin olan bu xəstəliyin səbəb və əlamətlərini təqdim edir.

Kimlər risk altındadır?

-Qadınılar

-60-65 yaşlı insanlar

-Genetik meyilli xəstələr

-Oynaq aparatının müxtəlif iltihabi xəstəliyi olanlar

-Siqaret çəkənlər

Əlamətləri:

-Səhərlər oynaqlarda ağrı, simmetrik ağrı

-Oynaqların ətrafında şiş

-Oynaqların deformasiyası

-Əzələ zəifliyi, ağrıları

-Ümumi halsızlıq, gücün olmaması

-Revmatiod artrit biləklərdən, əllərdən, dabandan başlayır.

Diaqnozu təyin etmək üçün xüsusu revmatiod faktora aid qan analizi, C reaktiv zülal, rentgen, MRT təyin olunur.

Əgər yuxarıdakı əlamətlərdən biri varsa, vaxt itirmədən revmatoloq terapevtə müraciət etməlisiz.

Çünki revmatiod artrit əllər, dizlər, ayaqlardakı oynaqlardan başlayıb sonra digər damar və orqanları- ürək, göz, sinir sistemini zədələyir.

**Müalicəsi**

Qeyri-steriod iltihab əleyhinə dərmanlar, ağrıkəsicilər, qlükokordikoidlər təyin olunur. Xəstə daimi kontrolda olmalıdır. Xəstənin ürəyi, böyrəkləri nəzarətdə saxlanmalıdır. Oftalmoloq gözlərə baxmalıdır. Yaşlı insandırsa densitometriya ilə sümüklərin sıxlığı yoxlanılır.

Güclü ağrılar zamanı blokadalar yaxşı effekt verir. Bu prosedur xüsusi mütəxəssis tərəfindən USM altında, iltihab nöqtəsinə xüsusi preparatın yeridilməsidir.

**Həyat tərzi:**

-Qidalanma dəyişməli, qidada kalsium, xrom, folat, D vitamini vacibdir.

-Yüngül, müxtəlif hərəkətlər, gimnastika, məşqlər. Oynaq hərəkətsiz qalmamalıdır.

-Xüsusi fiksatorlar taxmalı.

-Fizioterapiya olunmalı

-Siqaretdən tam imtina olunmalıdır.

# Beyinin dərmanı super bitki - İnsultdan, demensiyadan qoruyur

***Bu möcüzəvi bitki bir çox xəstəliklərin əlacıdır. Onun qurudulmuş yarpaqlarından hazırlanmış preparatları, çayları apteklərdən əldə etmək mümkündür.***



“Unikal” medicina.az-a istinadən qinkqo biloba bitkisindən hazırlanan reseptləri sizə təqdim edir:

**1. Beyin aktivliyi artırmaq üçün vasitə**

Beyin aktivliyini və koqnetiv funksiyaları aktivləşdirmək üçün qinqko biloba yarpaqlarından hazırlanan məlhəmdən istifadə etmək lazımdır. Bunun üçün onu aptekdə satılan qurudulmuş yarpaqlarını xırdalayın. Onun 50 qr-nın üzərinə 0,7 l araq tökün. Qabın ağzının bağlayaraq 14 gün qaranlıq, quru yerdə mütəmadi çalxalamaq şərti ilə saxlayın. Qarışım hazır olan kimi terapiyaya başlamaq olar. Qarışımı bir ay müddətində gündə 3 dəfə yeməkdən əvvəl 20 damcısını suda həll edərək qəbul etmək tələb olunur. Ehtiyac olduqda kursu təkrarlamaq olar.

**2. Bu bitki infarkt və insult zamanı çox faydalıdır.**

Kəllə daxili təzyiqi normallaşdırır və insultun qarşısını alır.

**3. Vərəm və tənəffüs sisteminin infeksion xəstəlikləri zaman**

Bunun üçün əvvəlcə qinqko biloba bitkisinin quru yarpaqlarını xırdalayın. 1 x/q bitki yarpağını termosa tökərək üzərinə 300 ml qaynar su əlavə edin. Termosu bağlayın və 2 saat saxlayın. Gündə 3 dəfə yeməkdən 30 dəqiqə əvvəl yarım stəkan qəbul edin. Müalicənin müddəti 1-2 ay təşkil edir. Ehtiyac olduqda kursu təkrarlamaq olar.

**Allergiya əleyhinə**

Allergiyanın müalicəsi və proflaktikası üçün qinkqo biloba bitkisi ən yaxşı vasitə hesab oluna bilər. Bunun üçün 1 x/q bitki yarpaqlarının üzərinə 1 stəkan su əlavə edərək 5 dəqiqə müddətində qaynadın. Alınan dəmləməni yeməkdən 40 dəqiqə əvvəl 1-2 x/q qəbul etmək olar.

**5. Potensiyanı artırmaq üçün**

1 x/q yarpağın üzərinə 1 stəkan qaynar su əlavə edərək su hamamında 15 dəqiqə saxlayın. Daha sonra məhlulu 30 dəqiqə saxlayaraq gündə 2 dəfə yeməkdən əvvəl 3/1 stəkan qəbul edin.

**6. Qanazlığı dərmanı**

Əgər siz qanazlığından əziyyət çəkirsinizsə, o zaman qəhvəüyüdəndə bu bitkinin yarpaqlarını üyüdün və hər səhər suda həll edərək qəbul edin. Mütəxəsislər il ərzində 4 dəfə bu kursu təkrarlamağı məsləhət bilirlər.

# Viruslar immunitetimizdən güclü ola bilməz - Alimlər nə tövsiyə edir?

***Koronavirus öz bədxah yürüşünü davam edir. COVİD-lə əlaqəli vəziyyət aydın göstərir ki, biz bu virusla hələ uzun müddət yaşamalı olacayıq.***



İnsan müxtəlif törədicilərlə daim təmasdadır. Mikroorqanizmlərin mövcüdluğu insanın qoruyucu qüvvələrini daim oyaq vəziyyətdə saxlayaraq istənilən xəstəliklə mübarizəyə sövq edir. Lakin virusun xassələri təbii və ya süni şəkildə dəyişildikdə törədici aqressivləşir və orqanizmi təhlükə qarşısında aciz qoyur.

“Unikal” medicina.az-a istinadən bildirir ki, xəstəliyin əsasən hava - damcı və fekal-oral yol ilə yayılması virus həmləsini, demək olar ki, qarşısıalınmaz edir.

Xüsusən də yanaşı xəstəlikləri olan insanlarda ciddi fəsadlarla (tənəffüs çatışmazlığı, pnevmoniya, böyrək çatışmazlığı) ağırlaşan, spesifik müalicə metodları olmayan infeksiyadan necə qorunmaq olar?

Adi gigiyenik qaydalara (əllərin mütəmadi dezinfeksiyası, qapalı məkanlarda mümkün qədər az olmaq və maska taxmaq, qidalanma və yuxu rejiminə diqqət) riayət etmək, əlbəttə də ki, virusun yayılmasını əngəlləyən amillərdir.

Lakin xəstəliklə mübarizədə ən doğru önləndirici tədbir - məhz orqanizmin özünün müdafiə qüvvələrinin gücləndirilməsidir.

Orqanizmin daxili mühitinin normallığı, optimal fəaliyyət göstərən immun sistemi - xəstəliklərdən qorunmaq üçün vacibdir.

Bu məqsədlə pandemiya dövründə ABŞ-da, Finlandiyada, Çində, Türkiyədə virusla mübarizədə uğurlu nəticələr vermiş Yüksəkdozalı Vitamin C tövsiyə olunur.

Yüksəkdozalı Vitamin C-nin terapevtik faydası tədqiqatlarla sübut olunub. Yüksəkdozalı vitamin C-nin çoxsaylı farmakoloji xüsusiyyətləri sırasında aşağıdakılar immun sisteminə təsir edərək virus infeksiyalarının profilaktika və müalicəsində olduqca əhəmiyyətlidir:

- İmmun sisteminin spesifik hüceyrələri və neytrofillərin aktivliyini normallaşdıraraq virus və bakteriyaya qarşı immun cavabı təmin edir

- Komplement sistemini aktivləşdirir

- İnterferon sintezini artırır

- Antioksidant təsir göstərir

Venadaxili Yüksəkdozalı Vitamin C ölkəmizdə də COVİD-19 -a yoluxmuş xəstələrə istifadə olunmuş və arzuolunan nəticələr əldə olunmuşdur.

# "İnsanların da sağlamlığına zərər vura bilərik" - Tebas

***İspaniya La Liqasının prezidenti Xavyer Tebas, "Barselona"nın futbolçusu Nelson Semedonun karantin qaydalarını pozaraq dostunun ad günü partisində iştirak etməsi haqda danışıb.***

"Unikal" qəzeti xəbər verir ki, Tebas, Semedonun sosial məsafə qaydalarını pozması və maska taxmadığı üçün məşqdən uzaqlaşdırılmasına münasibət bildirib:

"Ümid edirik ki, bu cür şeylərə bir daha yol verilməyəcək. Ancaq futbolçular belə partilərə getməyə davam etsə, artıq başqa yolumuz qalmayacaq. Futbolçulara etibar etdiyimizi əvvəlcədən də sübut etmişik. Onlardan istədiyimiz etimadımızı doğrultmalarıdır. Qaydaları pozsaq, təkcə La Liqaya deyil, insanların da sağlamlığına zərər vura bilərik".



Nelson Semedo karantin qaydalarını pozduğu üçün "Barselona"nın əsas komandasından uzaqlaşdırılıb. La Liqa dünən keçirilən "Sevilya" - "Betis" matçıyla (2:0) başlayıb.

## UEFA avrokubokların məkanını müəyyənləşdirib

***UEFA Çempionlar Liqası (ÇL) və Avropa Liqasının (AL) qalan mərhələlərinin formatını müəyyənləşdirib.***

"Unikal" qəzetinin "Sky Sport"a istinadən məlumatına görə, qitə futbol qurumu oyunların keçirilməsini qərara alıb.

UEFA İcraiyyə Komitəsi həm ÇL, həm də AL-i 1/4 final mərhələsindən etibarən "8-lər finalı" formatında təşkil etməyi və qarşılaşmaların 1 oyundan ibarət olmasını qərarlaşdırıb. Qurum Avropanın ən nüfuzlu klub turnirinin qalan matçlarının Portuqaliyada, ikinci dərəcəli yarışın isə Almaniyada keçirilməsini istəyir. UEFA Superkubokunun isə Macarıstanda (Budapeşt) təşkili planlaşdırılır.




Qeyd edək ki, Çempionlar Liqasının final oyunu İstanbula, Avropa Liqasının həlledici qarşılaşması isə Qdanska həvalə edilib. UEFA yekun qərarını iyunun 17-də baş tutacaq videokonfransdan sonra açıqlayacaq.

## Azərbaycan Milli Olimpiya Komitəsinə pul ayırıldı

***Milli Olimpiya Komitələri Assosiasiyası (ANOC) koronavirus pandemiyası səbəbindən milli olimpiya komitələrinə maliyyə yardımı edəcək.***

"Unikal" qəzetinin məlumatına görə, ANOC Tokio-2020 Yay Olimpiya Oyunlarında iştirak edəcək ölkələrə hazırlıq prosesi üçün ümumilikdə 11 milyon 650 min dollar pul vəsaiti ayırıb.

Həmin məbləğ 206 milli olimpiya komitəsi arasında bərabər bölünəcək. Bu isə o deməkdir ki, Azərbaycan Milli Olimpiya Komitəsinin payına 56 min 550 dollar düşəcək.

Qeyd edək ki, Tokio-2020-də gələn il iyulun 23-dən avqustun 8-dək keçiriləcək.

## "Qarabağ" və "Neftçi" istəyirdi, "Rapid"ə keçir



***İtaliya milli komandasının sabiq futbolçusu Dieqo Fabbrini 2019-cu ildə formasını geyindiyi "Dinamo" (Rumıniya) klubundan ayrılıb, Azərbaycana - "Qarabağ" və ya "Neftçi"yə gələ bilərdi.***

"unikal" qəzeti "prosport.ro" saytına xəbər verir ki, bu barədə 30 yaşlı yarımmüdafiəçinin meneceri Florian Manea açıqlama verib. Manea, hazırda italyan yarımmüdafiəçiylə Rumıniyanın "Rapid" klubunun da yaxından maraqlandığını deyib:

"Fabbrinini "Rapid" istəyir. Niyə də olmasın? Fabbrini artıq klub rəhbərliyinə deyib ki, hər iki təklif cəlbedicidir və rədd edilə bilməz. Fabbrini son vaxtlar maaşlarını gec alır və bu da onun komandadan ayrılmasına səbəb ola bilər".

Fabbrini 2012-ci ildə İtaliyanın əsas yığmasında bir oyun keçirib. O, karyerası ərzində İtaliyada "Empoli", "Udineze", "Palermo", "Siena", "Spetsia", İngiltərədə "Uotford", "Milluoll", "Birmingem", "Middlsbro", İspaniyada "Ovyedo", Rumıniyada "Botoşani", Bolqarıstanda ÇSKA klublarında forma geyinib.

## "Messi 70 yaşına kimi oynamalıdı..."

***"Barselona"nın sabiq hücumçusu Samuel Eto'o Lionel Messi haqda fikirlərini "Marca" ilə bölüşüb.***

"Unikal" qəzeti xəbər verir ki, Eto'o Leonun hələ uzun müddət futbol oynamalı olduğunu düşünür: "Messi tarixin ən yaxşı futbolçusudu. Mən olsam, komandaya yeni cəlb olunacaq oyunçularla bağlı həmişə Leo ilə məsləhətləşərdim. Fikrimcə, onun köməyə ehtiyacı var. Messi artıq 25 yaşlı biri kimi qaça bilmir. Hərçənd arada ona da cəhd edir. Messini ən yaxşı komanda yoldaşları təmin etməliyik ki, oyunundan zövq ala bilsin. Leo 70 yaşına kimi oynamalıdır ki, biz də futboldan mümkün qədər zövq alaq".



## 21-ci əsrin ən yaxşı idmançıları açıqlandı

***İspaniyanın "Marca" qəzeti 21-ci əsrin ən yaxşı 100 idmançısının siyahısını dərc edib.***

"Unikal" qəzeti xəbər verir ki, siyahıya üzgüçülük üzrə 23 qat olimpiya çempionu Maykl Felps başçılıq edir. Futbolçulardan "Barselona"nın kapitanı Lionel Messi və "Yuventus"lu Kriştiano Ronaldo 10-luqda yer alıb.

**İlk 10-luq**

1. Maykl Felps (üzgüçülük)
2. Useyn Bolt (qaçış)
3. Roje Federer (tennis)
4. Rafael Nadal (tennis)
5. Kobe Brayant (basketbol)
6. Tayqer Vuds (golf)
7. Lionel Messi (futbol)
8. Luis Hemilton (formula 1)
9. Valentino Rossi (motosiklet yarışı)
10. Kriştiano Ronaldo (futbol)

## Çempionlar Liqasında Azərbaycan çempionu üçün potensial rəqiblər

***Çempionlar Liqasında hazırkı mövsümün taleyi ilə bağlı hələ ki yekun qərar yoxdur, ancaq növbəti mövsüm üçün iştirakçılardan bəziləri artıq dəqiqləşib.***

"Unikal" qəzetiBunların sayı ümumi 30-dur və onlardan 21-i 1-ci təsnifat mərhələsində iştirakı dəqiqləşənlərdir. Bu isə o deməkdir ki, həmin komandalar mübarizəyə 1-ci raunddan başlayacaq Azərbaycan çempionunun da potensial rəqibləridir. Hələlik səbətlərə bölünmə aparılmadığından bütün klublar mümkün rəqib sayılır.

**Çempionlar Liqası (2020/21)**

**1-ci təsnifat mərhələsi**

"Omoniya" (Kipr)
"Srvena Zvezda" (Serbiya)
"Seltik" (Şotlandiya)
"Dinamo" (Brest, Belarus)
"Yurqarden" (İsveç)
"Molde" (Norveç)
"Astana" (Qazaxıstan)
"Şerif" (Moldova)
"Dandolk" (İrlandiya)
"KuPS" (Finlandiya)
"Reykyavik" (İslandiya)
"Sarayevo" (Bosniya və Herseqovina)
"Suduva" (Litva)
"Riqa" (Latviya)
"Fola" (Lüksemburq)
"Floriana" (Malta)
"Flora" (Estoniya)
"Dinamo" (Tiflis, Gürcüstan)
"Konnaks Kuey" (Uels)
"Klaskvik" (Farer adaları)
"Europa" (Cəbəllütariq)

**Qrup mərhələsi**

"Liverpul" (İngiltərə)
"Bavariya" (Almaniya)
PSJ (Fransa)
"Marsel" (Fransa)
"Brügge" (Belçika)

**Pley-off**

"Ayaks" (Niderland)

**3-cü təsnifat mərhələsi**

"Renn" (Fransa)
"Gent" (Belçika)

**2-ci təsnifat mərhələsi**

" AZ Alkmaar" (Niderland)

## Futbolçulara bir mövsümdə üç klubda oynamağa icazə verildi

***FİFA futbolçulara bir mövsüm ərzində 3 klubda oynamağa icazə verib.***

"Unikal" qəzeti qurumun rəsmi saytına istinadən xəbər verir ki, bu, müvəqqəti icazədir. Koronavirus pandemiyası ilə əlaqədar oyunçuların işsizlik riskini azaltmaq üçün bu qərar verilib. Müvəqqəti dəyişiklik artıq qüvvəyə minib.

Qeyd edək ki, buna qədər FİFA qaydalarına əsasən, futbolçu mövsüm ərzində yalnız iki klubda rəsmi oyunlara çıxa bilərdi.

**Səhifəni hazırladı: Aygün İlqarqızı**

# "3 ay efirə çıxan qızın 10 sponsoru var" - Nisə Qasımova

***Xalq artisti Nisə Qasımova açıqlaması ilə müzakirələrə səbəb olub.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, müğənni "Bakı vaxtı ilə" proqramında qonaq olarkən illər əvvəl yaşadıqlarından söz açıb. O bildirib ki, sənətdə onun yolunu çox kəsiblər:

"Səhnəyə ilk gələndə Bakı bir-birinə dəydi: sarışın qız muğam, təsnif oxuyur. Psixoloji çaxnaşma var idi. Biri dedi, anası ukraynlıdır, biri dedi almandır. Göylərdə uçan vaxt məni məhv etdilər. O qədər vurdular ki, məni... Utanıram ki, bu yaşda uşaq kimiyəm. Böyümədim... (kövrəlir) Dekabrda dedim ki, mən də küçəyə çıxmaq, insan içində gəzmək istəyirəm. "Tarqovu" deyilən yerdə ürəklə gəzdim".

Qasımova hazırda iş adamlarının gənc ifaçılara daha çox sponsorluq etməyə can atdıqlarını söyləyib:



"Hər şeyi gizlətməkdən bezdim. Bir məmurla söhbət edirsən ki, verəcəyin konsertin sponsoru olsun, amma başlayır bəhanələr gətirir. Ancaq 3-4 ay efirə çıxan müğənni konsert verir və ona nə qədər sponsor gəlir. Bir gün efirdə anons gedir 10 sponsoru çıxır. ya bunların prodüserləri güclüdür, ya da onlar məndən ağıllıdırlar. Mənim kimi təcrübəli müğənnilər kənarda qalıb. Konsertin texniki tərəflərini həll etmək üçün ən azından sponsora ehtiyacım var".

Verilişin aparıcısı, müğənni Roza Zərgərlinin "47 ildə Nisə Qasımova səhnədə xoşbəxt idi?" sualına müğənni belə cavab verib:

"Heç bir insana xoşbəxtlik doğulandan sona kimi verilmir. Xoşbəxt anlar və məqamlar olur. Verdiyim konsertlərin heç birindən evə xoşbəxt qayıtmamışam. Çoxlu güllər, hədiyyələrlə qayıtmışam. İçimdə xalqdan qalan bir yalan oldu. Biri var insan özü yalançıdır, biri var onu vadar edirlər: xoşbəxtəm, Azərbaycan qızıyam. Bu Azərbaycan qızının içində qara qanlar axır. Ona toxunsan, heç bilmirəm, nələr ola bilər. Aldanmışam...".

# "Oğlumun 24 yaşı var məndən qoca görünür" - Nadir



***"Oğlum deyir ki, sənlə küçəyə çıxmaq istəmirəm. Elə biləcəklər mən sənin atanam. 24 yaşı var, amma məndən yaşlı görünür".***

Bu sözləri müğənni Nadir Qafarzadə "5/5" verilişində deyib. Sənətçi oğullarından bəhs edib. O, arzusunda olduğu gəlin tipindən danışıb: "Çalışdım uşaqlarıma Avropa təhsili verim. Alacağı qız da ən azından savadlı olmalıdır. Getdiyi yerdə özünü aparmağı bacarmalıdır. Savadlı olmaq, güclü olmaq deməkdir.

Böyük oğlum şıltaqdır. Hərdən deyir, mənim üçün nə etmisən? Çox deyir... Cavab verirəm ki, bəs, bunları kim edib? Deyir, eləməlisən də... Etməli deyiləm, heç kimin heç kimə borcu yoxdur. Deyirəm, axı mənim üçün heç kim heç nə etməyib? Qayıdır ki, gör sən kimin oğlu olmusan, mən kimin oğluyam. Onda susuram.

Uşaqlarım peşəmi bəyənməməzlik etmir. Çünki bunun çörəyini yeyirlər. Hətta hərdən Əziz deyir ki, bunu geyin, müğənnisən, dəblə ayaqlaş. Dəbli və çərçivədə geyin".



# Koronavirus əməkdar artisti də çətin duruma

***Yığdığınız pulu xərcləsəniz, dekabra qədər gedər? Bu sualla Zaur Kamal "5/5"-də qonağı olan Əməkdar atist Mətanət İsgəndərliyə müraciət edib.***

Xanım sənətçi aparıcıya "Dekabra qədər yox. Qurtarıb, elə iki aya qurtardı" cavabını verib.

Qeyd edək ki, koronavirus infeksiyası ilə bağlı karantin rejimi ilə əlaqədar martın 20-dən etibarən ölkədə müğənnilərin əsas qazanc yeri olan bütün şadlıq evlərinin fəaliyyəti dayandırılıb.

# "Alınmayacaq, zamana başqadır" - Ədalət Şükürov

***"Alınmayacaq, zəmanə başqadır. Heç nəyi dəyişdirə bilmərik. Əvvəl biz kitab oxuyardıq, indikilər yox. Girirlər internetə hər şeyə baxırlar, elektron kitab oxuyurlar. Amma həmişə demişəm: Kitab oxuyan televizora baxanın rəisi olacaq".***

"Unikal" xəbər verir ki, bu sözləri Əməkdar artist Ədalət Şükürov "Show news"a açıqlamasında deyib. Müğənni sənətə ilk gəldiyi vaxtlarda ona edilən haqsızlıqları etiraf edib: "İndiyənə qədər çalışmışam heç kimə qarşı səhv etməmişəm. Azərbaycana yeni gələndə təəccüblənirdim. Başlayırdılar mikrofunun səsini azaltmağa, batareyasını çıxarmağa, ya səhnəyə çıxanda məni elan etmirdilər. Amma mən onlara özümü sübut etdim, dedim ki, mənə qarşı elə olmayın. İndi mənə qarşı nə operatorlardan, nə jurnalistlərdən, nə aparıcılardan neqativ nəsə olub".



# Afətin "Gelandewagen"ini soyublar

***Müğənni Afət Fərmanqızının avtomobilini soyublar.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, sənətçi bu haqda "Bu şəhərdə" komandası ilə İnstaqram-da canlı yayımda olarkən deyib. O bildirib ki, hadisə Sumqayıtda baş verib. İfaçının "Gelandewagen" markalı maşının qapısını sındırıblar:

"Hər zaman dostlarıma deyirəm ki, maşında çanta qoymayın. Ona görə maşının şüşələrin sındırırlar. Sumqayıtda bir açılışa getmişdim. Çantanı qoydum maşının içinə, düşündüm ki, tez reklam edib qayıdacam. Çəkdi 40 dəqiqə... Mindim maşına, qapı qəribə gəldi. Düşündüm ki, istidən olub. Yol gedəndə qəfildən qapı açıldı, əlimlə tutdum. Yolda yaxşı ki, maşın yox idi, yoxsa qapını apardı. Heç nə götürə bilməyiblər, amma min manat ziyana düşdüm. Polisə şikayət etmişəm, hələ xəbər yoxdur".